


# ƏHLİ-BEYT

# ƏHLİ-BEYT

İMAN 2013

**Bismillahir-rəhmanir-rəhim**

**Müəllif:Islam araşdırmalar qrupu**

# ƏHLİ BEYT (ə)

Insan zatən özünü və ətrafındakı aləmi düzgün tanımağa möhtacdır. Elə bu mərifət sayəsində gözüaçıqlıqla yaşayır, haradan gəldiyini, haraya gedəcəyini və harada olduğunu yaxşıca bilir və kamilləşmək uğrunda hərəkət etmək üçün lazım olan prinsipləri tanıyır. Bir sözlə desək, insanın təkamülü həmən bu mərifətdən asılıdır.

Varlığı, xüsusilə qeyri-maddi aləmi tanımaq, mənəvi həqiqətləri dərk etmək yalnız qeyri-maddi aləmin elçiləri olan əmin və sədaqətli insanların vasitəsilə mümkündür.

Çünki, gözün işıqsız görməyə qüdrəti olmadığı kimi, ağlın da mənəvi rəhbərlərdən istifadə etmədən həqiqətlərə və səadətə yol tapa bilməyəcəyində heç bir şübhə yoxdur. Deməli, insanın səadət yolu, yalnız əql vasitəsilə həqiqi rəhbərləri tanıyıb, onların əmrlərindən itaət etməkdə həsr olunubdur.

Elə buradan islam peyğəmbəri və on iki imamdan və həzrət Fatimədən (s) ibarət olan Əhli-beyt (ə)-ı tanımağın nə dərəcədə əhəmiyyətli olduğu aydınlaşır. Çünki, həzrət Peyğəmbər (s) və onun haqq canişinləri sadiq və seçilmiş insanlar olduqları üçün, Allahı və onun əmrlərini, həmçinin dünya və axirəti tanıtmaqda bizlərə yardım edə bilərlər. Yalnız onları örnək və ülgü seçməklə, yaranışımızda olan məqsədlərə çatıb, xaliqimizin razılığını ələ gətirə bilərik.

Həzrət Peyğəmbərin (s) özü də bu mətləbə təkrar-təkrar işarə etmişdir. Məşhur sünni alimlərindən olan Müttəqi Hindi öz «Kənzul-ummal» adlı kitabında belə yazır:

«Həzrət Əbuzər Kəbənin pərdəsindən yapışıb deyirdi: Mən öz qulağımla eşitdim ki, həzrət Peyğəmbər (s) belə buyurdu:

***«Mənim Əhli-beytim Nuhun gəmisi kimidir. O gəmiyə minən nicat tapacaq və ondan geridə qalan həlak olacaq».*** *(Hakim Nişapurinin «Müstədrək» kitabı, 3-cü cild, səh.151).*

Ümid edirik ki, bir qrup alimin səyləri nəticəsində hazırlanan bu kitab, islam dini və nicatverici **Əhli-beyt (ə)** məktəbi ilə tanış olmaqda sizlərə yardımçı olsun.

# GİRİŞ

Həzrət Məhəmməd (s) buyurmuşdur:

***«Mən sizin aranızda iki qiymətli şeyi əmanət qoyub gedirəm, onlardan biri Allahın kitabı, digəri isə itrətim, yəni mənim Əhli-beytimdir. Onlara bağlı olan vaxta qədər yolunuzu azmayacaqsınız. Onlar cənnətdə kövsər hovuzunun kənarında mənə qovuşanadək bir-birlərindən ayrılmayacaqlar».***

Əhli-beyt (ə) dinin uca göylərinin parlaq ulduzları və işıq saçan insaniyyət məktəbidirlər. Onlar Allahın Peyğəmbərinə (s) qırılmaz tellərlə bağlı olan kamil insan nümunələridirlər. Çünki, bu müqəddəs şəxsiyyətlər Peyğəmbərin (s) elm bulağından su içmiş, onun pak evində böyümüş və ancaq onun getdiyi yol ilə hərəkət etmişlər. Məhz, bu şəxslərdir ki, milləti Allahın kitabına və Peyğəmbərin (s) şəriətinə iman gətirməyə dəvət edib, öz həyatlarında bunun əməli yolunu onlara göstərmişlər. Həmən şəxsiyyətlərdir ki, xalqı haqqa doğru çağırıb, özləri isə bir an belə olsun, həqiqətdən uzaq düşməmişlər. Əvvəldə zikr olunan hədisdən də məlum olur ki, onlar Qurani-kərimdə olan bütün dəyərlərin və uca mənaların ən gözəl nümunələridirlər. O cəhətdən də Qurani-kərim onların barəsində belə buyurur:

***«Həqiqətən, Allah-taala yalnız siz Əhli-beytdən pislik və çirkinlikləri uzaqlaşdırıb, sizi pak-pakizə etmək istəyib.»****(Əhzab surəsi, ayə 33)*

Əhli-beyt (ə) haqqında nazil olan ayələr və rəvayət olunan aşkar hədislər, tarix boyu müxtəlif zaman və məkan şəraitində müsəlmanların qəlblərində yaşamışdır. Bu etibarlı mənbələr, elm və mərifət xəzinləri, bir sözlə Əhli-beyt (ə) tarixi, zaman keçdikcə daha da canlı və önəmli bir şəkildə müsəlmanların namuslu təfəkkürlərində kök salaraq, bir daha onları islamın ülvi hədəflərinə doğru istiqamətləndirir.

Islam ümmətinin vəhdəti və onların ideal birliyi üçün Əhli-beyt (ə) yeganə mehvər və mərkəzdir.

Biz bu müxtəsər kitabda Əhli-beytin (ə) həyatı, məqamı və tarixi rolları haqqında bəzi məsələləri oxuculara çatdırmağa çalışacağıq. Bu kitabı təqdim etməklə yanaşı, müsəlman bacı-qardaşları Əhli-beytin (ə) hikmətli söz və həyat yolundan istifadə edib, onlara əməl etməyə, bu nümunəvi və ilahi rəhbərlərin ətrafında birləşərək vəhdət təşkil etməyə, həmçinin müsəlmanların arasında ayrı-seçkilik salmaq istəyən qüvvələrin qarşısında durmağa dəvət edirik. Çünki, bu gün müsəlmanlar dünyanın müxtəlif yerlərində islam qanunlarını icra etmək və ilahi ədalətin sayəsində yaşaya bilmək üçün imperializmin, şovinizm, kapitalizm və xülasə kafirlərin və islam düşmənlərinin qarşısında mübarizə və müharibə vəziyyətindədirlər. Bir daha müsəlman qardaşlarımızdan ümmətimizin bütün qüvvəsini islam dininə dəvət və onun müqəddəs qanunlarını müdafiə etmək yolunda sərf etməyə, həmçinin millətçi, tayfabaz və məzhəbçi kimi adamlar vasitəsilə millətimizi parçalamaq istəyən düşmənlərə fürsət verməməyə dəvət edirik! Ey böyük Məhəmməd (s) ümməti, Əhli-beyt dostları və müsəlman bacı-qardaşlarımız...! Sizin hamınızı vəhdət və birliyə dəvət edirik..! Nəhayət bilməlisiniz ki, müsəlmanların izzət, kəramət və şərəfi yalnız və yalnız islami vəzifələrə, yəni Allahın kitabına, həzrət Peyğəmbər (s) və Əhli-beytin (ə) sünnəsinə əməl etməklə hasil olar..!

***«Ey Peyğəmbər (müsəlmanlara) söylə: Əməl edin, Allah, Onun rəsulu və möminlər sizin əməllərinizi görəcəklər.»*** *(Tövbə surəsi, ayə 105)*

## MÜQƏDDİMƏ

**«Əhli-Beyt»** kəlməsi həzrət Peyğəmbəri (s) sevən, ona iman gətirən və o Həzrətin yolunu gedən hər bir müsəlman üçün, parlaq, əzizlənən və əbədi bir kəramətin nişanəsi olan müqəddəs addır.

Onlar Qurani-kərimin üfüqündə ilahi vəhy vasitəsilə bu əzəmətli ləqəblə məşhurlaşdıqdan sonra, müsəlmanlar bu mübarək adı tanımış və başa düşmüşlər ki, Rəbbimiz bu müqəddəs ifadəni insanlıq dünyasında zahir olan misilsiz şəxslərə bəxş etmişdir.

***«Həqiqətən Allah-taala yalnız siz Əhli-beytdən pislik və çirkinlikləri uzaqlaşdırıb və sizi pak və pakizə etmək istəyib.»****(Əhzab-33)*

Bu mübarək ayənin nazil olması ilə islam cəmiyyətində həqiqi hərəkət yolu və yüksək hədəflərə gedən ideologiyanın hüdudları müəyyən olmuşdur. Qurani-kərim bu təbirlə nəzərləri Əhli-beyt (ə)-a doğru cəlb etmiş və onların islam ümmətinin həyatındakı rolunu açıqlayıb, bu şərif ayənin mənasını yalnız onlara aid etmişdir. Islami elm və maarif sahəsində tədqiqat aparan və müsəlmanların həyatı haqqında məlumatı olan hər bir şəxsə məlumdur ki, bu böyük hadisənin islam xalqlarının həyatında, islam tarixinin meydana gəlməsində və islam mədəniyyətinin yaranmasında nə qədər yüksək rolu vardır.

Bu ayə həzrət Peyğəmbərdən (s) sonra, tarixi hərəkatların mərkəzini islam qanunlarına və məntiqinə uyğun bir şəkildə müəyyən etmişdir. Allah bu seçilmiş nəslə (Əhli-beyt (ə)) bu mübarək keyfiyyəti (bütün günahlardan, pisliklərdən və xətalardan pakizə olmağı) əta etdikdən sonra, fəzilətin ən üstün dərəcəsini onlar üçün isbat etmiş və islam cəmiyyəti üçün ən layiqli rəhbərlər təyin etmişdir. Bu seçki Qurnın insanların yaranışında olan ümumi fəlsəfəsinə tam müvafiqdir. Allah-taala Hücurat surəsinin 113-cü ayəsində bu barədə (insan yaranışında olan ümumi məqsəd haqqında) buyurmuşdur:

***«Allahın nəzərində ən əziz və üstün adamlar, sizin daha çox imanlı və təqvalı olanlarınızdır.»***

Qurani-kərimi və həzrət Peyğəmbərin (s) müqəddəs şəriətini mütaliə edən hər bir kəs görər ki, Əhli-beytin (ə) çox yüksək bir məqamı və ülviyyəti vardır. Bu barədə islam tarixində bütün məzhəb və təriqətlərdə tanınmış rəhbərlər, alimlər, təfsirçilər, hədis raviləri, tarixçilər, fəqihlər, ariflər və abidlər hamısı geniş söhbət açmışlar. Müxtəlif məzhəblərdən olan müsəlmanların yazdıqları hədis, sirə, tarix, ədəbiyyat, şer və s. kitablarda Əhli-beytə (ə) böyük əhəmiyyət verilmiş və onlar üçün xüsusi və əzəmətli bir məqam bəyan edilmişdir. Möminlərin imanının, həzrət Peyğəmbər (s) və Əhli-beyt (ə)-a bəslədikləri məhəbbətin dərəcəsi ilə ölçülməsi, onların tərif və mədhlərinin bəyan edilməsi ilə qəlblərdəki məhəbbətin artırılması, onlara zülm edən şəxslərə qarşı düşmənçilik hissinin bəslənilməsi və onların dərdinə şərik olub, narahatlıqlarının izhar olunması yolunda müsəlmanların bir-birləri ilə rəqabət etmələri dediyimiz mətləbi bir daha sübut edir.

Əhli-beyt (ə) elm, təqva, əxlaq, şərəf və həqiqət yolunda dönməzliyin, islamı elm və silah ilə

müdafiə etməyin, zülmə, ədalətsizliyə qarşı mübarizə aparmağın misilsiz simvoludur. Ona görə də bütün müsəlmanlar inanırlar ki, bu ümmətin içərisində Allah-taala Əhli-beyt (ə)-dan başqa heç kəsə bu məqamı verməmişdir. Bəli, Allah ancaq bu sülaləni bütün günah və pisliklərdən pakizə etmişdir.

Allah yalnız onların dostluğunu bu ümmətə vacib etmiş və onları sevməyi müsəlmanların həzrət Peyğəmbərə (s) olan vəzifə və borcları kimi təyin etmişdir.

***«Ey Peyğəmbər, müsəlmanlara söylə ki, mən sizdən peyğəmbərlik yolunda çəkdiyim zəhmətlərin qarşısında Əhli-beytimi sevməkdən başqa bir şey istəmirəm. Hər kəs yaxşılıq edərsə, biz də onun yaxşılıqlarını artırarıq.»*** *(Şura surəsi, ayə 23)*

Həmçinin, Allah-taala onlara gündə beş vaxtda qılınan namazda salavat göndərməyi vacib etmiş, onların adını həzrət Peyğəmbərin (s) adı ilə yanaşı gətirmişdir. Allah-taala Qurani-kərimdə buyurub:

***«Şübhəsiz Allah və Onun mələkləri Peyğəmbərə salavat göndərirlər. (Siz də) ona (Peyğəmbərə) salavat və salam göndərin.» (Əhzab surəsi, ayə 56)***

Müsəlmanlar həzrət Peyğəmbərdən (s) hansı şəkildə ona salavat göndərmələrini soruşanda, onlara bu qaydada salavat göndərməyi öyrətdi:

***«Deyin: Ey Allah! Məhəmməd və onun Əhli-beytinə salavat göndər, necə ki, Ibrahim peyğəmbər və onun övladına salavat göndərdin. Sən həqiqətən yüksək və ibadət olunmuş varlıqsan.»***

Deməli, ümmətin içərisində bu xüsusiyyətlərə malik olan ayrı heç bir kimsə yoxdur. Elə buradan da Əhli-beytin (ə) əzəmət və məqamları, onları sevməyin vacibliyi və onlara tabe olub getdikləri yol ilə getməyin bütün müsəlmanlara lazım olduğu məlum olur. Qurani-kərimin Əhli-beyt (ə) haqqında bu qədər təkid edərək, onların əzəmət və məqamlarını tanıtmağından əsas məqsədi budur ki, hamı onları sevsin və həqiqi islamı məhz bu müqəddəslərdən öyrənsin. Bəli, Quran onları əqidə, məktəb və ideologiyaları üçün bu şəkildə tanıtdırmışdır. Eyni zamanda Quranın və həzrət Peyğəmbərin (s) Əhli-beyti (ə) bu şəkildə təqdim etməsi, hər bir müsəlmanı düşünməyə və seçilmiş insanları daha yaxşı tanımağa məcbur edir.

Biz gələcək fəsillərdə Qurandan, həzrət Peyğəmbərin (s) sünnəsindən, müsəlman alimlərin, ədiblərin və s. sözlərindən istifadə edib bu mübarək və pakizə sülaləni və bu hidayət rəhbərlərini tanıtmağa çalışacağıq.

## QURANDA ƏHLİ-BEYT ƏLEYHİSSALAM

Qurani-kərim düşüncə, qanun və hikmət qaynağıdır. Quranda olan kəlamların hamısı vəhy və Allahın müqəddəs ayələridir ki, insanların həyat və məişət qanunlarını göstərmək və müəyyən etmək üçün nazil olmuşdur. Bütün müsəlmanlar bilirlər ki, bu qanunlar şəriət və həyatın bütün sahələrini əhatə edir və buna görə də onlara əməl edib, onun işığında hərəkət etmək zərurətdir. Quran müxtəlif şəkillərdə Əhli-beyt (ə) haqqında bəhs etmişdir:

1. Bəzən xüsusi ifadələr və adlarla onlardan söhbət açır: Məsələn, Quranda «Əhli-beyt», «Zəvil-qurba» və bu kimi sair ifadələrlə rastlaşırıq. Bu keyfiyyətlə bir çox ayələr nazil olmuşdur ki, onlar həzrət Peyğəmbərin (s) zamanında onun söylədiyi hədislər vasitəsi ilə açıqlanmışdır. O hədislər müasir təfsirçilərin və hədis söyləyən ravilərin kitablarında mövcuddur.

2. Bəzən də Əhli-beyt (ə)-a aid olan hadisələri zikr edir və bu vaqiələr barədə nazil olan ayələrlə onların fəzilət və məqamlarını açıqlayır. Bununla da ümmətin diqqətini onlara cəlb edir. Bu ayələrin bəzilərində Əhli-beyt (ə)-ın hamısından söhbət gedir. Məsələn, »Ali Imran» surəsinin 61-ci ayəsi «Mübahilə» və «Dəhr» surəsində olan «Itam» ayəsini buna misal göstərmək olar. Bəzi ayələrdə isə Əhli-beyt (ə)-ın ayrı-ayrı üzvləri haqqında bəhs edilir. Məsələn, «Vilayət» ayəsində deyilir:

***«Həqiqətən, Allah, onun Peyğəmbəri və iman gətirib namaz qılan və rüku halında zəkat verənlər, sizin ixtiyar sahiblərinizdir.»***

Bu ayə qarşıda deyiləcəyi kimi, həzrət Əli (ə) haqqında nazil olmuşdur. Əhli-beyt (ə) haqqında çox ayələr nazil olmuşdur, lakin biz burada onların bəziləri haqda söhbət edəcəyik:

## *TƏTHİR AYƏSİ*

***«Həqiqətən Allah-taala yalnız siz Əhli-beytdən pislik və çirkinlikləri uzaqlaşdırıb və sizi pak və pakizə etmək istəyib.»(Əhzab-33).***

Təfsir və hədis kitablarına görə «Əhli-beyt» sözündən məqsəd həzrət Peyğəmbərin (s) ailəsidir və onlar «Əli, Fatimə, Həsən və Hüseyn» əleyhissəlamdan ibarətdirlər. Süyuti «Əd-dürrül mənsur» kitabında Təbəridən, o da Ümmü-Sələmədən nəql edərək deyir:

«Həzrət Peyğəmbər (s) öz qızı Fatiməyə belə buyurdu: «Ərini və uşaqlarını mənim yanıma çağır». O, da gedib onları həzrət Peyğəmbərin (s) hüzuruna gətirdi. Həzrət Peyğəmbər (s) onların üstünə bir Fədək əbası atdı və mübarək əlini onların çiyninə qoyub bu duanı oxudu: «Ey Allah, bunlar Məhəmmədin Əhli-beytidirlər. Rəhmət və bərəkətini Məhəmmədin Əhli-beytinə qərar ver. Necə ki, Ibrahimin (ə) əhli-beytinə qərar verdin. Həqiqətən sən ibadət olunmuş və yüksəksən.» Ümmü-Sələmə deyir: «Mən əbanı qaldırıb onlarla birlikdə onun altına daxil olmaq istədim, lakin həzrət Peyğəmbər (s) əbanı çəkərək mənə mane oldu və buyurdu: «Əlbəttə sən xoşbəxt və səadətlisən».

Həzrət Peyğəmbərin (s) həyat yoldaşı Ümmü-Sələmə deyir: «Həzrət Peyğəmbər (s) mənim evimdə üstünə bir Xeybər örtüyü olan bir yataqda yatmışdı. Bu vaxt xanım Fatimə (ə) saxsı qazanda bir qədər yemək gətirdi. Həzrət Peyğəmbər (s) buyurdu:

«Ey Fatimə, ərini və oğlanlarını (Həsən və Hüseyni) mənim yanıma çağır.» O da onları çağırdı və onlar əyləşib birlikdə yemək yeməyə məşğul oldular. Bu zaman həzrət Peyğəmbərə (s) «Təthir» ayəsi nazil oldu. Həzrət Peyğəmbər (s) üstünə örtdüyü örtüyün qalan hissəsini onların üstünə çəkib əlini göyə qaldıraraq buyurdu:

«Ilahi, bunlar mənim Əhli-beytim və mənə məxsus olan şəxslərdir. Bəs günah və çirkinlikləri onlardan uzaqlaşdır və onları pak-pakizə et.» Həzrət Peyğəmbər (s) bu sözləri üç dəfə təkrar etdi. Ümmi-Sələmə deyir: Mən də başımı o örtüyün altına daxil etdim və dedim: «Ya Rəsulullah, mən də sizinlə bərabərəmmi?» O Həzrət cavabımda iki dəfə buyurdu: «Sən xoşbəxt və səadətlisən, amma Əhli-beytdən sayılmazsan».**[Bu hədis «Qayətül-məram» kitabında Əbdüllah ibni Hənbəldən, o da üç sənəd ilə Ümmü Sələmədən və həmçinin Sələbi təfsirindən nəql etmişdir. Həmin hədis «Sələbi» təfsirində də Ibni Mərdəveyh və Xətibdən, onlar da Əbu Səid Xidridən bir qədər fərqlə şəkildə nəql edilmişdir. (Əl-mizan fi təfsiril-Quran, Əllamə Təbatəbai, Təthir ayəsi hissəsində). Artıq məlumat istəyənlər Əl-mizan təfsirinə müraciət edə bilərlər]**

Əziz Peyğəmbərimiz (s) ardıcıl olaraq bu ayənin mənasını şərh edirdi ki, xalq onu yaxşı şəkildə başa düşsün və bunun vasitəsi ilə daim hidayət və həqiqət yolunda hərəkət etməyə nail olsunlar. Məsələn, təkrar buyururdu: «Təthir ayəsi beş nəfərin haqqında nazil olmuşdur: Mən, Əli, Fatimə, Həsən və Hüseyn.» [Bu hədisi ibni Cərir və ibni Təbərani, ibni Əbi Hatəm və ibni Əbi Səid Xidridən nəql etmişlər. «Qayətul-məram» kitabı Sələbi təfsirinə əsaslanaraq bu hədisi nəql etmiş və artırmışdır ki, Termezi onu bir səhih hədis kimi nəql etmişdir və eləcə də ibni Münzər, ibni Mərdəveyh və Beyhəqi bu hədisi Ümmü Sələmədən nəql etmişlər. (Əl-mizan təfsirindən)].

Aişədən bu ayənin təfsirində Əhli-beyt (ə)-ın kimlərdən ibarət olduğu barədə belə rəvayət edilmişdir: «Bir gün həzrət Peyğəmbər (s) çiynində qara yundan toxunmuş naxışlı bir parça olduğu halda bayıra çıxdı. Həsən ibni Əli onun yanına gəldi. Həzrət Peyğəmbər (s) onu o parçanın altına daxil etdi, sonra Hüseyn, daha sonra, Fatimə və Əli gəldilər. Həzrət Peyğəmbər (s) onları da parçanın altına daxil etdi və buyurdu: «Ilahi, bunlar mənim Əhli-beytim və mənə məxsus olan şəxslərdir. Bəs günah və çirkinlikləri onlardan uzaqlaşdır və onları pak-pakizə et.» *[Aişədən nəql edilən bu hədis Səhihi Buxari və Səhihi Müslüm kitablarında mövcuddur (Qayətül-məram kitabından), Zəməxşəri də «Kəşşaf» təfsirində Mübahilə ayəsinin izahında bu mövzuya işarə etmişdir.]*

Başqa bir rəvayətdə nəql edilmişdir: Həzrət Peyğəmbər (s) sübh namazına gedəndə qızı Fatimənin (ə) qapısından keçərkən belə buyurdu:

***«Namaz vaxtıdır ey Əhli-beyt, namaz vaxtı...***

***Həqiqətən, Allah fəqət siz əhli-beyti günah və çirkinliklərdən uzaqlaşdırıb, pak-pakizə etmək istəyib.»*** [Bu hədisi ibni Mərdəveyh ibni Əbi Şeybə, Əhməd ibni Hənbəl, Termezi, Ibni Cərir, Ibni Münzir, Təbərani, Hakim və Ənəsdən nəql etmişdir. (Əl-mizan, Əllamə Təbatəbai, Təthir ayəsi)].

Bəli, Qurani-kərim Əhli-beyt (ə) haqqında bu şəkildə bəhs etməklə, onların hər cür günah və pisliklərdən, xoşagəlməz nəfsani istəklərdən pakizə olduqlarını və şəxsiyyətlərinin yüksəkliyini bəyan edir. Məhz buna görə onların yüksək dərəcə və məqamları müsəlmanlar üçün nümunə və örnək olmalıdır. Quranın bu şəxsiyyətləri tanıtmaq və uca mərtəbələrini bəyan etməyindən əsas məqsədi,

müsəlmanların kimə inanıb bel bağlamağı, həqiqi islamı kimdən öyrənmələrini, işlərində kimlərdən nümunə götürmələrini, ixtilaflı məsələlərdə və əqidə köklərində kimə müraciət etmələrini müəyyən etməkdir. Quranın bu hədəfini və Əhli-beyt (ə)-ı həzrət Peyğəmbərdən (s) sonra müsəlmanlara nümunə və rəhbər kimi tanıtmaq qərarında olduğunu müxtəlif ayələrdə görmək mümkündür.

Həzrət Peyğəmbərin (s) neçə ay müntəzəm olaraq həzrət Əli və Fatimənin qapısından keçib sübh namazına getdiyi vaxt onları «Əhli-beyt» adı ilə namaza çağırması və bu çağırışın ardınca «Təthir» ayəsini oxuması, yuxarıda qeyd etdiyimiz məqsədlərə nail olmaq üçün idi. Yəni, bu hərəkəti ilə həmən ayənin həqiqi mənasını təfsir edərək, Əhli-beytin (ə) kimlərdən ibarət olduğunu və ümmətin belə şəxsiyyətləri özləri üçün, nümunə və rəhbər seçməklərinin vacib olmasını söyləmək istəyirdi.

Təbərani Əbu-Həmradan belə rəvayət edir: «Altı ay həzrət Peyğəmbərin (s) Əli (ə) və Fatimənin (ə) qapısına gəlib, Təthir ayəsini oxumasını gördüm.» [Camiul-üsul, 9-cu cild, səh.156; Səhihi Termezidən nəql etmişdir. Həmən kitab Ənəs ibni Malikdən də nəql etmişdir ki, bu ayə nazil olandan sonra, Peyğəmbər (s) təqribən altı ay namaza gedəndə Fatimənin qapısından keçirdi və buyururdu: *«Namaz vaxtıdır, ey Əhli-beyt».* Həkim də bu hədisin sənədinin düz olmağını təsdiq edərək, onu öz «Müstədrək» kitabının 3-cü cildi, səhifə 158-də yazmışdır.]

Fəxri Razi də öz təfsir kitabında belə nəql etmişdir:

***«Ey Peyğəmbər, öz əhlini (ailəni) namaza dəvət et və bu işdə səbirli ol»*** *(Taha surəsi, 132-ci ayə).*

Bu ayə nazil olduqdan sonra həzrət Peyğəmbər (s) altı ay hər gün sübh vaxtı həzrət Əli və Fatimənin evinin kənarından keçib buyurudu: ***«Namaz vaxtıdır ey Əhli-beyt, namaz vaxtı...***

***Həqiqətən, Allah fəqət siz əhli-beyti günah və çirkinliklərdən uzaqlaşdırıb, pak-pakizə etmək istəyib.»*** [«Fəzlü alül-beyt» (Təqiyyəddin Əhməd ibni Əli Əl-muqrizi). Səh.21.]

***«Ey Peyğəmbər, əhlini namaza dəvət elə...»*** ayəsi nazil olduqdan sonra həzrət Peyğəmbərin (s) o şəkildə onları çağırması müsəlmanlar üçün bir daha onların kim olduğunu başa salmaq və onların yüksək dərəcələrinə verilən əhəmiyyəti göstərmək üçün idi.

Bu ayənin mənası və həmçinin, əvəzliyin qadın cinsindən deyil, kişi cinsindən işlənməyi sübut edir ki, **«Əhli-beyt»** kəlməsindən məqsəd həzrət Peyğəmbərin (s) həyat yoldaşları yox, o, beş nəfərdir. Çünki, təfsir kitablarında deyilən kimi, əgər burada həzrət Peyğəmbərin (s) xanımları nəzərdə tutulsaydı, **«yutəhhirəkum»** deyil, **«yutəhhirəkunnə»** kəlmələri ilə onlara müraciət edilərdi. Yəni, şəxs əvəzliyi qadın cinsində işlədilərdi.

Bu ayə biz müsəlmanları işıqlı bir yola istiqamətləndirir və diqqətimizi islam xalqlarının həyatındakı bir çox əsil həqiqətlərə cəlb edir. Haqqı tanımaqda qarşılaşacaqları hər bir şəkk-şübhəni aradan aparmaq və Quranın, əsasını paklıq və ədalət təşkil edən və bütün günah və çirkinliklərdən uzaq olan ideal bir ümmət yaratmağa və Əhli-beytin (ə) o cəmiyyətin əsil mehvər və mərkəzi olmasına dair olan ülvi hədəflərin aradan getməməsini istəyir.

Müsəlmanların arasında Əhli-beytdən (ə) başqa bu ayədəki (paklıq və s.) keyfiyyətlərə malik olan və Quran tərəfindən təsdiq olunan bir kimsə yoxdur. Təkcə bunlar həzrət Peyğəmbərin (s) **«Ya Əhləl-beyt»** deyə müraciət etdiyi şəxslərdir.

## *MƏVƏDDƏT AYƏSİ*

***«Ey Peyğəmbər, müsəlmanlara de ki, mən sizdən peyğəmbərlik (etdiyim müddətdə ümmətin hidayət olunması yolunda çəkilən zəhmət) müqabilində Əhli-beytimi sevməkdən başqa bir şey istəmirəm»*** *(Şura surəsi, 23-cü ayə.)*

Əziz Peyğəmbərimiz (s) bu ayədə kimlərin nəzərdə tutulduğunu və kimlərə itaət və dostluğun vacib olduğunu müsəlmanlar üçün izah etmişdir.

Təfsir, hədis və tarix kitablarında qeyd olunduğu kimi, bu aydəki, «zil-qurba» kəlməsindən məqsəd Əli, Fatimə, Həsən və Hüseyn (ə) həzrətləridir. Zəməxşəri öz «Kəşşaf» təfsirində belə yazmışdır: «Bir gün müşriklər: Məhəmməd öz risaləti (peyğəmbərliyi) üçün mükafat istəyirmi?–deyə danışırdılar ki, cavab olaraq bu ayə nazil oldu:

***«Ey Peyğəmbər (müsəlmanlara) de ki, mən sizdən peyğəmbərlik müqabilində Əhli-beytimi sevməkdən başqa bir şey istəmirəm.»***

Zəməxşəri öz sözünə davam edərək yazır: Rəvayətə görə bu ayə nazil olandan sonra həzrət Peyğəmbərdən (s) soruşdular: «Ya Rəsuləllah! Bizə dostluq və məhəbbətləri vacib olan yaxın adamların kimlərdir?

Peyğəmbər (s) cavabında buyurdu:

***«Onlar Əli, Fatimə və iki oğlanları Həsən və Hüseyndən ibarətdir.»*** [Təfsiri-kəbir (Fəxri Razi) Şura surəsi, 23-cü ayənin təfsiri.]

Əllamə Bəhrani bu hədisi Əhməd ibni Hənbəlin «Müsnəd» adlı kitabından orada zikr olunan silsilə sənədlə Səid ibni Cubeyrdən və o da ibni Abbasdan belə nəql edir: Məvəddət ayəsi nazil olandan sonra Peyğəmbərə (s) dedilər: «Ey Allahın Peyğəmbəri! Bizə dostluq və məhəbbətləri vacib olan yaxın adamların kimlərdir?» O, Həzrət (s) belə buyurdu: ***«Əli, Fatimə və iki oğlanları.»*** [«Qayətül-məram» kitabı, Şura surəsi, 23-cü ayənin təfsiri.]

«Təfsiri-kəbir»in müəllifi Fəxri Razi, Zəməxşərinin «Ali-Məhəmməd» (Peyğəmbərin Əhli-beyti) haqqındakı sözünü nəql etdikdən sonra belə yazmışdır: Mənim nəzərimə görə «Ali Məhəmməd» Peyğəmbərlə (s) rabitələri daha sıx olan şəxslərdir. Bu rabitə nə qədər güclü və kamil olsa, yaxınlıq da bir o qədər artıq olar. Şübhəsiz, Əli, Fatimə, Həsən və Hüseynin (ə) həzrət Peyğəmbər (s) ilə rabitəsi hamıdan artıq idi. Bunun inkarolunmaz bir həqiqət olduğu hamı tərəfindən eyni cür söylənilmiş və sübuta yetirilmişdir. Nəhayət, onların yalnız **«Ali-Məhəmməd»** olmaları zərurəti meydana gəlir. Əlbəttə **«ali»** kəlməsinin tərcüməsində çoxlu mübahisələr vardır. Bəzilərinin fikrincə, məqsəd **«əqraba»** və bəzilərinin nəzərincə **«ümmət»** kimi məna olunur. Əgər birinci mənanı götürsək, Peyğəmbərin (s) ailəsi, (Əli, Fatimə, Həsən və Hüseyn) **«Ali-Məhəmməd»** hesab olunur. Əgər ikinci mənanı da götürsək, yenə də onlar ümmətin içərisinə daxil olurlar. Çünki, onlar da Peyğəmbərin (ə) ümmətindən sayılırlar. Şübhəsiz **«ali»** kəlməsinin mənası Əli, Fatimə, Həsən və Hüseynə (ə) şamil olunur. Amma, onlardan başqalarının daxil olmasında ixtilaf vardır. Həqiqətdə isə ayrı şəxsləri «ali» kəlməsinin mənasına daxil etmək ağıl, məntiq və nəql olunan rəvayətlərə zidd getməkdir. [Əziz oxucularımız da görür ki, «ali» kəlməsini «Peyğəmbərin ümməti» kimi tərcümə etmək həqiqi mənadan uzaqdır. Çünki, «ali» kəlməsi lüğət kitablarında tərcümə olunmuşdur. Elə isə onu ümmət kimi tərcümə etmək ağıl və məntiqə uyğun deyildir. Habelə, hamı tərəfindən eyni cür nəql edilmişdir ki, həzrət Peyğəmbər (s) Əli, Fatimə, Həsən və Hüseyn (ə)-ı çox sevərdi.]

Yuxarıda qeyd olunduğu kimi, Zəməxşəri nəql etmişdir ki, bu ayə (Məvəddət ayəsi) nazil olandan sonra Peyğəmbərdən (s) soruşdular: «Ey Allahın peyğəmbəri! Sənin yaxın adamlarından kimlərin dostluq və məhəbbəti bizlərə vacibdir?» O Həzrət buyurdu:

***«Əli, Fatimə və iki oğlanları, Həsən və Hüseyn.»***

Beləliklə, məlum olur ki, bu dörd nəfər həzrət Peyğəmbərin (s) yaxınlarıdır və xüsusi təzim və ehtiram onlar üçün olma-lıdır. Bu sözümüzə bir neçə sübut vardır:

1. Məvəddət ayəsi; Yuxarıda bu barədə söhbət açıldı.

2. Hamıya məlumdur ki, həzrət Peyğəmbər (s) xanım Fatiməni çox sevərdi və buyurardı: ***«Fatimə mənim vücudumun bir parçasıdır, onu incidib narahat edən, məni incidib narahat etmişdir.»***

Deməli, belə bir şey doğru olduğu halda, Peyğəmbərin (s) ümmətinə də onları sevmək vacibdir. Çünki, Quran buyurur:

***«Ey Peyğəmbər, müsəlmanlara de ki, əgər Allahı sevirsizsə, mənə tabe olun (yəni, mənim etdiklərimi edin və dediklərimi yerinə yetirin), o zaman Allah da sizi sevər.»*** *(Ali Imran surəsi, ayə 31).*

***«O Peyğəmbərə tabe olun, ola bilər ki, hidayət olasınız»*** (*Ərafa surəsi, ayə 158).*

***«Peyğəmbərin əmrindən çıxanlar (Allahın əzabından) qorxmalıdırlar.»*** *(Nur surəsi, ayə 63).*

***«(Ey müsəlmanlar) Həqiqətən peyğəmbər sizin üçün yaxşı bir nümunədir.»*** *(Əhzab surəsi, ayə 21).*

Bu ayələrdən məlum olur ki, Peyğəmbər (s) Əli, Fatimə, Həsən və Hüseyni (ə) sevdiyi və onlara fövqəladə əhəmiyyət verdiyi üçün, müsəlmanlar da gərək Peyğəmbərin (s) bu işini təkrar edərək onları sevsinlər.

3. Həzrət Peyğəmbərin (s) Əhli-beytinə (ə) dua etmək və salavat göndərməyin vacib olunması, onlar üçün yüksək dərəcə və mərtəbədir. Buna görədir ki, namazda təşəhhüd oxuduqdan sonra onlara dua etmək və salavat göndərmək vacibdir: ***«Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd»:***

Yəni ***«Ey Allah! Məhəmməd və onun Əhli-beytinə salavat və rəhmət göndər. Məhəmməd və onun Əhli-beytinə rəhmət et.»*** Bu böyük təzim və ehtiram Əhli-beytdən (ə) başqa heç bir kəsin haqqında yoxdur. Bütün bu dediklərimiz Peyğəmbərin (s) Əhli-beytini (ə) sevməyin vacib olmasına aşkar sübutdur. Qeyri-şiə təriqətlərinin birinin başçısı olan Şafei öz şerində belə deyir:

Məzmunu:

«Ey səvarə olan, «Mina» qumluğunda bir az dur, «Xif» bölgəsində yatmışlara, yaxud ayıq olanlara nida eylə, səhər vaxtı hacılar Minadan keçəndə, böyük bir çay axıb gedəndə, söylə. Əgər Məhəmmədin Əhli-beytini sevmək dini tərk etmək hesab olunsa, bütün insanlar və cinlər şahid olsunlar ki, mən dini tərk etmişəm. [Təfsiri kəbir, Fəxri Razi, Şura surəsi 23-cü ayənin təfsirində.]

Həmçinin, Şafei öz şerində o dövrdə Əhli-beytin (ə) düşmənlərinə Peyğəmbərin (s) dostları, onların dostlarına isə Rafizi deyildiyinə işarə edib deyir: «Əgər mənə Əhli-beytin dostluğuna görə Rafizi desələr, onda Quran və Əhli-beytdən öncə buna şəhadət verməli idilər.» (Halbuki, Quranda və Əhli-beytin sözlərində «Rafizi» sözü işlənilməyib, deməli mənə Rafizi demək mənasızdır.)

Təbəri ibni Abbasdan nəql edir ki, «Məvəddət» ayəsi nazil olduqdan sonra, müsəlmanlar soruşdular: «Ey Allahın Peyğəmbəri (s)! Bizə məhəbbət və dostluğu vacib olan yaxın adamların kimlərdir? O həzrət (s) buyurdu:

***«Əli, Fatimə və iki oğlanları, Həsən və Hüseyn.»***

Bu hədisi Əhməd də «Mənaqib» kitabında nəql etmişdir. [Təbəri «Zəxairül-üqba fi mənaqibi zəvil-qurba». 25-ci səh.]

Ibni-Münzər, ibni Əbi-Hatəm, ibni-Mərdəveyh və Təbərani «Möcəmi-kəbir» kitabında ibni Abbasdan belə nəql etmişlər: «Məvəddət» ayəsi nazil olandan sonra müsəlmanlar dedilər: «Ey Allahın Peyğəmbəri! Bizə dostluq və məhəbbətləri vacib olan adamların kimlərdir? O həzrət (s) buyurdu:

**«Əli, Fatimə, Həsən və Hüseyn».** [Bu hədis aşağıdakı mənbələrdə azacıq fərqlə nəql edilmişdir: «Ehyaul-meyyit, fi fəzaili Əhləl-beyt». «Möcəmi kəbir» 1-ci cild, 125-ci səh. (Şamdakı Zahiriyyə kitabxanasının əlyazma nüsxəsi). Məcməüz-zəvaid (Heysəmi) 9-cu cild, 168-ci səh. «Əzzəxair» (Təbəri) səh-25. «Əlfüsulul-mühimmə» (ibni Səbbaq Maliki) səh.29. Əlcamiu liəhkamil-Quran (Qürtəbi) 16-cı cild, səh 21-22.]

Yenə «Möcəmi-kəbir» kitabında düzgün bir sənədlə imam Həsəndən (ə) nəql olunmuşdur ki, O həzrət (ə) bir gün xalqa müraciət edərək belə buyurdu:

***«Biz Allah-taala dostluğunu bütün müsəlmanlara vacib etmiş Əhli-beytdənik».***

Quran, Təthir ayəsi ilə Əhli-beytin (ə) paklığını, bütün pisliklərdən uzaq olduqlarını və beləliklə mənəvi dəyərlərini və insanların hidayət yolunda olan çox mühüm rollarını sübuta yetirdi. Indi isə «Məvəddət» ayəsi ilə Əhli-beytin (ə) getdiyi yolun düzgün olduğunu və insanların etiqadi məsələlərdə və şəriət hökmləri öyrənməkdə kimə müraciət etmələrini müəyyən edir. Bəli, Quran bu ayənin vasitəsi ilə ümməti Əhli-beytin yoluna sövq edir. Əgər Əhli-beytin yolu doğru bir yol olmasaydı və onlar ümməti səadət yoluna rəhbərlik etməyə qadir olmasaydılar, heç vaxt Quranda bu ayələr nazil olmazdı. Həmçinin həzrət Peyğəmbər (s) zəhmətlərinin qarşısında Əhli-beyti sevməyi ümmətindən istəməzdi. Şübhəsiz, Quranın bu ayəsi bizə Əhli-beytin yolundan ayrılmamağın və bütün işlərimizdə onlara tabe olmağın zərurətini və lazım olduğunu başa salmaq üçündür. Çünki, Quran o böyük şəxsiyyətlərin pakizə və hərtərəfli keyfiyyətlərə malik olmağına zəmanət vermişdir. Beləliklə Quran bu kimi ayələrdə Əhli-beytin yolunu tutmaq və islamı onlardan öyrənmək haqqında ümmətə xatircəmlik və zamənət vermək istəyir. Bu, Qurani-kərimin nəzəri idi. Amma, həzrət Peyğəmbərin (s) nəzərini isə bu ayənin təfsiri ilə əlaqədar hədis və rəvayətlərdə aydın şəkildə nəzərinizə çatdırdıq. Bəli, bizim əziz Peyğəmbərimiz (s) öz müqəddəs kəlam və təfsirləri ilə Əhli-beytin məhəbbətini müsəlmanların qəlbinə və vicdanına yerləşdirdi. O, müsəlmanların Əhli-beyt haqqında necə düşünəcəklərini, onların dostları və düşmənləri ilə necə davranacaqlarını və bir daha Əhli-beytin hədis, fiqh və təfsiri düşüncələri, həmçinin əqidələri və dini-siyasi rəhbərlikləri qarşısında vəzifələrinin nədən ibarət olduğunu hamıya izah etmişdir. Nəhayət, bu ayə haqqında son sözümüz budur ki, bu ayənin şərhində bəyan olunan yüksək dərəcə və məqamın özünəməxsus məna və məqsədi vardır. Beləliklə, bütün müsəlmanlar təəssübü kənara qoyaraq, insafla onu düşünüb dərk etməlidirlər.

# *MÜBAHİLƏ AYƏSİ*

***«Ey Peyğəmbər, sənə risalət gəldikdən sonra, səninlə mübahisə edənlərə de ki: «Gəlin uşaqlarımızı və uşaqlarınızı, qadınlarımızı və qadınlarınızı, biz özümüzü, siz də özünüzü çağıraq. Sonra dua edib deyək: «Allahın lənəti yalançılara olsun.»***

Tarix və təfsir kitablarının müəllifləri islam tarixində baş vermiş bir hadisəni nəql edirlər ki, bu hadisə Peyğəmbərin (s) Əhli-beytinin (Əli, Fatimə, Həsən və Hüseyn (s) ) Allah yanında olan hörmət və əzəmətini və o cümlədən müsəlmanlar arasındakı məqamlarını aşkar edir. «Mübahilə» adı ilə məşhur olan bu hadisəni tarixçilər və ravilər belə rəvayət edirlər: «Nəcran» xristianlarından ibarət bir heyət həzrəti Peyğəmbərin yanına gəlib, peyğəmbərliyi haqqında onunla mübahisə və mücadilə etmək istədilər. Bu vaxt Allah-taala, bu ayəni Peyğəmbərə(s) nazil edib buyurdu ki, «Əli, Fatimə, Həsən və Hüseyni (ə) çağırıb, onlarla birlikdə çölə çıxsın. Xristianlar da öz növbəsində özləri, uşaqları və xanımları ilə birlikdə çölə çıxsınlar, birlikdə dua edib Allahdan yalan deyənlrə lənət diləsinlər». [Nəcran xristianlarının heyəti 3 nəfərdən ibarət idi. Bunlardan biri «Əbdül məsih» adı ilə məşhur olan «Aqib» idi. Bu şəxs heyətin rəisi, elmi rəhbəri və fikir sahibi idi. Ikinci «Eyhəm» idi ki, onların yığıncaqlarının rəisi sayılırdı. Üçüncüsü isə «Əbu Hatəm ibni Əlqəmə» idi ki, onların dini rəhbəri və müəllimi hesab olunurdu («Əlfüsulul-mühimmə», ibni Səbbağe Maliki, kitabın müqəddiməsindən).]

Zəməxşəri «Kəşşaf» təfsirində belə yazmışdır: Peyğəmbər (s) Nəcran xristianlarını mübahiləyə dəvət etdiyi zaman onlar dedilər: «Icazə verin qayıdaq və bu barədə bir qədər fikirləşək. Onlar öz aralarında məşvərət edib öz fikir sahibləri olan Aqibə müraciət edərək dedilər: «Ey Əbdül-Məsih, bu haqda nəzərin nədir? O, cavab verdi: «Ey xristianlar! And olsun Allaha, siz yaxşı bilirsiniz ki, Məhəmmədə Allah tərəfindən haqlı kitab göndərilmişdir. Allaha and olsun ki, bu vaxta qədər bir peyğəmbər ilə mübahilə edən heç bir millətin böyükləri diri qalmamışdır. Əgər onunla mübarizə etsəniz hamınız həlak olacaqsınız. Bunlara baxmayaraq əgər, yenə öz dininizdə qalmaq istəyirsinizsə bu adamı (Məhəmmədi) tərk edin və mübahilə etmədən öz ölkənizə qayıdın. Bu əsnada gördülər ki, həzrət Peyğəmbər (s) Hüseyn qucağında, Həsən isə əlindən tutmuş halda və arxasınca xanım Fatimeyi Zəhra və ondan sonra da Əli (ə) gəlirlər. Peyğəmbər (s) onlara buyurdu: «Mən dua edərkən siz amin deyərsiniz».

Nəcran keşişi bu mənzərəni görəndə xristianlara üz tutub dedi: «Ey xristianlar! Mən elə nurlu simalar görürəm ki, əgər Allah istəsə onların vasitəsi ilə dağı yerindən qoparar. Onlarla mübahilə etməyin, yoxsa həlak olarsınız və Qiyamət gününə qədər yer üzündə bir nəfər də olsun xristian qalmaz».

Buna görə də onlar Peyğəmbərə (s) dedilər: «Ey Əbil-Qasim! Biz qərara gəldik ki, səninlə mübahilə etməyək və sən öz dinində qalasan, biz də öz dinimizdə.» Həzrət Peyğəmbər (s) buyurdu: «Əgər mübahilə etmirsinizsə, onda islam dinini qəbul edin və müsəlmanların xeyir və şərlərində şərik olun». Xristianlar bu təklifi qəbul etmədilər. Həzrət Peyğəmbər (s) buyurdu: «Bəs sizinlə müharibə etməli olacağam.» Onlar dedilər: «Bizim ərəb milləti ilə müharibə etməyə qüvvəmiz yoxdur. Amma sizinlə müqavilə bağlamağa hazırıq. Müqavilənin məzmunu aşağıdakı kimi olsun: Bizimlə müharibə etməyəsiniz, bizi hədələməyəsiniz və bizi öz dinimizdən ayırmayasınız. Biz də söz veririk ki, hər ildə sizə iki min dəst paltar verək. Yarısını səfər və yarısını da rəcəb ayında. Bundan əlavə, dəmirdən hazırlanmış otuz dəst zireh verməyə hazırıq.»

Peyğəmbər (s) bununla razılaşdı və belə buyurdu: «And olsun o Allaha ki, canım onun əlindədir, az qalmışdı həlakət Nəcran əhalisinə üz gətirsin. Əgər onlar mübahilə etsəydilər, şübhəsiz insan surətindən çıxıb heyvan (donuz və meymun) surətinə düşərdilər və bu düzənliklər onlar üçün odlu bir cəhənnəmə çevrilərdi. Çox zaman keçmədən Nəcran əhalisinin hamısı, hətta ağacdakı quşlar da belə, həlak olardılar. Bir il keçməzdi ki, xristianlrın hamısı məhv olub aradan gedərdi.» [Zəməxşəri təfsirində deyir: «Mübahilə» kəlməsinin kökü «bəhl»dir və mənası «lənət etmək»dir. Bu sözün lüğətdə də mənası budur. Amma sonralar mənasını dəyişib, hər cür dua etmək mənasında işləndi.]

Zəməxşəri bu hadisəni nəql etdikdən sonra yuxarıda qeyd olunan Mübahilə ayəsinin təfsirinə və Əhli-beyt (ə)-ın məqamını bəyan etməyə və Aişədən rəvayət etdiyi bir hədislə onların yüksəkliyini izah etməyə başlamışdır. O, öz sözünün bir hissəsində belə deyir: «Allah-taala bu ayədə Əhli-beyt (ə)-ı həzrət Peyğəmbərin (s) özündən qabaq zikr etmişdir. Bununla Allah-taala onların xüsusi məqamlarına və öz dərgahında olan xüsusi mövqelərinə işarə edərək bildirmək istəyir ki, onlar böyük bir mənəvi dəyərə və rəhbər olmaq haqqına malikdirlər. Bu ayə Əshabi-kəsanın haqqında nazil olmuşdur. («Əshabi kəsa» ifadəsi o adamlara deyilir ki, Peyğəmbərin (s) əbasının altına yığışdılar və Təthir ayəsi onların barəsində nazil oldu. Onlar Peyğəmbər, Əli, Fatimə, Həsən və Hüseyndən (ə) ibarətdirlər.)

Bu ayə Əhli-beyt (ə)-ın fəzilət və üstünlüyünə ən böyük və ən möhkəm sübutdur. Həmçinin bu hadisə Peyğəmbərin (s) nübüvvətinin doğruluğuna ən aydın bir sübutdur. Çünki, heç kəs tərəfindən, istər dost olsun, istərsə də düşmən, xristianların Mübahiləni qəbul etməkləri nəql olunmamışdır. [Kəşşaf təfsiri, (Zəməxşəri) Ali Imran surəsi, ayə 61. Həmən mətləb Sələbi təfsirində Mucahid və Kəlbidən nəql olunmuşdur. Buradan başa düşürük ki, Əhli-beytdən bizə yetişən fikirlər, hökmlər, hədislər, təfsirlər və hidayətlər belə bir dərəcə, etibar və qiymətə malikdirlər. Bəli, onlar sözləri, əməlləri və yolları həqiqi və sadiq olan şəxslərdir.]

Bilmək lazımdır ki, bu Mübahilə ayəsi islam qoşunu ilə kafir qoşununun qarşı-qarşıya durmağını göstərir. Burada islam cəbhəsinin önündə dayananlar hidayət rəhbərləri və ümmətin arasında olan ən müqəddəs və ən şərəfli şəxslərdir. Hansı ki, Allah onları bütün pislik və günahlardan uzaq etmişdir. Onların sözləri və duaları geri qayıtmazdır.

Quran Əhli-beyt (ə) vasitəsi ilə islam düşmənləri ilə qarşı-qarşıya durdu və onların düşmənlərini lənət və əzaba layiq adamlar kimi tanıtdırdı. Əgər Əhli-beyt (ə)-ın sözləri, əməlləri və yolları doğru olmasaydı, Allah heç vaxt belə bir əzəmətli məqamı onlara verməzdi və Quran bu şəkildə onların haqqında söhbət açmazdı. Fəxri Razi (sünni təriqətinin ən böyük təfsirçilərindən biri) öz «Təfsiri-kəbir» kitabında Zəməxşərinin nəql etdiyi həmin rəvayəti kamil şəkildə nəql etdikdən sonra, sözlərinə bir cümlə də əlavə etmişdir: «Bilmək lazımdır ki, bu hədisin doğruluğu barədə bütün təfsirçilər və hədis söyləyənlər həmrəydirlər.» [Təfsiri-kəbir, (Fəxri Razi) Ali Imran surəsi 61-ci ayə (Mübahilə ayəsi) digər tərəfdən də təfsir yazan alimlərin hamısı bu hadisəni və rəvayəti heç bir etiraz və şübhə etmədən öz təfsirlərində yazmış və bəyan etmişlər.]

Mərhum Əllamə Təbatəbai öz təfsirində bu ayə barəsində bəhs etdikdən sonra mübahilədə iştirak edənlərin həzrət Peyğəmbər (s), Əli, Fatimə, Həsən və Hüseyndən (ə) ibarət olduğunu bəyan edərək buyurmuşdur: «Hədis nəql edənlərin hamısı, o cümlədən Müslüm, Termezi və bu kimi böyük hədis kitabları yazan alimlər də onu öz kitablarında yazaraq təsdiq etmişlər.

Həmçinin böyük təfsirçilər, o cümlədən Təbəri, Əbilfəda, ibni Kəsir, Süyuti və bu kimi alimlər də o hədisin doğruluğunu təsdiq edərək öz təfsir kitablarında nəql etmişlər.

Göründüyü kimi təfsirçilər Əhli-beytin (ə) kimlər olduğunu və onları sevməyin nə dərəcədə vacib olduğunu və ümmət içərisində hansı məqam və hörmətə sahib olduqlarını aydın surətdə bəyan ediblər. Əvvəldə dediyimiz iki ayədə Qurani-kərim Əhli-beytin (ə) Əli, Fatimə, Həsən və Hüseyndən (ə) ibarət olduğunu və onların pakizəliyini və ruhi-mənəvi üstünlüyünü isbat edirdi. Bu ayədə isə Allah-taala və Peyğəmbər (s) Əhli-beytin (ə) vasitəsi ilə islam düşmənləri ilə mübahilə etdiyini bəyan edərək, onların böyük və şərafətli məqamlarını izah edir. Əgər Əhli-beyt (ə) Allah yanında yüksək və özünəməxsus hörmətə malik olmasaydılar, heç vaxt Peyğəmbərə (s) əmr olunmazdı ki, onları Allah düşmənləri ilə mübahilə etməyə və əzabın nazil olmasını istəməyə aparsın. Həmçinin, onlara dualarının qəbul olacağını vəd verməzdi... Bu ayədə bir çox ədəbi və qrammatik ifadələr də vardır ki, onlara diqqət yetirmək lazımdır. Məsələn, onlardan birisi, ayədə övladlar və qadınların [yəni, Həsən, Hüseyn, Fatimə və Əli (ə)] Peyğəmbərə (s) artırılmasıdır (yəni, qadınlarımız və övladlarımız deyilmişdir). Əgər bu hadisədə Peyğəmbərin (s) əməli olaraq adlarını çəkdiyimiz o müqəddəs şəxsiyyətlərlə birlikdə mübahiləyə çıxması həyata keçirilməsəydi mümkün idi ki, bu kəlmələrdən başqa adamlar nəzərə çarpardı. Məsələn, «qadınlarımız» kəlməsindən hadisənin həyata keçirilməsinə baxmadıqda Peyğəmbərin (s) xanımları, övladlarımız kəlməsindən isə həzrət Fatimədən əlavə Peyğəmbərin (s) qalan qızları və «özümüz» kəlməsindən, yalnız Peyğəmbərin (s) öz müqəddəs vücudu başa düşülərdi.

Amma, əziz Peyğəmbərimiz (s) yalnız, o dörd nəfəri özü ilə birlikdə mübahiləyə aparmaqla bizə başa saldı ki, ümmətin qadınlarının ən seçilmiş və ən nümunəvisi həzrət Fatimə (ə) və müsəlmanların övladlarının ən bəyənilmişi Həsən və Hüseyndir (ə). Quran onları Peyğəmbərə (s) mənsub etmişdir. Quranın aşkar təbiri ilə onlar Peyğəmbərin (s) öz övladları hesab olunurlar. «özümüz» kəlməsində isə Quran, həzrət Əlini (ə) Peyğəmbərin özü kimi hesab etmişdir.

## *SALAVAT AYƏSİ*

***«Allah və mələkləri Peyğəmbərə salavat göndərirlər, ey möminlər (siz də) ona salavat və salam göndərin.»*** *(Əhzab surəsi, ayə 56).*

Qabaqca qeyd etdiyimiz ayələrdə Quran Əhli-beytin (ə) paklıq və ülviyyətini, onları sevməyin vacib olmasını və Peyğəmbərin (s) Əhli-beytinin məqamını bəyan etdi. Quran təfsirçiləri də Peyğəmbərin (s)

hədislərindən istifadə edərək, Əhli-beyt (ə)-ın kimlərdən ibarət olduğunu müəyyən etdi. Əli, Fatimə, Həsən və Hüseyni (ə) bizlərə tanıtdırdılar. Bu ayədə (salavat ayəsində) isə Allah-taala Peyğəmbər (s) və onun Əhli-beytinə (ə) salavat və salam göndərməyi vacib etmişdir. Qeyd edək ki, bu imtiyaz onlardan başqa heç kimə məxsus deyildir. Bunun vasitəsi ilə Quran onların dəyər və məqamlarını ucaltmışdır. Əsas məqsəd budur ki, xalq onların rəhbərlik ləyaqətinə malik olduqlarını və ümmətin həyatındakı ilahi vəzifələrini yaxşı başa düşsünlər. Fəxri Razi öz təfsirində Peyğəmbərdən (s) bu mübarək ayənin barəsində rəvayət edilən hədisi bu şəkildə nəql etmişdir: «Peyğəmbərdən soruşdular: Ey Allahın Peyğəmbəri! Sizə hansı qaydada salavat göndərək? O Həzrət (s) onların cavabında belə tövsiyə etdi: «***Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd, kəma səlləytə əla Ibrahimə və əla ali Ibrahimə və barik əla Muhəmmədin və əla ali Muhəmməd, kəma barəktə əla Ibrahimə və əla ali Ibrahim, innəkə həmidun məcid***.

***«Ey Allah! Məhəmməd və onun Əhli-beytinə salavat və rəhmət göndər, necə ki, Ibrahim və onun Əhli-beytinə salavat və rəhmət göndərdin və Məhəmməd və onun Əhli-beytinə bərəkət ver, necə ki, Ibrahim və onun Əhli-beytinə bərəkət verdin. Şübhəsiz, sən ibadət olunmuş və böyüksən (ey Allah).»***

Fəxri Razi bu hədisi deməzdən əvvəl, bu ayəni təfsir edərkən belə demişdir: «Bu ayə Şafeinin sözünü sübuta yetirir. (Şafei deyir: «Namazın təşəhhüdündə Peyğəmbərə (s) salavat göndərmək vacibdir, qalan yerlərdə isə vacib deyil, çünki, əmr olunan işin icrası vacib olar.)» [Ayədə «Peyğəmbərə salavat göndərin» ifadəsinə işarə olunur. Fiqh elmində bir bəhs vardır. Əmr etmək əmr edilən şeyin vacib olmağına dəlalət edər, ya yox? Bəzi alimlərin nəzəri budur ki, Quran və hədislərdə əmr formasında gətirilən sözlər əmr olunan şeyin vacibliyinə dəlalət edir. Bu şərtlə ki, bu əmrin müstəhəbbi olmağına dəlalət edən ayrı sübut olmasın. Nəticədə Peyğəmbərə salavat göndərmək bu ayəyə görə vacibdir. Bunu da bildik ki, namazın təşəhhüdündən başqa qalan yerlərdə vacib deyildir.]

Sonra Fəxri Razi belə yazır: «Əgər soruşsalar ki, Allahın salavatından sonra daha bizim salavatımıza nə ehtiyac vardır? Onda cavab verərik ki, Peyğəmbərə (s) salavat göndərmək, Peyğəmbərin (s) salavata ehtiyacı olduğu üçün deyildir, necə ki, Allahın salavatından sonra mələklərin də belə salavatına ehtiyac yoxdur. Amma salavat bizim Peyğəmbərə (s) qarşı olan dərin ehtiram və məhəbbətimizi bildirmək üçündür. Həmçinin bu əməl bizlərə savab qazanmaq üçün böyük imkan yaradır. Necə ki, Peyğəmbər (s) buyurmuşdur:

***«Hər kim mənə bir dəfə salavat göndərsə, Allah ona on dəfə salavat göndərər».***

Süyuti Əd-dürrül-mənsur kitabında belə yazır: Əbdür-rəzzaq ibni Əbi-şeybə, Əhməd və ibni Mərdəveyh, Kəb ibni Ücrədən belə nəql etmişlər ki, bir nəfər Peyğəmbərə (s) dedi: «Ey Allahın Peyğəmbəri! Sizə necə salam göndərməyi bilirik, amma salavatı necə göndərək?» O həzrət cavabında buyurdu: Belə deyin:

***«Ey Allah Məhəmməd və onun Əhli-beytinə salavat (rəhmət) göndər...»***

Süyuti bu rəvayətdən başqa Əhli-beytin (ə) bu salavatlarda Peyğəmbərlə (s) şərik olmasına dəlalət edən on səkkiz rəvayət də nəql etmişdir. Yəni, Peyğəmbərlə (s) yanaşı onun Əhli-beytinə də salavat göndərmək vacibdir. Bu hədisçiləri ibni Abbas, Təlhə, Əbu Məsud Ənsari, Bureydə, ibni Məsud, Kəb ibni Ücrə və Əlidən (ə) nəql etmişlər. Həmçinin Süyuti belə yazır: «Əhməd və Termezi, Həsən ibni Əlidən (ə) nəql ediblər ki, Peyğəmbər (s) belə buyurub:

***«Mənim adım zikr olunan zaman mənə salavat göndərməyən adamlar paxıldır.»*** [Əlmizan təfsiri, Əllamə Təbatəbai.]

Bunlardan əlavə böyük islam müctehidləri və fəqihləri də namazın təşəhhüdündə Məhəmməd və ali Məhəmmədə (Əhli-beytinə) salavat göndərməyi və onların adının Peyğəmbərin (s) adı ilə birgə çəkilməsini vacib bilmişlər. [Şiələrin böyük fəqihlərindən olan və eyni zamanda Hicrətin yeddinci əsrin ən böyük şəxsiyyətlərindən sayılan, tədqiqatçı və məşhur alim «Hilli» öz «Şərayiül-islam» kitabında təşəhhüdü də namazın vaciblərindən biri sayıb deyir: «Təşəhhüd oxumaq bütün namazların 2-ci və axırıncı rəkətlərində vacibdir, əgər bilə-bilə tərk olunsa, namaz batil olar. Təşəhhüd isə Allahın birliyinə və Peyğəmbərin (s) risalətinə şəhadət vermək, Peyğəmbər və onun Əhli-beytinə salavat göndərməkdir». (Şərayiül-islam, 1-ci cild, Namaz fəsli)]

Bu ayənin mənə və təfsiri üzərində düşünən adam açıqca başa düşüb dərk edər ki, bu hökmün və salavatın vacib edilməsi Peyğəmbərin (s) Əhli-beytinə ehtiram, səmimiyyət və məhəbbəti bildirmək üçündür. Hansı ki, Allah onları bütün günah və çirkinliklərdən uzaqlaşdıraraq pak-pakizə etmişdir. Bunun sayəsində müsəlmanlar onlara bel bağlamalı və onların yolunda hərəkət edərək mübahisəli

məsələlərdə və ixtilaflı işlərdə onlara müraciət etməlidirlər.

Bəli, onlar elə şəxsiyyətlərdirlər ki, əgər namazda onlara salavat göndərilməsə, namaz batil olar. Onlar ümmətin imamlarıdırlar. Əgər onların yolu doğru olmasaydı, onlara etiqad bəsləmək səhv bir iş olsaydı və onların sözləri və əməlləri doğru-düzgün olmasaydı, heç vaxt Allah-taala onlara könül bağlamağı və hər namazda onlara salavat göndərməyi əmr etməzdi. Bəli, hər gün beş vaxtda qılınan vacib namazlarda Əhli-beytə (ə) salavat göndərilməsinin vacib olması Qiyamət gününə qədər müsəlmanların diqqətini Əhli-beytə (ə) cəlb etmək və onlara inanmağın, onların yolunda hərəkət etməyin vacib olmağını başa salmaq üçündür.

## *5-İNSAN SURƏSİ*

**Şübhəsiz ki, yaxşı əməl və itaət sahibləri [Cənnətdə] kafur qatılmış [soyuq və xoş ətirli] şərab içəcəklər. (5).**

**O [kafur] elə bir çeşmədir ki, Allahın bəndələri ondan içəcək və onu [istədikləri yerə] asanlıqla axıdacaqlar. (6)**

**Onlar [Cənnətə nail olacaq müttəqilər] elə kimsələrdirlər ki, verdikləri sözü [etdikləri nəzri] yerinə yetirər və dəhşəti [aləmi] bürüyəcək [şəri hər tərəfə yayılacaq] gündən [Qiyamət günündən] qorxarlar. (7).**

**Onlar öz iştahaları çəkdiyi, özləri yemək istədikləri halda [və ya Allah rizasını qazanmaq uğrunda] yeməyi yoxsula, yetimə və əsirə yedirərlər. (8).**

**[Və sonra da yedirtdikləri kimsələrə belə deyərlər]: «Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən [bu ehsan müqabilində] nə bir mükafat, nə də bir təşəkkür istəyirik. (9).**

**Həqiqətən biz Rəbbimizdən, çox sərt, müdhiş və çətin gündən [üzlərin dəhşətdən eybəcər kökə düşəcəyi, çöhrələrin tutulub qaralacağı Qiyamət günündən] qorxuruq. (10).**

**Allah da onları o günün şərindən qoruyacaq, onlara gözəllik və sevinc bəxş edəcəkdir [üzlərinə təravət verəcək, qəlblərini sevindirəcəkdir]. (11).**

**Və onları etdikləri səbr müqabilində Cənnətlə və [geyəcəkləri] ipəklə mükafatlandırıcaqdır. (12).**

**Onlar o Cənnətlərdə taxtlara söykənəcək, orada nə günəş [qızmar isti], nə də sərt soyuq görəcəklər. (13).**

**Cənnət ağaclarının kölgələri üstlərinə düşəcək, meyvələri də onların ixtiyarında olacaqdır [istədikləri yerdə, istədikləri zaman onları dərib yeyə biləcəklər]. (14).**

**[Cənnətdəki xidmətçilər] onların ətrafında gümüş qablar və büllur qədəhlərlə dolanacaqlar. (15).**

**Gümüşdən olan [çox şəffaf olduğu üçün bayırından içərisi görünən] elə büllur qədəhlərlə ki, [xidmətçilər] onları [sahiblərinə] münasib ölçüdə etmişlər. (16).**

**Orada onlara zəncəfil qatılmış şərab da içirdiləcəkdir. (17).**

**[Zəncəfil] Cənnətdə bir çeşmədir ki, [suyu boğazdan çox rahat keçdiyi üçün] Səlsəbil adlanır. (18).**

**Onların dövrəsində həmişəcavan [xidmətçi] oğlanlar olacaqdır. Onları gördükdə sanki [ətrafa] səpilmiş inci olduqlarını zənn edərsən. (19).**

**[Orada] hara baxsan, nemət və böyük mülk görərsən. (20).**

**[Cənnət əhlinin] əyinlərində tafdadan və atlazdan [nazik və qalın ipəkdən] yaşıl libaslar olacaq, onlara gümüşdən bilərziklər taxılacaqdır. Rəbbi onlara çox pak bir şərab içirdəcəkdir. (21).**

**[Onlara belə deyiləcəkdir]: «Bu sizin [dünyada etdiyiniz yaxşı əməllərə görə] mükafatınızdır. Zəhmətiniz Allah yanında məqbul, təqdirəlayiqdir!» (22).**

Bu mübarək ayələrdə Qurani-kərim Əhli-beytin (ə) barəsində söhbət açaraq onları fədakarlıq və təqvanın ən üstün mərtəbəsinə malik olmalarını göstərir. O, nümunəvi insanları misal çəkir ki, bütün nəsillər onların əməllərini təkrarlayıb, onların yolunda hərəkət etsinlər. Bu mübarək ayələrin nazil olduğu tarixi şəraitə baxdıqda məlum olur ki, Əhli-beyt (ə) nə qədər yüksək məqama malik olub və ilahi

rabitələrlə Allaha bağlanmışlar. Behiştlə mükafatlanan onlardır. Hər kim də onlara bağlanıb, onların yolunda hərəkət etsə, onlarla birlikdə cənnətdə olacaqdır. Zəməxşəri bu ayələrin təfsirində belə yazır: Ibni Abbas nəql etmişdir: Bir gün Həsən və Hüseyn (ə) xəstələnmişdilər. Peyğəmbər (s) bir dəstə müsəlman ilə onlara baş çəkməyə gəldi. Peyğəmbər (s) Əliyə (ə) müraciət edərək dedi: ***«Ey Əbəl-Həsən! Kaş uşaqlarının şəfa tapması üçün nəzr edəsən.»*** Əli (ə) bu təklifi məmuniyyətlə qəbul etdi və üstəlik həzrət Fatimə (ə), xidmətçiləri Fizzə də uşaqların sağalacağı təqdirdə üç gün oruc tutmağı nəzr etdilər. Uşaqlar şəfa tapıb sağaldılar, lakin o günlərdə Əlinin (ə) evində iftar etmək üçün ərzaq yox idi. Odur ki, gedib Xeybər Yəhudilərindən olan «Şəmun» adlı bir nəfərdən üç sa (ölçü vahidi) miqdarında arpa borc aldı. Fatimə (ə) onun üçdən bir hissəsini üyüdüb un etdi və ailə üzvülərinin sayı qədər çörək bişirdi. Iftar vaxtı çörəkləri süfrəyə qoyub yeməyə hazırlaşdıqları vaxt bir fəqir qapını döyüb evdəkilərə belə dedi: «Sizə salam olsun, ey Məhəmmədin (s) Əhli-beyti (ə)! Mən bir müsəlmanam, fəqirəm, mənə yemək verin. Allah sizi Cənnət süfrələrindən yedizdirsin». Bu sözləri eşidən Əhli-beyt (ə) fədakarlıq edib süfrədə olan çörəklərin hamısını ona verdilər. Özləri isə bir içim su ilə iftar edib gecəni belə keçirdilər. Sabahsı gün ac olduqları halda yenə oruc tutdular. Axşam iftar etmək üçün süfrə başına yığışmışdılar ki, bir yetim qapıya gəlib yemək istədi. Yenə də süfrədə olan yeməkləri o yetimə verdilər və özləri ac qaldılar. Üçüncü gün də qapıya bir əsir gəlib yemək istədi və bir daha bu müqəddəs şəxsiyyətlər iftar etmək üçün hazırladıqları yeməklərini o əsirə verdilər. Ertəsi gün həzrət Əli (ə) oğlanları Həsən və Hüseyn (ə) ilə birlikdə həzrət Peyğəmbərin (s) hüzuruna getdilər. Peyğəmbər (s) onların aclıqdan titrədiklərini görüb buyurdu: ***«Sizi bu halda görmək mənim üçün çox ağırdır***.» Sonra onlarla birlikdə xanım Fatimənin (ə) evinə getdilər. Peyğəmbər (s) gördü ki, qızı Fatimə (ə) acından zəifləmiş və gözləri çuxura düşdüyü halda mehrabda ibadət edir. Bu mənzərəni müşahidə edən Peyğəmbər (s) olduqca narahat olmuşdu ki, «Cəbrail» nazil oldu və dedi: «Ey Məhəmməd! Allah səni belə bir Əhli-beytin (ə) olduğu üçün təbrik edir.» Sonra yuxarıda zikr olunan «Insan» surəsini Peyğəmbərə (s) nazil etdi. Təfsirçilər təkid edirlər ki, bu ayələr Əhli-beyt (ə) (Əli, Fatimə, Həsən və Hüseyn (ə)) barəsində nazil olmuşdur. Təkcə bu haqda nəql olunan rəvayətlərdə cüzi fərqlər görünür. Bu rəvayətlər Əbu Həmzə Somali, Həsən ibni Həsən, Əta ibni Abbas və bir az fərqlə başqaları da Əhli-beyt (ə) haqqında nəql etmişlər. Beləliklə, bu ayələr Əhli-beytin (ə) Allahın məxsus və seçilmiş bəndələri olmasına dəlalət edir və Allah tərəfindən onların behiştə daxil olduqlarına müjdə verilir.

## *MÜXTƏLİF AYƏLƏR*

Quranda bir çox ayələr vardır ki, Peyğəmbərin (s) qardaşı və Əhli-beytin (ə) ilkini hesab olunan imam Əli ibni Əbi Talibin (ə) haqqında nazil olmuşdur. Əli (ə) uşaqlıq vaxtından həzrət Peyğəmbərin (s) tərbiyəsi altında böyümüş və o Həzrətin (s) ecazkar əxlaqını mənimsəmişdir. On yaşında ikən iman gətirərək Peyğəmbərin (s) dəvətini qəbul etmiş, döyüşlərdə islam bayraqdarı, qəhrəman sərkərdə və lazım gəldikdə adi əsgər kimi islam aləminə misilsiz xidmətlər göstərmişdir. Islam tarixində məşhur olan müharibələrdə, o cümlədən Ühüd, Bədr, Hüneyn, Əhzab, Xeybər və Zatus-səlasil kimi ağır döyüşlərdə o Həzrətin qazandığı zəfərlər hamıya məlumdur. Peyğəmbərin (s) o müqəddəs vücudun barəsində buyurduğu sözləri tarix səhifələrini bəzəyən və Əlinin (ə) yüksəkliyinə dəlalət edən əbədi nişanələr olmuş və bəşəriyyət üçün ən böyük cihad, fədakarlıq və mübarizə nümunəsini təyin etmişdir. Əgər Quran ayələrinin nazil olma səbəbləri ilə maraqlansaq görərik ki, Əhli-beyt (ə) haqqında söylədiyimiz ayələrdən başqa çoxlu ayələr də vardır ki, həzrət Əmirəl-mömінin Əli (ə) haqqında nazil olmuşdur. Bu ayələr:

1. O Həzrətin (ə) şücaət, qəhrəmanlıq və Allah yolunda fədakrlığını;
2. Düşmənlərin əziyyət və məsxərələri qarşısında səbr və mətanətini;
3. Təqvası, pəhrizkarlığı, başqalarına etdiyi bəxşiş və ehsan, nəhayət, möminlərin üzərində olan ilahi rəhbərlik və vilayətini əhatə edir.

Həmin ayələrdən nümunə üçün burada bəzilərini qeyd edəcəyik.

## *VİLAYƏT AYƏSİ*

***«Sizin vəliyyiniz (rəhbəriniz) Allah, onun Peyğəmbəri (s) və iman gətirən şəxslərdir. O şəxslər ki, iman gətirib namaz qılar və rüku halında zəkat verərlər. Allahı, Peyğəmbəri (s) və iman gətirən***

***şəxsləri özlərinə vəli seçən şəxslər, şübhəsiz Allahın dəstəsi və qalib gələnlərdir.»*** *(Maidə surəsi, ayə 55-56).*

Zəməxşəri Kəşşaf təfsirində yazır: «Bu ayə Əli (ə) haqqında nazil olmuşdur. Bir gün o həzrət (ə) məsciddə namaz qılıb rüku halında olduğu zaman, bir fəqir ondan kömək istədi. Əli (ə) öz üzüyünü çıxardıb ona verdi. Əlbəttə kiçik barmağında olan üzüyü elə çıxartdı ki, onun namazının pozulmasına səbəb olmadı. Əgər soruşsalar ki, bu ayədə şəxs əvəzliyi cəm formasında işlənib və onda necə olur ki, həzrət Əli (ə) bir nəfər olduğu halda, bu cəm əvəzliyi ona aid olur? Cavabında deyərik ki, bu ayə Əli (ə) haqqında nazil olubdur. Amma, əvəzliyin cəm formasında işlənməsindən məqsəd başqalarını da hər cür şəraitdə zəkat verməyə rəğbətləndirərək, onlar kimi savab qazanmağa nail etməkdir. Həmçinin möminlər üçün bir növ əxlaq dərsidir ki, hətta namaz qılınan halda da kasıblara kömək etməyi və yoxsullara əl tutmağı gecikdirməsinlər. [Kəşşaf təfsiri—Zəməxşəri, Maidə surəsi 55-ci ayə].

Vahidi öz «Əsbabün-nuzul» kitabında bu ayənin nazil olma səbəbini belə izah edir: Bu ayənin sonuncu hissəsi Əli ibni Əbi Talib (ə) haqqındadır.

Çünki, yalnız o həzrət namazın rüku halında öz üzüyünü fəqirə vermişdi.» [Əsbabünnüzul (Vahidi), Maidə surəsi 55-ci ayə].

Bu ayənin həzrət Əli (ə) haqqında nazil olmasını təsdiq edən çoxlu təfsir və hədis kitabları vardır. Lakin bunların hamısının adını qeyd etmək və yazılarını təqdim etmək, söhbətin uzanmasına və kitabın nəzərdə tutulan həcminə uyğun gəlməməsinə görə ixtisar edilir. Ətraflı məlumat əldə etmək istəyənlər o kitablara müraciət edə bilərlər.

## *TƏBLİĞ AYƏSİ*

«Ey Peyğəmbər! Allahından sənə nazil olanı (xalqa) çatdır və təbliğ et. Əgər bu əmri xalqa çatdırmasan elə bil ki, peyğəmbərliyini təbliğ etməmisən.(Yəni, iyirmi üç illik zəhmətin puç olur.) və Allah səni xalqdan (və onların şərindən) qoruyacaqdır.» [Hakim Həskani «Şəvahidut-tənzil» kitabında (1-ci cild səh.19, Beyrut çapı) yazır: «Əbdullah ibni Əbi Ovf demişdir: Mən Qədiri-xum günü öz qulağımla eşitdim ki, Peyğəmbər (s) Təbliğ ayəsini oxudu. Sonra iki qollarını qoltuğunun altı görünənə qədər yuxarı qaldırıb belə buyurdu: «Ey millət! Eşidin və agah olun. Mən hər kimin mövlasıyamsa Əli də onun mövlasıdır».

Həmçinin Vahidi «Əsbabün-nuzul» kitabında (səh.135) və Süyuti «Əddürrül-Mənsur» kitabında (1-ci cild səh.198) Əbu Səid Xidridən nəql etmişlər ki: Təbliğ ayəsi Əli ibni Əbi Talib (ə) haqqında nazil olmuşdur».]

Bu ayə «Qədir-xum»da nazil olmuşdur. Bu ayənin nazil olma səbəbini, keyfiyyətini və həzrət Peyğəmbərin (s) orada söylədiyi sözlərini aşağıda izah etməyə çalışacağıq.

Peyğəmbər (s) vida həccindən [Məcməüz-zəvaid, 9-cu cild səh.163-165.] Mədinəyə qayıtdığı zaman, Zilhiccə ayının on səkkizinci günü Təbliğ ayəsi nazil oldu. [«Şəvahidüt-tənzil» Hakim Həskani, 1-ci cild səh.193-199.]

O həzrət «Cöhfə» məntəqəsində «Qədir-xum» adlı yerdə dayandı və xalqı bir yerə yığışmağa əmr etdi. [«Məcməüz-zəvaid» 9-cu cild səh.163-165, ibni Kəsir 5-ci cild səh.209-213.]

O məntəqə Mədinə, Misir və Şam yollarının ayrıldığı yer idi. Peyğəmbər (s) orada dayanıb geridə qalanların gəlib çatmasını və irəlidə gedənlərin geri qayıtmalarını gözlədi. O Həzrət (s) dərədə ağacların altında dağınıq halda oturmuş səhabələrinin bəzisinə əmr etdi ki, o ağacların altındakı tikanları süpürüb təmizləsinlər. [«Məcməuz-zəvaid» 5-ci cild, səh.109].

Daha sonra xalqı bir yerə toplanmağa dəvət etdi. Günorta vaxtı səhranın qızmar havasında camaatla «zöhr» namazını qıldı. [Müsnədi Əhməd, 4-cü cild səh.281 və Sünəni ibni Macə «Əlinin fəzilətləri» bölməsi və ibni Kəsir tarixi, 5-ci cild səh.109-110].

Sonra ayağa qalxıb xütbə oxuyaraq Allaha həmd və səna etdi. Bir qədər moizə və nəsihət etdikdən sonra belə buyurdu:

«Mənim Allah tərəfindən dəvət olunmağım və o dəvətə cavab verəcəyim vaxt yaxınlaşıb (yəni dünyadan köçmək vaxtımdır). Şübhəsiz həm mən, həm də siz məsuluq (və qiyamət günü sorğu-suala tutulacağıq). Indi nə deyirsiz?»

Müsəlmanlar dedilər: «Biz şəhadət veririk ki, sən Allahın əmrlərini yerinə yetirdin və onlara (müsəlmanlara) moizə etdin. Allah sənə xeyirli mükafatlar versin.» Sonra Peyğəmbər (s) buyurdu:

«Siz vahid olan Allahın varlığına və Peyğəmbərin Onun elçisi və bəndəsi olmasına, Cənnət və

Cəhənnəmin həqiqət olmasına şəhadət verirsinizmi?»

Dedilər: «Bəli! Biz bunların hamısına şəhadət veririk.» Peyğəmbər (s) buyurdu:

«Ey Allah, Sən də buna şahid ol!»

Sonra buyurdu:

«Siz mənim dediklərimi eşdirsiniz?»

Dedilər: «Bəli, biz sizi eşidirik.» Həzrət (s) sözünə əlavə edib buyurdu:

«Mən sizdən qabaq (Kövsər hovuzu kənarında) hazır olacağam və siz behişt hovuzunda mənim yanıma gələcəksiniz. Onun eni Bəsrədən Sənaya qədər olan məsafə qədərindədir. O hovuzda ulduzlar sayı qədər gümüş qədəhlər vardır. O zaman mən sizdən iki ağır və qiymətli əmanət haqqında sual edəcəyəm ki, məndən sonra onlarla necə rəftar etdiniz?»

Müsəlmanlaradan biri səsləndi: «Ey Allahın peyğəmbəri! O iki ağır və qiymətli əmanət nədir?» Cavabında buyurdu:

«Onlardan biri Allahın kitabı Qurandır. O kitab bir ipi xatırladır ki, bir ucu Allahın, digəri isə sizin əlinizdədir.(Quran, Allah ilə bəndələr arasında feyz vasitəsidir.) Ondan möhkəm yapışın və onun yolundan çıxmayın və ayələrini dəyişməyin. Ikinci əmanət isə mənim itrətim olan Əhli-beytdir. Mehriban və hər bir şeydən xəbərdar olan Allah-taala mənə xəbər verib ki, o iki şey (Quran və Əhli-beyt) behişt hovuzunda mənə qovuşana qədər bir-birlərindən ayrılmayacaqlar. Mən də Rəbbimdən istəmişəm ki, onlar heç vaxt bir-birlərindən ayrılmasınlar. Ey millət! Onlardan qabağa keçsəniz və ya geri qalsanız həlak olacaqsınız. Heç vaxt onlara bir şey öyrətməyə təşəbbüs göstərməyin. çünki, onlar sizdən daha çox elm və bilik sahibləridirlər». [Məcməüz-zəvaid; bu rəvayətin bəzi hissələri Hakimin «Müstədrək»ində (3-cü cild, səh.209-210) və ibni Kəsirin tarixində, (5-ci cild, səh.209) nəql olunub.]

Sonra buyurdu: «Siz şəhadət verirsiniz ki, mən möminlərə özlərindən daha artıq yaxınam?»

Dedilər: «Bəli.» [Müsnədi Əhməd (1-ci cild, səh.118-119 və 4-cü cild, səh.281) Sünəni ibni Macə (1-ci cild, səh.43) Ibni Kəsir tarixi (5-ci cild, səh.209)].

Buyurdu:

«Siz şəhadət verirsiz ki, mən Allahın peyğəmbəri hər hansı bir mömінin özündən daha artıq onun ixtiyar sahibiyəm?»

Dedilər: «Bəli, ey Allahın peyğəmbəri!» [Müsnədi Əhməd, (4-cü cild, səh.281-368, 370-372) Ibni Kəsir (5-ci cild, səh.209-212)].

Bu sualların cavablarından sonra Əli ibni Əbi Talibin (ə) biləklərindən tutub qollarının altı görünənə qədər qaldırdı və sonra buyurdu:

«Ey millət! Allah mənim mövlamdır (Ixtiyar sahibimdir.).Mən də sizin mövlanızam. Bəs hər kəs məni mövla bilsə, Əli (ə) da onun mövlasıdır. Ey Allah! Hər kim Əli (ə) ilə dost olsa, Sən də onunla dost ol və hər kim onunla düşmən olsa, səndə onunla düşmən ol, [«Müsnədi» Əhməd (1-ci cild səh.118-119 və 4-cü cild səh.281,370 və 5-ci cild səh.347-370). Müstədrəkul-Hakim (3-cü cild səh.109) «Sünəni ibni Macə» və «Şəvahidüt-tənzil» (1-ci cild səh.109-191) Ibni Kəsir tarixi (5-ci cild 109-cı səhifədə yazmışdır: «Mən Zeyddən soruşdum, sən bunu Peyğəmbərin (s) özündən eşitdin? Zeyd dedi: «O ağacların altında olanların hamısı bunu öz qulaqları ilə eşitdilər». Ibni Kəsir sözlərinin davamında deyir: Bizim şeyximiz Əbu Əbdullah Zəhəbi deyib: «Bu hədis səhih hədisdir».] ona kömək edən şəxslərə sən də kömək et! Onu yalqız qoyub tərk edəni, sən də yalqız və köməksiz qoy! [Musnədi Əhməd, (1-ci cild səh. 118-119) Məcməüz, zəvaid, (9-cu cild səh.104-105-107) Şəvahidüt-tənzil, (1-ci cild səh.193). Ibni Kəsir tarixi (5-ci cild səh.210-211)].

Onu sevəni sən də sev və ona qarşı kinli və qəzəbli olana sən də qəzəbli ol!»

Həzrət Peyğəmbər (s) sözünün axırında buyurdu:

«Ilahi, (bütün bunlara) özün şahid ol! [Şəvahidüt-tənzil, (1-ci cild səh.190). Ibni Kəsir tarixi (5-ci cild səh.210)]

Peyğəmbər (s) həzrət Əlidən (ə) ayrılmışdı ki, bu ayə nazil oldu:

«Bu gün sizin üçün dininizi kamil etdim, nemətimi sizlərə tamamladım və islamın sizə din olmasına razı oldum.» (Maidə surəsi, ayə 3).

Bu ayə nazil olandan sonra Peyğəmbər (s) buyurdu:

«Əllahu əkbər! Allah mənim peyğəmbərliyim və Əlinin bu ümmətə imam və rəhbər təyin olunması ilə islamın kamil bir din olaraq sizə din olmasına razı oldu.» [Hakim Həskani Şəvahidüt-tənzildə (1-ci cild, səh.157-158) bunu Əbu Sid Xədridən nəql etmişdir. Səh.108-də isə Əbu Hureyrədən rəvayət etmişdir. Həmin hədisi

Ibni Kəsir (5-ci cild səh.214) də bir az fərqli nəql edib.]

Bu mövzuya aid olan bir çox ayələr vardır ki, onların zikr olunması ilə söz uzanar. Ona görə də bunları geniş şəkildə bilmək istəyənlər təfsir, mənqəbət, hədis və tarix kitablarına müraciət etsinlər. Biz bu ayələrdən bir neçəsini qeyd edib bu məsələni başa çatdıracağıq.(Inşaalah!)

1. Rəd surəsi, ayə 7.

***«(Ey Peyğəmbər!) sən, yalnız (cəhənnəm əzabından xalqı) qorxudansan və hər qövm üçün bir hidayətçi vardır.»***

Rəvayət edilmişdir ki, Peyğəmbər (s) əlini sinəsinə qoyub buyurdu:

«Mənim vəzifəm xəbərdarlıq etmək və qorxutmaqdır; Hər xalqın bir yol göstərəni vardır.»

O həzrət əli ilə Əli (ə)-a işarə edib buyurdu:

«Hidayət edən sənsən, ey Əli! Məndən sonra hidayət axtaranlar sənin vasitənlə hidayət olacaqlar». [Mustədrəkus-səhiheyn. (3-cü cild, səh.129). Kənzül-ümmal, (6-cı cild, səh.157)].

Həmin hədisi Təbəri öz təfsirində , Fəxri Razi «Kəbir» təfsirində və Süyuti «Əddürrül-mənsur» təfsirində zikr olunan ayələrin izahında nəql etmişlər.

2. Səcdə surəsi, ayə 18.

***«Mömin adam fasiq adam kimidirmi? Onlar (heç vaxt) bir ola bilməz.»***

Bu ayədə «mömin» sözündən həzrət Əli (ə) və «fasiq» sözündən isə «Valid ibni Əqəbə»nin nəzərdə tutulduğu deyilmişdir. [Bunu ibni Cərir Təbəri öz təfsirində, Süyuti «Əddürrul-mənsur» və Zəməxşəri «Kəşşaf» təfsirində qeyd olunan ayələri təfsir edərkən, Vahid isə «Əsbabün-nüzul» (səh.263) və «Tarixi Bəğdad» və «Ərriyazün-nəzrə» kitabında bəyan etmişlər.]

3. Hud surəsi, ayə 17.

***«Rəbbi tərəfindən aşkar sübut və şahidi olan adam (necə inkar edilər).»***

Ayədə zikr olunan «Rəbbindən aşkar sübut olan» sözündən məqsəd Peyğəmbər (s) və şahid sözündən isə həzrət Əli (ə)-dır. [Kənzül-ümmal (1-ci cild səh.251). Süyuti «Əddürrul-mənsur» və Fəxri Razi «Kəbir» təfsirində bu ayələri həmin şəkildə bəyan etmişlər.]

4. Təhrim surəsi, ayə 4.

***«Şübhəsiz (o peyğəmbərin) dostu və köməyi Allah, Cəbrail və möminlərin salehidir.»***

Təfsirçilər və hədis alimlərinin rəyinə görə bu ayədə «möminlərin salehi» sözü ilə işarə olunan şəxs həzrət Əli (ə)-dır. [Süyuti «Əddürrul-mənsur» bu ayənin təfsirində «Kənzu-ümmal» (1-ci cild səh.237); «Fəthul bari» (13-cü cild, səh.27) «Məcməuz-zəvaid» (9-cu cild səh.194)]

5. Əl-haqqə surəsi, ayə 12.

***«O, (ilahi moizə və hikmətləri) eşidib düşünən qulaqlar eşitsinlər.»***

Peyğəmbər (s) bu ayəni oxuyub üzünü Əliyə (ə) çevirib buyurdu: «Allahdan istəmişəm ki, bu «eşidib düşünən» qulaq sənin qulağın olsun.»

Əli (ə) deyir: (Ondan sonra) «Peyğəmbərdən (s) eşitdiyim heç bir şeyi yaddan çıxarmadım.» [Bu hədisi Təbəri öz təfsirində, Zəməxşəri «Kəşşaf» və Süyuti «Əddürrul-mənsur» təfsirində qeyd olunan ayənin izahında bəyan etmişlər. Həmçinin, «Məcməüz-zəvaid» (9-cu cild səh.131) «Kənzül-ümmal» (6-cı cild səh.408) və «Əsbabün-nüzul» kitabında da bu şəkildə nəql edilmişdir.]

6. Məryəm surəsi, ayə 96.

***«Iman gətirib saleh əməl edənlərin məhəbbətini Rəhman (Allah) tezliklə qəlblərə salar.»***

Peyğəmbər (s) bir gün həzrət Əliyə (ə) buyurdu:

«Ya Əli! Söylə ki, ey Allah! Məni öz əhd-peymanına bağlı et və mənim məhəbbətimi möminlərin qəlbinə sal!»

Sonra bu ayə həzrət Əlinin (ə) haqqında nazil oldu. [Bu hədis Zəməxşərinin «Kəşşaf» və Süyutinin «Əbddürrul-mənsur» təfsirində ayəni təfsir edərkən bəyan edilmişdir. Həmçinin «Məcməüz-zəvaid» (9-cu cild, səh.207) və «Əssəvaiqül-məhrəqə» (ibni Həcər, səh.102) kitablarında verilmişdir.]

7. Bəyyinə surəsi, ayə 7.

***«Iman gətirib saleh əməl edənlər, insanların ən yaxşılarıdırlar.»***

Peyğəmbər (s) buyurdu:

«Ey Əli! (ayədə qeyd olunan) şəxslərdən məqsəd sən və sənə tabe olub yolunu gedənlərdir.» [Bu hədis Təbəri təfsirində nəql edilmişdir. Süyuti də bu hədis «Əbddürrul-mənsur» təfsirində müxtəlif sənədlər ilə nəql etdikdən sonra əlavə edib yazır: «Həmişə Əli (ə) gələndə Peyğəmbərin (s) səhabələri deyərdilər: "Insanların ən yaxşısı gəldi". Bu hədis «Əssəvaiqül-məhrəqə (səh.96) və «Nurul-əbsar» (səh.10 və 101) də nəql edilmişdir.]

8. Tövbə surəsi, ayə 19.

***«Hacılara su verməyi və Məscidül-Həramı təmir etməyi, Allaha və qiyamət gününə iman gətirən şəxslərə bərabər sanırsızmı?»***

Ayənin birinci hissəsində Abbas və Təlhə, ikinci hissəsində isə həzrət Əli (ə) nəzərdə tutulmuşdur. [Vahidi «Əsbabün-nüzul» da (səh.182). Təbəri, Fəxri Razi və Süyuti də bu sözləri öz təfsirində yazmışlar.]

Bu mövzuda çoxlu ayələr vardır, lakin söz çox uzanmasın deyə, onları zikr etmirik.

## ƏHLİ-BEYT (Ə) PEYĞƏMBƏRİN (S) SÜNNƏSİNDƏ

Hər kim əziz peyğəmbərimiz həzrət Məhəmmədin (s) sünnəsində və keçdiyi həyat yolunda tədqiqat aparıb mütaliə etsə və o Həzrətin (s) Əhli-beytə (ə) qarşı olan məhəbbət və əhəmiyyətini görsə başa düşər ki, bu müqəddəs ailənin islam ümmətinin tarixi məziyyətlərində nə qədər böyük, əsaslı rolu və təsiri vardır. Peyğəmbər (s) müxtəlif tarixi şəraitlərdə bu məsələni xalqa bəyan edərək, Allahın əmri ilə ümmətdə belə bir məsələni qəbul etməyə zəmin yaradırdı. Peyğəmbər (s) bu işi mərhələ-mərhələ həyata keçirirdi. Ilkin mərhələdə Allahın əmri ilə qızı Fatiməni (ə) həzrət Əliyə (ə) ərə verdi və bununla da mübarək Əhli-beyt (ə) ağacının gövdəsini əkdi ki, tarix boyu bu ağacın budaqları islam ümmətinin bütün üfüqlərinə ucalsın. Peyğəmbər (s) bu mübarək vücudların nikah mərasimində həzrət Əliyə (ə) müraciət edərək belə buyurdu:

(Ey Əli!) əgər razı olarsansa, Allah-taala dörd yüz misqal gümüş müqabilində Fatimənin sənə nikah olunmasını mənə əmr etmişdir.»

Əli (ə) dedi:

«Ey Allahın Peyğəmbəri! Mən də buna razıyam.»

Ənəs ibni Malik deyir: Peyğəmbər (s) bu sözdən sonra buyurdu:

«Allah sizi bir-birinizə mehriban və bağlı etsin. Sizə böyük və pak bir nəsil verməklə xoşbəxt və səadətli etsin.»

Ənəs deyir: «Allaha and olsun ki, Allah onların vücudundan pak və böyük bir nəsil yaratdı». [«Zəxairül-üqba fi mənaqibi zəvil-qurba», muhibbəd-dini təbəri, (səh.30)]

Həmçinin rəvayətə görə Peyğəmbər (s) onların kəbinini kəsdikdən sonra Fatimənin (ə) yanına gedib onu çağırdı. Ümmi Eymən bir qabda su gətirdi. Peyğəmbər (s) o sudan bir qədər ağzına alıb yenidən qaba tökdü. Sonra onu həzrət Fatimənin (ə) üstünə səpib belə dua etdi:

«Ey Allah! Mən onu və nəslini Şeytanın şərindən sənə sığındırıram.(Onları şeytanın şərindən qoru.)»

Sonra həzrət Əlidən (ə) su gətirməyi xahiş etdi. Su gətirildikdən sonra onu alıb həzrət Əlinin (ə) başına və çiyinlərinin arasına səpdi və belə dua etdi:

«Ey Allah! Mən onu və nəslini şeytanın şərindən sənə sığındırıram.»

Bir ayrı rəvayətdə belə nəql edilmişdir: «Peyğəmbər (s) bir qədər su istəyib onunla dəstəmaz aldı və qalan suyu Əli və Fatimənin üstünə səpib belə dua etdi:

«Ey Allah, Sən onların nəslinə bərəkət ver.» [«Əlithafu bihubbil-işraf. «Şəbravi Şafei». (səh.21) Misir, «Ədəbiyyat» mətbəəsinin çapı.]

Əvvəllər hər kim xanım Fatimənin elçiliyinə gəlirdisə, həzrət Peyğəmbər (s) üzr istəyib buyurardı:

«Hələlik (Allah tərəfindən) bu məsələ barəsində mənə bir əmr gəlməmişdir.» [«Zəxairül-üqba», Təbəri (səh.30) Əlyazma nüsxəsi.]

Bəli, bu Əli və Fatimənin (ə) ailə qurmasına Allahın və Peyğəmbərin (s) mərhəmət və diqqəti idi. Bu ailə qurma yalnız Allahın əmri ilə icra olundu. Ona görə ki, gərək aşkara Əhli-beytin (ə) məqamı və Peyğəmbərin (s) özündən sonrakı zamanlar üçün nəzərdə tutduğu məqsəd və hədəflər bəyan olsun. Elə məqam ki, Qurani-kərim onu müxtəlif ayələrdə izah etmiş və həmçinin Peyğəmbər (s) onu öz hədislərində bəyan etmişdir. Bu rəvayət və hədislər həddindən artıq çoxdur. Biz bunların yalnız, bir neçəsini zikr edəcəyik. Əgər oxucular onları diqqətlə mütaliə etsə, Allahın və Peyğəmbərin (s) Əhli-beytə

(ə) olan dərin məhəbbət və ehtiramını, bu münasibətlərin əsil hədəfini başa düşər. Bu hədəfin əsas prinsipləri, milləti heyrət və təəccübdə qaldıqları zaman hidayət etmələri, problem və çətinliklərdən xilas etmələri, parçalanıb dağıldıqları zaman xalqın birləşməsində mərkəzə çevrilmələridir. Bu dediklərimizin hamısı hədislərdə aydın şəkildə öz əksini tapmışdır. Bəzi hədislərdə Peyğəmbər (s) Əli (ə) və Fatimənin (ə) övladlarını, nəslini öz övladları və öz nəsli kimi təqdim etmişdir. Həmçinin, Peyğəmbərdən (s) əvvəl Quran da bu həqiqətə işarə edərək buyurmuşdur:

**«...Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı...» (Ali-Imran surəsi, ayə 61.)**

Bu «Mübahilə» ayəsindəki «əbnaəna və əbnaəkum» yəni, «övladlarımızı və övladlarınızı çağıraq» cümləsində Peyğəmbərin (s) övladları deyəndə, Həsən və Hüseyn (ə) nəzərdə tutulurdu. Bu barədə artıq, təfsirçilərin izahlarını nəzərinizə çatdırmışıq. Əziz Peyğəmbərimiz (s) bu mənanı ümmət üçün dəfələrlə zikr etmişdi. Məsələn, buyurmuşdur:

«Həqiqətən Allah hər bir peyğəmbərin nəslini onun öz sülbündən qərar vermişdir və mənim də nəslimi bu Əlinin sülbündən qərar vermişdir» [Zəxairul-üqba», Təbəri, səh.67].

Yenə o Həzrət, imam Həsən və Hüseyni (ə) qucağına alıb buyurdu:

«Çünki, onların babası mənəm, deməli onlar mənim sülaləmdir.» [«Mənaqib», Əhməd ibni Hənbəl. Bu hədisi cüzi fərqlə Təbərani «Məcməul-kəbir» kitabında (1-ci cild, səh.24 əlyazma). Müttəqi «Kənzül-ümmal» (6-cı cild, səh.22) və Təbəri, «Zəxairul-üqba» kitabında nəql etmişdir. Süyuti də öz «Ehyaül-məyyit» kitabında belə nəql edir: “ Təbərani Ömərdən nəql edir ki, Peyğəmbər (s) buyurdu: *«Hər qadın uşaqlarının əsli-kökü babalarıdır. (Yəni, babalarının sülaləsi sayılır.) Fatimənin uşaqlarından başqa. Çünki, onların əsli-kökü və babaları mənəm»*].

Peyğəmbər (s) bütün münasib şəraitlərdə Əhli-beytin (ə) məqam və rütbələrini bəyan edirdi ki, ümmət onlara diqqət yetirərək məhəbbətlərini ürəklərində bəsləsinlər və onların yolunda hərəkət etsinlər.

Hədis və tarix kitablarında Peyğəmbərin (s) söylədiyi və bu mənaları özündə əks etdirən «Səqəleyn» hədisi geniş yayılmışdır. Bu şərəfli hədisi müxtəlif fiqhi və siyasi məzhəblərə bağlı olan müsəlmanların hamısı öz kitablarında müxtəlif sözlərlə nəql etmişlər. Biz burada o müqəddəs hədisi həmin kitablarda yazılan şəkildə, yəni müxtəlif ifadələrlə sizə təqdim edirik.

## *SƏQƏLEYN HƏDİSİ*

Həzrət Peyğəmbər (s) buyurmuşdur:

«Həqiqətən mən (Allah tərəfindən) dəvət olunmuşam və yaxın vaxtlarda (o dəvəti) icabət edəcəyəm, (Yəni, dünyadan köçəcəyəm) bir halda ki, sizin aranızda iki ağır və qiymətli əmanət qoyuram. Onlardan biri Allah-taalanın kitabı (Quran), digəri isə mənim itrətimdir. Allahın kitabı göydən yerə endirilən ipi xatırladır və itrətim isə mənim Əhli-beytimdir (ə). Mehriban olan Allah mənə xəbər vermişdir ki, bu iki şey Cənnət hovuzunda mənə qovuşana qədər bir-birlərindən ayrılmayacaqlar. Diqqətli olun və görün məndən sonra bu iki şeylə necə rəftar edəcəksiniz.» [Bu hədisi Tərmezi öz «Səhihində» (2-ci cild səh.380, «Əhli-beytin mənaqibində» fəsli) öz sənədi ilə Zeyd ibni Ərqəmdən nəql etmişdir və axırda artırmışdır: «Bu hədis gözəl və qəribə bir hədisdir». Bu hədisi Hakim öz «Müstədrək»ində (3-cü cild, səh.109) Zeyd ibni Ərqəmdən nəql etmişdir. Əhməd ibni Hənbəl də öz «Müsnəd»ində (3-ci cild, səh.17) Əbi Səid Xidridən nəql etmişdir. Həmin rəvayəti Təbərani «Möcəmül-kəbir» (1-ci cild, səh.129. Əlyazma) və Təbəri «Zəxairul-üqba»da (səh.16) Əhməddən rəvayət etmişdir.]

Şəbravi Şafeyi «Əl-ithafu bihubbil-əşrəf» kitabında yazır: «Müslim, Termezi və Hakim öz kitablarında Zeyd ibni Ərqəmdən rəvayət ediblər ki, (bir gün) Peyğəmbər (s) bizim aramızdan qalxıb xütbə oxudu və Allaha həmd-səna etdikdən sonra belə buyurdu:

«Ey insanlar! Mən də bir bəşərəm və yaxın vaxtlarda Rəbbimin elçisi (ölüm mələyi) mənim yanıma (canımı almağa) gələr və mən də ona cavab verərəm (dünyadan köçərəm.) Mən sizin aranızda iki qiymətli və ağır əmanət qoyuram. Onlardan birincisi içərisində nur və hidayət olan Allahın kitabı (Quran) dır. Bəs Allahın kitabını tutun və ona sarılın.» Sonra buyurdu: «Digəri isə mənim Əhli-beytimdir (ə). Sizdən istəyirəm ki, onlar barəsində düşünərkən və rəftar edərkən Allahı yaddan çıxarmayasanız». [«Əlithafu bihubbil-əşraf», Şəbravi Şafeyi (səh.22)].

Şəbravi yenə yazır: Ayrı bir rəvayətdə belə deyilmişdir:

«Mən sizin aranızda iki şey qoyub gedirəm. Əgər onlara tabe olsanız, heç bir zaman yoldan çıxıb azmazsınız. O iki şey Allahın kitabı və mənim Əhli-beytimdir.»

Ayrı bir yerdə bu hədisin axırı bu şəkildə nəql edilmişdir:

«O iki şey Cənnət hovuzunda mənə qovuşana qədər bir-birlərindən ayrılmazlar. Baxın görün məndən sonra onlarla necə rəftar edəcəksiniz.»

Yenə də Şəbravi ibni Həcərin «Səvaiq» kitabından belə nəql edir: «Peyğəmbər (s) Quran və Əhli-beytə «Səqələyn» adını verdi. Çünki, «Səql» minnət ilə verilən dəyərli və ağır şeyə deyilir.

Quran və Əhli-beyt də bu xüsusiyyətə malikdirlər. Məhz buna görə də Peyğəmbər (s) öz ümmətini onlara tabe olaraq yolları ilə getməyə təşviq edir. Bəziləri isə deyirlər: «Onların hüqularının qorunması və riayət edilməsi vacib olduğu üçün onlara «Səqələyn» adı verilib. Onlar Allahın kitabını hamıdan artıq bildikləri üçün və Cənnət hovuzunda Peyğəmbərə (s) qovuşana qədər Qurandan ayrılmayacaqlarına görə əziz tutulmalı və onların hüquqlarına riayət olunmalıdır. [«Əlithafu bihubbil-əşraf», Şəbravi Şafeyi (səh.22)].

Mərhum əllamə şeyx Məhəmməd-Cavad Bəlaği «Alaur-rəhman fi təfsiril-Quran» kitabında belə yazır: «Səqələyn hədisi hamı tərəfindən qəbul edilən hədisdir. Onu sünni qardaşlarımız da öz kitablarında yazmış və bu hədisi Peyğəmbərin (s) özündən eşidən səhabələrdən belə rəvayət etmişlər:

Səqələyn hədisini həzrət Peyğəmbərdən (s) eşidib nəql edənlər:

1. Əmirəl-möminin Əli ibni Əbi-Talib (ə).
2. Abbdullah ibni Abbas.
3. Əbuzər Ğəffari.
4. Cabir Ənsari.
5. Abdullah ibni Ömər.
6. Hüzəyfə ibni Əsad.
7. Zeyd ibni Ərqəm.
8. Əbdürrəhman ibni Of.
9. Zəmirə Əsləmi.
10. Amir ibni Leyla.
11. Əbu Rafe.
12. Əbu Hüreyrə.
13. Abdullah ibni Həntəb.
14. Zeyd ibni Sabit.
15. Ümmü Sələmə.
16. Ümmü Hani (Əlinin (ə) bacısı).
17. Xəzimə ibni Sabit.
18. Səhl ibni Səd.
19. Ədi ibni Hatəm.
20. Əqəbə ibni Amir.
21. Əbu Əyyub Ənsari.
22. Əbu Səid Xidri.
23. Əbu Şureyh Xəzai.
24. Əbu Qədamə Ənsari.
25. Əbu Leyla.
26. Əbu Heysəm ibni Əttihan.

Ümmü Hanidən sonra adları çəkilən səhabələrin hər biri bu hədisi həm ayrılıqda zikr etmişlər və həm də bir gün Qureyşdən yeddi nəfər ilə birlikdə Kufə meydanında yığışaraq bu hədisi həzrət Peyğəmbərdən (s) eşitdiklərini elan etmişlər.

Deməli, bu yeddi nəfər hesaba alınmaqla səhabədən otuz üç nəfəri bu hədisi Peyğəmbərdən (s) nəql etmiş olurlar.

Bu hədisi Əbu Nəim Isfahani «Mənqəbətul mütəhhərin» kitabında müxtəlif sənədlərlə Cübeyr ibni Mütəm, Ənəs ibni Malik və Bərra ibni Azibdən, Müvəffəq ibni Əhməd də Ömər ibni Asdan nəql etmişlər.

Sünni qardaşlarımızın tək-tək hədis kitabları olar ki, bu hədis orada nəql edilməmiş olsun. Hədis kitabları yazılmağa başlayan vaxtdan bu günə qədər bu hədis neçə-neçə səhabələr tərəfindən rəvayət olunmuşdur. Hətta, bəzi kitablarda iyirmiyə yaxın səhabənin adı çəkilərək bu hədis nəql olunmuşdur. Və yaxud, bəzi kitablarda sənədsiz və qısa şəkildə nəql edilmişdir (məsələn, «Əssəvaiqul-məhrəqə» kitabı). Həmçinin, sənədli və geniş şəkildə də nəql olunmuşdur (məsələn, Səxavi, Süyuti, Səmhudi və sairələrin kitablarında).

Sonra mərhum Bəlaği öz sözlərinə əlavə edərək belə yazır: «Şiə alimləri də bu hədisi müxtəlif sənədlərlə imam Baqir (ə), imam Sadiq (ə), imam Kazim (ə) və imam Riza (ə) və onlar da öz babalarından və nəhayət həzrət Peyğəmbərdən (s) rəvayət etmişlər. Digər sənədlərlə də Əmirəlmöminin (ə), Ömər, Übəyy, Cabir, Əbu Səid, Zeyd ibni Ərqəm, Zeyd ibni Sabit, Hüzəyfə ibni Əsid, Əbu Hureyrə və sairələri Peyğəmbərdən (s) rəvayət etmişlər. [«Alaurrəhman», mərhum Bəlaği, (səh.43. Ikinci çap)].

Əllamə Firuzabadi nəql etmişdir ki, «Səqələyn» hədisini Müslim öz «Səhih»ində, Əhməd ibni Hənbəl «Müsnəd»ində (4-cü cild, səh. 366), Beyhəqi «Sünən»ində (2-ci cild, səh. 431), Müttəqi «Kənzul-ümmal»da (1-ci cild, səh. 45 və 7-ci cild, səh. 102), Təhavi «Muşkilul-asar» da (4-cü cild, səh. 308), ibni Əsir «Üsdül-ğabə»də (2-ci cild, səh. 12), Süyuti «Dürrül-mənsur» da «Şura» surəsində «Məvəddət» ayəsinin təfsirində və «Müstədrəküs-səhihəyn»də (3-cü cild, səh. 109), Nisai «Xəsais» də (səh. 21) və «Müstədrəküs-səhihəyn»də (3-cü cild, səh. 148), Hənbəl «müsnəd»də Əbu-Səid Xidridən və o da Peyğəmbərdən (s) rəvayət etmişlər:

Bu hədis zahiri cəhətdən Quran və Əhli-beyti (ə) bir-birində birləşdirdiyi kimi, mənəvi cəhətdən də bunların arasında vəhdət oluğunu izah edir. Çünki, Qurandan sonra, müsəlmanların müraciət edəcəkləri mənbə Əhli-beytdir (ə). Eyni zamanda Quranı onlardan artıq başa düşən bir kimsə yoxdur.

## SƏFİNƏ HƏDİSİ

«Səqələyn» hədisi bizə Əhli-beyti (ə), Quranın məna və həqiqətlərini, hikmət və sirlərini bəyan edən şəxslər kimi tanıtdırdı. «Səfinə» hədisi isə onların müsəlmanlar üçün nicat gəmisi və qurtuluş yolu olduqlarını müəyyən edir. Bu hədisdə izah olunur ki, hər kim bu gəmidən istifadə etməzsə və onunla birgə hərəkət etməzsə, şübhə yoxdur ki, günah dənizində bataraq məhv olacaqdır. Eyni zamanda Əhli-beytin (ə) nicat gəmisinə minməyən şəxs insanları hidayət və mənəviyyat sahilləinə aparan ilahi rəhbərləri rədd edir və bununla da özünün əbədi bədbəxtçilik dənizində boğulmasına razı olur.

Şəbravi Şafeyi, Əbuzər Ğəffarinin xidmətçisindən belə rəvayət edir: «Bir gün Əbuzər Kəbənin astanasına çıxdı və qapının halqasını tutub özünə tərəf çəkdi və belə dedi: Ay camaat! Hər kim məni tanıyırsa tanıyıb, tanımayanlar bilsinlər ki, mən Əbuzərəm! Mən Peyğəmbərdən (s) eşitdim ki, O, buyurudu:

«Mənim əhli-beytim Nuhun gəmisi kimidir. Hər kim ondan uzaq düşsə cəhənnəm oduna düşər.»

Yenə də Peyğəmbərdən eşitdim:

«Mənim əhli-beytimi bir bədəndə baş və yaxud bir başda gözün yerində fərz edin. Şübhəsiz bədən başsız və baş da gözsüz heç bir zaman bir iş görməyə qadir deyildir.» [«Əl-ithafu bihubbil əşraf (Şərbavi Şafeyi) Müəllifin öz sözü, səh.26.]

Əbu Nəsim öz sənədi ilə Səid ibni Cübeyr və ibni Abbasdan belə rəvayət edir: Peyğəmbər (s) buyurdu:

«Mənim əhli-beytim sizin aranızda Nuhun gəmisi kimidir. Hər kim ona minsə nicat tapar və hər kim ondan üz döndərsə məhv olar.» [Bu hədisin nəql olunduğu kitabların bəziləri aşağıdakılardan ibarətdir: «Hilyətul-övliya» (4-cü cild, səh.306), «Zəvaidu müsnədil-Bəzar» (Əhli-beyt vəl-ərvah) fəsli, (səh.277), «Məcməüz-zəvaid» (9-cu cild, səh.163), «Möcəmül-kəbir» Təbərani (1-ci cild səh.125) «Müsnədi əlimam Əlhəsən (ə)», «Zəxairul-uqba (səh.20), «Müstədrək», Hakim (2-ci cild, səh.343) «Kənzul-ümmal» (6-cı cild, səh.216)]

Bu hədisi Hakim öz «Müstədrək»ində (2-ci cild, səh. 343) nəql etdikdən sonra demişdir: «Bu hədis «Səhihi Müslim» nöqteyi nəzərindən də düzgün bir hədisdir.» Bu hədis Ənəs ibni Malikdən də bu şəkildə rəvayət edilmişdi: Həzrət Peyğəmbər (s) buyurmuşdur:

«Mən və mənim Əhli-beytim Nuhun gəmisi kimiyik, hər kim ona minsə nicat tapar və hər kim ondan üz döndərsə həlak olar.»

Süyuti də bu hədisi «Dürrül-mənsur» kitabında aşağıdakı ayənin təfsirində nəql etmişdir:

***«Biz (Bəni Israilə) bu qəsəbəyə girin dediyimiz zaman, onlara söylədik ki, oradan arzuladığınız şeyləri yeyin. Qəsəbənin qapısından girən zaman səcdə edin və «Ilahi, bizi bağışla» söyləyin və biz də sizi bağışlayaq.»*** **(Bəqərə surəsi, 58-ci ayə)**

Süyuti bu ayənin izahında ibni Əbi-Şeybədən, o da həzrət Əlidən (ə) belə izah edir:

«Həqiqətən biz (Əhli-beyt) bu ümmətin içərisində Nuhun nicat gəmisi və Bəni Israilin «məğfirət qapısı» (bağışlanma qapısı) misalındayıq.» [«Fəzailul xəmsəti fissihahi-ssittə» (2-ci cild səh.64)]

Bu hədisi Müttəqi də «Kənzul-ümmal» kitabında (6-cı cild, səh. 216) bu şəkildə nəql etmişdir:

«Mənim əhli-beytim sizin aranızda Nuhun gəmisi kimidir. Kim ona minsə xilas olar və hər kim ondan üz döndərsə həlak olar. Həmçinin, ((Əhli-beytim) Bəni-Israilin «məğfirət» qapısına bənzəyər.»

Bu hədisi Təbərani də Əbuzər Ğəffaridən nəql etmişdir.

## *AMAN HƏDİSİ*

Bu şərəfli hədis də öz növbəsində həzrət Peyğəmbərin (s) əhli-beytinin müsəlmanlar arasında siyasi-etiqadi mahiyyətini izah edir. Hər hansı bir millətin ən təhlükəli və xətərli məsələsi, onun siyasi-etiqadi məsələlərdə ixtilaf və təfriqələrlə üzləşməsidir. Həzrət Peyğəmbər (s) də öz ümmətinin gələcəkdə belə vəziyyətlərə düçar olmaması üçün və yaxud bu kimi şəraitlərdən çıxış yolu tapmaları üçün xüsusi bir layihə hazırlamışdır. O layihə Allahın əmri ilə ümməti Əhli-beytə (ə) tərəf sövq etdirmək və onların ətrafında birləşdirməkdən ibarət idi. Əvvəldə söylədiyimiz hədislərdə Əhli-beyt (ə) «nicat gəmisi» və «bağışlanma qapısı» kimi təqdim edildi. Indi söyləyəcəyimiz hədis isə Əhli-beyti (ə) ümmətin vəhdət mərkəzi və onları ixtilaf və azğınlıqdan qoruma vasitəsi kimi müəyyən edir. Əgər ümmət onların yolu ilə getsələr daimi olaraq ixtilaf və təfriqələrdən amanda qalarlar. Məhz, buna görə də bu hədisin adına «Aman hədisi» deyilmişdir.

Təbərani ibni Abbasdan rəvayət edir ki, Peyğəmbər (s) buyurmuşdur:

«Ulduzlar yer sakinlərini (gecələr dənizlərə gedərkən yolu tapmaqda) qərq və həlak olmaqdan amanda saxlayarlar, mənim isə əhli-beytim yer üzünün sakinlərini ixtilafdan amanda saxlayır.» [Bu hədisi Şəbravi Şafeyi «Əlithafu bihubbil-əşraf» kitabında (səh.20) nəql edərək səhih olduğunu qeyd etmişdir. Həmçinin, Hakim «Müstədrəküs-səhihəyn» kitabında, Müttəqi «Kənzul-ümmal» kitabınd (6-cı cild, səh.217) və ibni Həcər «Səvaiqul-məhrəqə»də (səh.140) rəvayət etmişdir.]

Təbəri də Əlidən (ə) rəvayət etmişdir ki, Peyğəmbər (s) belə buyurdu:

«Ulduzlar asimanın sakinlərinin əmin-amanlıq vasitələridir, onlar yox olub getsələr, sakinləri də aradan gedər. Mənim Əhli-beytim (ə) də yer əhlinin əmniyyət vasitəsidir, onlar aradan getsə, yer üzünün sakinləri də aradan gedər.»

Sonra artırır ki, Hənbəl də öz «Müsnəd»ində (mənaqib fəslində) bu hədisi nəql etmişdir. [«Fəzailul xəmsə fi sihahis-sittə» (2-ci cild, səh.68)].

## KƏSA HƏDISI

«Kəsa» sözü əba mənasındadır. Bu hədisin «Kəsa» adlandırılmasının səbəbi budur ki, Peyğəmbər (s) öz Əhli-beytini toplayıb əbasını onların üzərinə çəkdi və bu hədisi buyurdu.

Həzrət Peyğəmbər (s) bu hədisi «Təthir» ayəsi nazil olan zaman Əhli-beyt (ə) (Əli, Fatimə, Həsən və Hüseyn) haqqında buyurmuşdur. Biz əvvəldə «Quranda Əhli-beyt» fəslini yazarkən, Təthir ayəsinin izahında bəzi təfsirçilərin sözlərini və bu barədə olan hədisləri söyləyərək bu mövzunu bəyan etdik. Burada isə bu mətləbi daha aydın işıqlandırmaq və Peyğəmbərin (s) bu mövzuya föqəladə əhəmiyyət verdiyi üçün bu hədisi izah edən digər rəvayətləri də siz əziz oxuculara təqdim edirik.

Bu hədis, təfsir və hədis kitablarında müxtəlif şəkildə nəql edilmişdir. Biz onlardan yalnız bir neçəsinə işarə edəcəyik:

Əhməd ibni Hənbəl öz «Müsnəd» ində Ümmü-Sələmədən belə rəvayət etmişdir: «Bir gün Peyğəmbər (s) mənim evimdə olarkən, xidmətçi gəlib ona dedi ki, Əli və Fatimə (ə) qapıda gözləyirlər. O həzrət mənə buyurdu: «Qalx ayağa və mənim Əhli-beytimdən (ə) kənarda dur. Mən də qalxdım və evin yaxın bir guşəsinə çəkildim. Sonra Əli və Fatimə və hələ də xırda uşaqlar olan Həsən və Hüseyn (ə) otağa daxil oldular. Peyğəmbər (s) Həsən və Hüseyni (ə) qucağında oturdub öpdü, sonra bir qolunu Əlinin, digər qolunu isə Fatimənin boynuna saldı və üstlərini qara bir əba ilə örtüb belə dua etdi:

«Ilahi, mən və Əhli-beytim sənə sarı üz tutmuşuq, cəhənnəmə sarı yox!

Ümmü Sələmə dedi: «Mən də, ey Allahın Peyğəmbəri!» Peyğəmbər (s) buyurdu:

«Sən də.»

Vahid də «Əsbabün-nüzul» kitabında Ümmü Sələmədən bu şəkildə rəvayət etmişdir:

Bir gün Peyğəmbər (s) mənim evimdə idi. Bu zaman Fatimə (ə) bir qab dolusu yeməklə Peyğəmbərin (s) yanına gəldi. Peyğəmbər (s) buyurdu:

«Get ərini və övladlarını da çağır.»

O da Əli (ə) və övladları Həsən və Hüseyni çağırdı. Onlar birlikdə əyləşib yeməyə başladılar. Peyğəmbər (s) yerdə əyləşmişdi və altında bir xeybər əbası var idi. Ümmü Sələmə deyir ki, mən də otaqda idim. Gördüm ki, o həzrət əbanı götürüb onların üstünə örtdü və belə dua etdi:

«Ey Allah! Bunlar mənim Əhli-beytim və seçilmişlərimdir. Onları bütün pislik və çirkinliklərdən uzaqlaşdır və pak-pakizə et.»

Ümmü Sələmə deyir: «Mən də başımı örtüyün altına daxil etdim və dedim: Ey Allahın Peyğəmbəri! Mən də sizinlə birlikdəyəm?» Peyğəmbər (s) buyurdu:

«Sən də xoşbəxt və səadətlisən (Amma Əhli-beytdən deyilsən.)»

Bu vaxt Allah-taala tərəfindən «Təthir» ayəsi nazil oldu.

[«Əlfüsulul-muhimmə». Ibni-Səbbağ Maliki (səh. 25-27]

## *MƏVƏDDƏT HƏDİSİ*

Biz əvvəlki söhbətlərimizdə Quranın Məvəddət ayəsi barəsində danışarkən Məvəddət hədisi barəsində olan rəvayət və sənədləri təqdim etdik. Burada isə yenidən o hədisi və Peyğəmbərdən (s) Əhli-beyt (ə) barəsində nəql olunan digər hədisləri də gətirməyi lazım bilirik:

Əhməd, Təbərani və Hakim ibni Abbasdan rəvayət etmişlər ki, Məvəddət ayəsi Peyğəmbərə (s) nazil olan zaman müsəlmanlar dedilər: «Ey Allahın Peyğəmbəri! Əqrəbalarından bizlər üçün dostluq və məhəbbətləri vacib olanlar kimlərdir? O həzrət cavab verdi:

«Onlar Əli, Fatimə və oğlanlarından ibarətdir»

Bəzzaz və Təbərani nəql edirlər: «Imam Həsən ibni Əli (ə) bir gün xütbə oxuyaraq belə buyurdu:

«Məni tanıyanlar tanıyır, tanımayanlar da bilsinlər ki, mən Məhəmməd (Peyğəmbər (s)) oğlu Həsənəm. Bilin ki, mən sizləri (Cənnətlə) mükafatlandıran və (Cəhənnəmlə) qorxudan şəxsin balasıyam. Mən o Əhli-beytin övladıyam ki, Allah onları sevməyi bütün müsəlmanlara vacib etmişdir. (Ey Peyğəmbər müsəlmanlara) söylə ki, mən sizlərdən (çəkdiyim zəhmətlərin müqabilində) əqrabalarımı sevməkdən başqa bir şey istəmirəm. Hər kim yaxşı əməl etsə, biz də o əməlin yaxşılığını artırarıq. Ayədə işarə olunan yaxşı əməldən məqsəd biz Əhli-beytin məhəbbət və dostluğudur.» [«Əl-ithafu bihubbil-əşraf» (Şəbravi Şafeyi, səh.17-18)].

Əbulhəsən Bəğəvi öz təfsirində ibni Abbasdan belə rəvayət edir: Allah-taala Məvəddət ayəsini nazil etdiyi zaman (müsəlmanlar) dedilər: «Ey Allahın Peyğəmbəri! Bu ayədə Allah tərəfindən bizlər üçün dostluq və məhəbbətləri vacib olan şəxslər kimlərdir?! Buyurdu:

«Onlar Əli, Fatimə və iki oğlanlarıdır.»

Sədi, ibni Malikdən o da ibni Abbasdan nəql edərək deyir:

«Hər kim bir yaxşı əməl edərsə, biz də onun o əməlinin yaxşılığını artırarıq» ayəsindəki «yaxşı əməl»dən məqsəd Məhəmmədin (s) övladlarını, Əhli-beyti (ə) sevməkdir. [«Əlfüsulul-muhimmə fi əhvalil əimmə» (Ibni Səbbağ Maliki, səh.29.]

Əhli-beyti (ə) sevmək, onlara itaət etmək və yollarından çıxmamaq haqqında nəql olunan hədislərin hamısını bu kitabda yazmaq mümkün deyildir. Biz onların bəzilərini seçib siz əziz oxuculara təqdim etdik. Əlbəttə, onu da qeyd edək ki, yazdığımız hədislərin tarix və hədis kitablarında özünəməxsus yeri vardır.

Oxucuların bu barədə məlumatlarının artırılması və Əhli-beytə (ə) qarşı olan məhəbbətlərinin dərinləşməsi, həmçinin onların yolunda hərəkət etməyə təşviq olunmaları və şəfaətlərinə ümüdlərinin artırılaması üçün o müqəddəslərin haqqında söylənən hədis və rəvayətlərdən bir neçəsini nəql etmək

istəyirik.

Təbərani «Möcəmul-ovsət» kitabında ibni Həcərdən nəql etmişdir: «Peyğəmbər (s) ömrünün axır anlarında söylədiyi sözlər bunlar idi:

«Məndən sonra Əhli-beytimi (hüquqlarını) riayət edin.» [**Bu hədisi Süyuti «Ehyaul-məyyit» (səh.20), Təbərani «Əlovsət», Heysəmi «Məcməüz-zəvaid» (9-cu cild, səh.163), ibni Hacər «Səvaiqul-məhrəqə»də (səh.90) nəql etmişlər.]**

Təbərani «Möcəmul-ovsət» kitabında Cabir ibni Abdullah Ənsaridən, o da Peyğəmbərdən (s) belə nəql edir:

«Ey insanlar! Hər kim biz Əhli-beytlə düşmən ola, Allah-taala qiyamət günü onu yəhudi şəklində məhşur edər.» [Bu hədisi Süyuti «Ehyaül-məyyit» (səh.22), Heysəmi «Məcməüz-zəvaid»də (9-cu cild, səh.173) Təbəranidən nəql etmişlər.]

Müslim, Termezi və Nisai, Zeyd ibni Ərqəmdən Peyğəmbərin (s) belə buyurduğunu rəvayət etmişlər:

«(Ey müsəlmanlar!) Əhli-beytimin haqqında (düşünərkən) Allahı yaddan çıxarmayın.» [«Səhihi-Müslüm (4-cü cild, səh. 1873), «Fəzailüs-səhabə», (Əli (ə) fəzilətləri fəsli), Müsnədi Əhməd» (4-cü cild səh. 366), Ehyaul məyyit (səh. 11)]

Xətib Bəğdadi öz tarixində həzrət Əli (ə) vastəsilə Peyğəmbərdən (s) belə rəvayət etmişdir:

«Mənim şəfaətim ümmətimdən o şəxslərə yetişəcək ki, Əhli-beytimi seviblər.» [Bu hədis Xətib Bəğdadinin tarixində (2-ci cild, səh. 146) bir qədər geniş şəkildə nəql edilmişdir. Eləcə də Kənzül-ümmal (6-cı cild, səh. 217, 3800-cü hədis) və «Ehyaül-məyyit» kitabında (səh. 37) rəvayət etmişlər.]

Qeyd etdiyimiz hədislər Əhli-beytin (ə) dostluğu və onları sevərək yollarında hərəkət etməyin vacib olmasını izah edən bəzi nümunələr idi.

## *DİGƏR HƏDİSLƏR*

Əhli-beytin (ə) barəsində daha bir neçə hədisi də nəzərinizə çatdıraraq bu hissəni tamamlayırıq. Peyğəmbər (s) belə buyurmuşdur:

«Biz Əhli-beytlə heç kəs müqayisə oluna bilməz.»

Göründüyü kimi bu şərəfli hədisdə Peyğəmbər (s) Əhli-beytinin (ə) ülvü məqamını və nəhayətsiz dərəcələrini göstərərək, ümməti onlara tərəf istiqamətləndirir. Həmçinin, ümmətlə onların arasında olan müqayisəolunmaz fərqləri açıqlayaraq, onları insaniyyət, şərafət, ülviyyət və mədəniyyət xəzinələrinə doğru hərəkət etməyə təşviq edir.

Peyğəmbər (s) başqa bir hədisdə Əhli-beytin (ə) barəsində bu şəkildə söhbət açır:

«Biz elə bir ailəyik ki, Allah bizim üçün axirəti dünyadan (dünyada yaşamaqdan) yüksək bilmişdir. Mənim Əhli-beytim (ə) məndən sonra müxtəlif ədalətsizlik və çətinliklərlə rastlaşacaq. Bu vəziyyət bu tərəfdən (şərq tərəfinə işarə edərək) qara bayraqlı insanlar gələnə qədər davam edəcək. Onlar həqiqəttələb olduqları halda, haqqı onlara verməzlər. Onlar həqiqət yolunda müharibə edib zəfər qazanarlar. Sonra onlara istədiklərini verərlər, lakin onlar o (zəfər) bayrağı mənim Əhli-beytimin (ə) bir nümayəndəsinə və yer üzünü bürüyən zülmü ədalətlə əvəz edən şəxsə çatdırmayanadək qəbul etməzlər. Hər kim o zaman həyatda olsa və (ayaq üstə durmağa imkanı olmasa) üzü üstündə yol getməyə məcbur olsa da, çalışsın özünü o insanlara yetirsin.»

Deyləmi Əbu Səiddən belə nəql edir:

Peyğəmbər (s) buyurdu:

«Hər kim mənim Əhli-beytimlə (pis) rəftar etməklə məni narahat etsə, Allahın qəzəbi o adam üçün şiddətli olar.»

Həzrət Əli (ə) Peyğəmbərdən (s) belə rəvayət etmişdir:

«(Ey müsəlmanlar!) üç keyfiyyəti övladlarınıza öyrədib tərbiyələndirin; Peyğəmbərimizi sevmək, Əhli-beytini sevmək və Quran oxumaq. Şübhəsiz, Quran daşıyanlar (onu öyrənib əməl edənlər) qiyamət günündə heç bir gölgə olmayan zaman, Allahın sayəsində gölgələnərlər. (Onlar) Allahın Peyğəmbərləri və digər seçilmiş bəndələri ilə birlikdə məhşur olar.»

Təbərani ibni Abbasdan, o da Peyğəmbərdən (s) belə rəvayət edir:

«(Qiyamət günü) bütün bəndələrə bu dörd sualları verməmiş qoymazlar bir addım irəliləsin; ömrünü

hansı şeylərə fənaya verdiyindən, bədənini nələrdə qocaltdığından, mal-dövləti hardan qazanıb, harada məsrəf etdiyindən və biz Əhli-beytin (ə) məhəbbət və dostluğundan.»

Başqa bir hədisdə Peyğəmbər (s) ümmətini Əhli-beytə (ə) tərəf sövq etdirərək, onların elmi və bilik dərəcələrini müsəlmanlara göstərir və yollarını itirdikləri, fitnələrə qapıldıqları zaman onlara müraciət etməyə rəğbətləndirir. Bəli, Quranın kamil alimləri və onun dərin mənalarına mükəmməl bələdçilər onlardır.

Təbərani «Mütəllib ibni Abdullah Həntəbədən» o da babasından belə nəql edir: «Bir gün Peyğəmbər (s) «Cöhfə» məntəqəsində xütbə oxuyaraq buyurdu:

(Ey müsəlmanlar!) Mən sizə özünüzdən yaxın deyiləmmi? (Sizin ixtiyar sahibiniz deyiləm?).»

Dedilər: «Bəli, ey Allahın Peyğəmbəri! Sən bizə özümüzdən yaxınsan.» O həzrət (s) buyurdu:

«Bilməlisiniz ki, (qiyamət günü) mən iki şeyin haqqında sizdən mütləq soruşacağam. O iki şeyin biri Quran, digəri isə Əhli-beytimdir.»

## ƏHLİ-BEYT (Ə) MƏKTƏBİNƏ MƏNSUB OLAN ALİMLƏRİN QURAN HAQQINDAKI GÖRÜŞLƏRİ

***«Şübhəsiz, biz zikri (Quranı) nazil etdik və həqiqətən onu qoruyacağıq.»***

Quran, Allahın kitabı və eyni zamanda öz Peyğəmbəri həzrət Məhəmməd ibni Əbdüllaha (s) nazil etdiyi vəhydir. Allah-taala bu müqəddəs Quranı hər cür nöqsan və təhriflərdən qorumuşdur. Bu ilahi vəhyə heç bir tərəfdən batil olan şeylər yol tapa bilməz. Məhz buna görədir ki, Qurani-kərim bu gün bizim əlimizə Peyğəmbərə (s) nazil olduğu şəkildə gəlib çatmışdır. Bu ilahi kəlamdan nə bir şey azaldılmış və nə də ona bir şey artırılmışdır.

Bu əzəmətli və ilahi kitab şəriətin qaynağı, hədislərin mizanı, düşüncə və anlayışların dəqiq meyarıdır. Həmçinin bu kitab islam mədəniyyətinin düşüncə tərzinin mənşəyi və insanların xoşbəxtlik vasitəsi və səadət qaynağıdır.

Bu ilahi vəhy tarixlər boyu müsəlmanlar tərəfindən nəsildən-nəslə təhvil verilmiş, eyni zamanda fövqəladə diqqət və sədaqətlə onu Cəbrailin Peyğəmbərə (s) nazil etdiyi şəkildə saxlamış və zəbt edərək bir-birlərinə nəql etmişlər. Bütün müsəlmanlar bu sözlərin düz olmasında və bunun ziddinə nəql edilən bütün uydurma hədisləri rədd etməkdə həmrəydirlər.

Məşhur Quran təfsirçisi Əllamə şeyx Həsən Təbərsi (Allah ruhunu şad etsin) hansı ki, onun təfsiri alim və təfsirçilər üçün mötəbər mənbə hesab olunur. O, öz «Məcməul-bəyan» təfsirində belə yazır:

«Qurandan bir şeyin ixtisar edilməsi və ya ona bir şeyin əlavə edilməsi haqqında danışmağa dəyməz. Çünki, Qurana bir şeyin artırılmasını müsəlmanlardan heç bir kim qəbul etməmişdir. Amma, Qurandan bir şeyin çıxarılmasına gəldikdə isə, onu «Həşəviyyə» təriqətli sünnilər və şiələrdən bir neçə nəfər söyləmişdir. Amma, şiələrin doğru və qəti nəzərləri bu sözün əksinədir.»

Mərhum Seyyid Mürtəza şiələrin bu nəzərini «Tarablos sualları» haqqında yazdığı cavabında kamil bir şəkildə açıqlamış və sübut etmişdir. O, sözlərinin müxtəlif yerlərində təkid etmişdir ki:

«Quranın əhatə etdiyi mövzunun sağlamlığı, hamısının ilahi vəhy olduğunun məşhur və qəti olması, tarixdə baş verən böyük hadisələrin, böyük şəhərlərin, kitabların, ədəbi əsərlərin və ərəb şerlərinin məşhurluğu kimidir. Hətta Quran, düzlükdə məşhur olmaqda adı çəkilən şeylərdən irəlidədir. Çünki, Quran nübüvvətin möcüzəsi, şəriət elmlərinin və din hökmlərinin qaynağı olduğu üçün müsəlmanlar və islam alimləri onu hifz etməkdə bütün bacarıq və səylərini sərf etmişlər. Qurana qarşı olan bu maraq, diqqət və məhəbbət elə bir yerə çatmışdır ki, onlar hətta onun erab və qiraətində olan incəlikləri və hərflərinin, ayələrinin dəqiq sayında belə tədqiq etmiş, kitablarda və təfsirlərdə qeyd etmişlər. Bütün bunlarla yanaşı müsəlmanlar müxtəlif dövrlərdə Quranın qorunması və saxlanılması yolunda əllərindən gələn hər bir fədakarlığı göstərmişlər. Bəs görəsən bu qədər böyük diqqət və maraq olduğu halda Quranın dəyişdirilməsi və nöqsanlaşdırılması necə mümkün ola bilər?! Quranın təfsir və hissələrinin doğruluğuna olan qəti biliyimiz, eyni ilə Quranın özünün qəti və şübhəsizliyinə olan biliyimiz kimidir. Bunu da yenə bir misal ilə izah etmək istəyirik. Məsələn, tarixdə bir çox yazıçı və elm xadimləri tərəfindən müxtəlif kitablar yazılmış və bu kitablar müxtəlif dövri şəraitlərdə məşhurlaşmışlar. Bu kitablardan bəziləri elə yüksək dərəcədə şöhrət tapıblar ki, bir kimsə onlara bir şey artırmaq və ya ixtisar etməyə

cürət edə bilməz. Çünki, o kitablara diqqət və maraq göstərən oxucular, onun bütün hissə və fəsilləri, həmçinin əhatə etdiyi mövzuları ilə tanışdırlar. Məsələn, əgər bir şəxs Sibəveyhin «Əl-kitab» adı ilə məşhur olan ərəb qarammatikasının sintaktikasına aid yazılmış kitaba bir şey əlavə etmək istərsə, əlbəttə buna cürət edə bilməz. Çünki, bu kitab o qədər məşhurdur ki, bu elm sahəsində mütəxəssis olan şəxslər onun bütün hissələri ilə tanışdırlar. Hətta ən kiçik bir dəyişiklik belə nəzərə çarparaq məlum olar. Məzni və sair müəlliflərin də əsərlərini beləcə misal çəkmək olar. Lakin, insafı olan bir kimsə bunu çox yaxşı bilir ki, Qurana olan diqqət və maraq adını çəkdiyimiz kitablaradan daha çoxdur. Bu müqddəs kitaba tarixlər boyu minlərcə təfsirlər yazılmış və minlərlə insan onu oxuyaraq əzbərləmişlər. Hələ çap maşınları mövcud olmayan zamanlarda Quran, əlyazma şəklində minlərcə nüsxələr dünyanın müxtəlif nöqtələrində yayılmışdır...»

Yenə Seyyid Mürtəza yazır:

«Quran Peyğəmbərin (s) zamanında indi mövcud olduğu şəkildə yazılmış və toplanıb tərtib edilmişdir. Sübutu da budur ki, Quran o vaxt dərs verilib əzbərlətdirilirdi. Hətta səhabələrdən bəziləri Quranı yaxşı əzbərləmək üçün təyin olmuşdular. Müsəlmanlar müntəzəm olaraq həzrət Peyğəmbərin (s) yanına gəlib Quran tilavət edər və öz qiraət səhvlərini düzəldərdilər. Hətta Əbdüllah ibni Məsud, Übeyy ibni Kəb kimi səhabələrdən bəziləri neçə dəfə Quranı Peyğəmbərin (s) yanında əvvəldən axıra qədər oxumuşdular. Bir az diqqət etdikdə məlum olur ki, bunların hamısı Quranın münəzzəm və kamil olduğuna aşkar sübutdur. Əgər «Həşəviyyə» sünniləri və şiələrin bəziləri bu sözün əksini söyləyirlərsə də, onların sözləri etina ediləcək bir şəkildə deyildir. Çünki, o sözü deyənlər bir dəstə hədis əhlidirlər ki, bəzi hədisləri nəql edib onların doğruluğuna inanırlar. Xülasə, şiələr və onların tədqiqatçı alimlərinin qəti nəzəri budur ki, Quran təhrif edilməmişdir».

Məşhur şiə alimlərindən biri (hicri-qəməri tarixi ilə 381-ci ildə vəfat etmiş) mərhum Şeyx Səduq hansı ki, şiələrin dörd mötəbər kitablarından biri «Mən la yəhzurul-fəqih» və onlarca digər dəyərli kitabların müəllifidir. O, özünün «Etiqadati Səduq» adlı məşhur kitabında belə yazır:

«Bizim etiqad və inamımız budur ki, Allahın Peyğəmbərə (s) nazil etdiyi Quran bu gün müsəlmanların əlində mövcud olan Quranın özüdür; ondan bir kəlmə əskilməmiş və ya artırılmamışdır. Hər kim biz şiələrin adından Quranın bundan qeyri cür olduğunu demiş olsa, yalandan söz düzəltmişdir.»

Şeyx Səduq sözlərinin davamında öz sözlərinə dəlil və sübut gətirməyə başlamışdır. [«Məəl-Xətib fi xututihil ərizə, Şeyx Lutufullah Safi (səh. 42)].

Şeyx Tusi adı ilə məşhur olan (hicri-qəməri tarixi ilə 460-cı ildə vəfat etmiş) mərhum Şeyxut-taifə Əbu Cəfər Məhəmməd ibni Həsən Tusi (şiənin dörd mötəbər kitabından ikisinin müəllifidir) «Təfsirut-tibyan» kitabında öz nəzərini belə bəyan edir:

«Qurandan bir şeyin ixtisar edilməsi və ya ona bir şeyin əlavə edilməsi barəsində danışmağa dəyməz, çünki bu sözləri heç bir müsəlman qəbul etmir. Qurandan bir şeyin azaldılmasını bir dəstə istisna olmaqla, bütün müsəlmanlar rədd edirlər. Bu məzhəbin də rəyi bundan ibarətdir. Seyyid Mürtəzanın da sözlərindən və həmçinin doğru-düzgün hədislərimizdən də bu məsələ aydınlaşır.

Hədislərdə də müxtəlif şəkillərdə, əlimizdəki Quranı oxumaq və ona əməl etmək tövsiyə edilmişdir. Həmçinin imamlar, hədislərin doğru olub-olmamasını bilmək üçün onları Quranla üzləşdirib müvafiq olaraq yoxlamağa əmr etmişdir. Bu məşhur hədisin həzrət Peyğəmbərdən (s) nəql edilməsini bütün müsəlmanlar qəbul edirlər. O həzrət buyurdu:

«(Ey müsəlmanlar!) mən sizin aranızda iki ağır (dəyərli) əmanət qoyub gedirəm. O iki şeydən möhkəm yapışıb ayrılmasanız, heç bir vaxt azmazsınız və doğru yoldan çıxmazsınız: (onların biri) Allahın kitabı (Quran) digəri isə Əhli-beytimdir. Bu iki şey bir-birlərindən ayrılmazlar.»

Bu hədis aydın şəkildə dəlalət edir ki, Qurani-kərim bütün əsrlərdə mövcud olacaq. Əgər belə olmasaydı, Peyğəmbər (s) hədisdə qeyd olunan məsələyə necə əmr edərdi?! Görürük ki, Əhli-beyt (ə) da Quran kimi bütün dövrlərdə mövcuddurlar və müsəlmanların vəzifəsi budur ki, heç vaxt Quran və Əhli-beytdən (ə) ayrılmasınlar. Beləliklə, aramızda olan bu Quranı hər bir müsəlman qəbul edir. Belə olan halda bizim vəzifəmiz onu oxuyub əməl etmək və onun təfsir və mənalarını bəyan etməklə məşğul olmaqdır». [«Təfsirut-tibyan» (1-ci cild, səh. 3, Nəcəf çapı)].

Böyük şiə alimi Şeyx Məhəmməd Cavad Bəlaği «Alaur-rəhman fi təfsiril Quran» kitabında Quranın əbədi kitab olmasına və onun hər cür təhriflərdən uzaq qalmasını gözəl dəlillərlə bəyan etmişdir. O, öz sözlərinin bir hissəsində belə yazır:

«Qurani-kərim tarixlər boyu nəsildən-nəslə keçmiş və bütün müsəlmanlar ona ilahi bir kitab kimi inanmışlar. O, minlərcə nüsxələrə köçürülərək müxtəlif yerlərdə yayılmış və bu iş bu günə qədər davam etməkdədir. Müsəlmanlar gecə-gündüz bu Quranı üzündən oxumuş və qarilərin qiraətinə qulaq asmışlar. Minlərlə Quran hafizi bu müqəddəs kitabı əzbərləmiş və sonradan yazılan və yaxud yüz minlərcə Quranın doğru və nöqsansız olmasına nəzarət etmişlər. Buna görə də, tarixdə ardıcılları tərəfindən eyni səviyyədə qəbul edilməsi, şöhrəti, tanınması və öz orjinallığını əsrlər keçdikdən sonra qoruyub saxlamaq cəhətindən Quranla müqayisə oluna biləcək bir kitab yoxdur. Allah-taala özü də Quranın «Hicr» surəsinin 9-cu ayəsində buna aşkar vəd verərək buyurmuşdur:

***«Həqiqətən biz zikri (Quranı) nazil etdik və şübhəsiz biz onu qoruyub saxlayacağıq.»***

Yenə də «Qiyamət» surəsinin 18-ci ayəsində buyurur:

***«Həqiqətən o (Quranı) toplamaq və (sənə) oxumaq bizim vəzifəmizdir.»***

Beləliklə də, əgər oxucular bəzi nadir və zəif hədislərdə Quranın təhrifi haqqında bir şey görsələr onlara əhəmiyyət verməməli və bilməlidirlər ki, onların məzmunu bir-biri ilə müxalif və rəvayət edənləri isə zəif, həmçinin müsəlmanların ümumi fikirlərinin ziddinə danışan adamlardır».

Mərhum Bəlaği yenə öz təfsirində «Imamiyyə şiəsinin nəzərinə görə Quranda nöqsan yoxdur» başlıqlı yazısında belə demişdir:

Rəvayətləri mötəbər sayılan məşhur şiə hədisçisi Şeyx Səduq Etiqadat» kitabında belə demişdir: ...Biz şiələrin etiqad və inamı budur ki, Allahın Peyğəmbərə (s) nazil etdiyi Quran bu gün müsəlmanların əlində olan Quranın özüdür və bundan başqa bir şey deyildir. Hər kim bizim adımızdan Quranın bundan başqa olmasını desə, bizim dilimizdən yalan danışmışdır.»

Məşhur şiə alimi mərhum Şeyx Mufid «Əlməqalat» kitabının bir fəslində demişdir:

«Imamiyyə şiələrinin çoxu Qurandan nə bir kəlmə nə də ki, bir surənin ixtisar edilməsinə qail deyildirlər. Amma, Əmirəlmöminin Əli ibni Əbi Talibin (ə) müshəfində ayələrin yanında yazılmış olan təfsir və izahlar bu gün əlimizdə olan Quranda yazılmışdır». (Lakin, Quranın əsli əvvəlki kimi mövcuddur.)

«Kaşiful-ğita» kitabında Quran fəslinin 8-ci bəhsində belə yazılmışdır:

«Şübhə yoxdur ki, Quran Allah-taalanın nəzarəti ilə bütün çatışmamazlıqdan qorunmuşdur. Bu fikri Quranın özü açıqca bəyan etmişdir. Bir sözlə alimlərin hamısı bu mətləbdə həmrəydir».

Mərhum Şeyx Bəhaəddin də belə nəql etmişdir:

Qurana bir şeyin artırılıb və ya ondan bəzi şeylərin azaldılması haqqında bəzi adamlar ixtilaf etmişlər. Amma, həqiqi nəzər budur ki, Quran bu kimi şeylərdən məhfuzdur və Qurandakı **«Biz onu qoruyacağıq»** ayəsi buna sübutdur.»

Müqəddəs Bağdadinin «Şərhi-vafiyə» kitabında belə nəql edilmişdir:

«Şiə alimləri arasında ümumi fikir budur ki, Qurandan bir şey azalmamışdır. Hətta, şiə alimlərinin bu fikirdə həmrəy olmaları da nəql edilmişdir».

Müqəddəs Bağdadi sözünün davamında yazır:

«Şeyx Əli ibni Əbdülali Quranın kamil olduğu və ondan heç bir şeyin ixtisar edilməməsi barəsində müstəqil bir kitab yazmışdır. O, kitabda bu sözləri qeyd etdikdən sonra mərhum Şeyx Səduqdan əvvəldə nəql etdiyimiz sözləri və Quranın naqis olmasına dəlalət edən bəzi rəvayətləri nəql edib belə cavab verir: «Əgər bir hədis, Quran və ya mütəvatir (düzlüyündə şübhə olmayan) hədislər və ya alimlərin ümumi şəkildə qəbul etdikləri fikirlə uyğun olmazsa və heç bir şəkildə onları doğru-düzgün təfsir etmək mümkün olmazsa, gərək o hədislər rədd oluna.» [«Alaur-rəhman» (təfsiri, mərhum Bəlaği, təfsirin müqəddiməsindən)].

Müasir alim, böyük mücahid Şeyx Məhəmməd Hüseyn Ali Kaşiful-ğita «Şiəliyin kökü və əsasları» adlı kitabında öz nəzərlərini bu şəkildə izah edir:

«Bu gün müsəlmanların əlində mövcud olan bu Quran Allah-taalanın Peyğəmbərə (s) bir möcüzə və kafirlərə qarşı mübarizə vasitəsi olaraq göndərdiyi kitabın özüdür. Onda nə bir çatışmamazlıq meydana gəlmiş, nə təhrif, nə də əlavələr olmamışdır. Bu məsələdə müsəlmanlar ümumi şəkildə həmrəydirlər...»

Böyük islahçı və şiə alimi mərhum Əllamə Seyyid Əbdul-Hüseyn Şərəfüddin «Əlfüsulul-muhimmə fi təlifil-ümmə» kitabında bu məsələ haqqında öz nəzərlərini belə yazır:

«Quran Müqəddəs kitabdır ki, heç bir tərəfdən ona batil fikirlər yol tapa bilməz və həqiqi Quran

bu gün müsəlmanların əlində olan bu Quranın özüdür. Ona bir şey artırılmamış və heç bir şey də əskildilməmişdir. Həmçinin, bir kəlmə digər bir kəlmə ilə və ya bir hərf başqa hərflə dəyişdirilməmişdir. Hətta, Quranın bütün hərfləri də belə, Peyğəmbərin (s) zamanından bu günə qədər bütün nəsillərə mütəvatir, qəti və dəyişməyən bir şəkildə nəql edilmiş və əldən-ələ, dildən-dilə dolaşmışdır. Quran Peyğəmbərin (s) zamanından bu günə olduğu kimi bir yerə topladılmışdır. Cəbrail (ə)-da onu dəfələrlə həzrət Peyğəmbərə (s) təqdim edib göstərirdi. Buna görə də «Həşəviyyə» kimi bəzi cərəyanların bu mövzudakı düzgün olmayan nəzərlərinin heç bir etibarı yoxdur. Çünki, onlar doğru bir anlayışa malik deyillər».

Yenə, şiələrin böyük şəxsiyyəti, din alimi mərhum Seyyid Möhsün Hüseyni Amili «Əyanuş-şiə» kitabında bu məsələ haqqında bu şəkildə fikir söyləmişdir:

«Şiələrin, istər klassik, istərsə də müasir alimlərindən heç birisi Qurana bir şeyin artırıldığını söyləməmişlər. Və onların hamısı bu fikirdədirlər. Eyni zamanda Qurandan bir şeyin azaldılmaması məsələsində də tədqiqatçı şiə alimlərinin hamısının fikri birdir».

Bəli, Quran budur və Əhli-beytin (ə) məktəbi də bu (əlimizdəki) Qurana Peyğəmbərə (s) nazil olan Quran kimi baxır. Dünyada bəşəriyyət olduğu qədər Quran da olacaq, onların həyatlarında daimi olaraq nur saçıb parlayacaq və insanları hidayət və təkamülə doğru sövq etdirəcəkdir.

Göründüyü kimi alimlər və tədqiqatçılar Quranın təhrifi haqqında söylənən hədisləri, müsəlmanların arasında düşmənlər tərəfindən çirkin niyyətlərlə uydurulmuş yalanlar hesab edirlər. Elm və bilik anlayışlarına malik olan şəxslər onları şiddətlə rədd edirlər. Bir də bəzi hədislər vardır ki, onların üzərində diqqətlə düşünməyən adam belə fikirləşir ki, o hədislər Quranın naqis olduğuna və ya ayrı bir Quranın mövcud olduğuna dəlalət edir. Necə ki, bəziləri belə xəyal etmiş və islam düşmənləri də bundan əks istifadə edib müsəlmanları bir-birinə qarşı qoymuşlar. O da budur ki, imamların bəzilərindən, məsələn imam Sadiq (ə)-dan nəql edilmişdir ki, Imam (ə) öz sinəsinə işarə edərək buyurdu:

«And olsun Allaha, Peyğəmbərin silahı, qılıncı və zirehi biz (imamların) yanındadır. And olsun Allaha Fatimənin «müshəfi» bizim yanımızdadır. O müshəfdə Qurandan heç bir ayə də yoxdur. Onu Peyğəmbər (s) imla etmiş və Əli (ə) da öz əli ilə yazmış... [«Biharul-ənvar» Əllamə Məclisi (4-cü cild, səh. 270)].

Bəziləri xəyal ediblər ki, imam Sadiq (ə) bu sözü deməklə bildirmək istəyib ki, bu Qurandan başqa müshəf (Quran) da vardır və o da imamların yanındadır. Bəzi qərəzli adamlar da bunu bəhanə edib, şiələrin adını ləkələmək istəyirlər. Halbuki, ərəb dilindən bir az xəbəri olan sadə bir adam da bunu anlayır ki, imam Sadiq (ə)-ın «Müshəf» kəlməsini deməkdən məqsədi nə olmuşdur. Bu kəlmənin mənasını başa düşmək üçün lüğət kitablarına müraciət etmək kifayətdir.

Rağib Isfəhani «Müfrədat» kitabında «Səhifə»kəlməsini belə izah edir: «Hər bir açıq və geniş şeyə səhifə deyərlər, çöhrə səhifəsi kimi və həmçinin üzərində bir şey yazılana da səhifə deyilir ki, bunun cəm forması «Səhaif» və «Suhuf» kəlmələridir. Quranda da buyurur:

***«Elə pak səhifələr oxuyur ki, onda dəyərli və sağlam kitablar vardır.»***

Bəzi şəxslər bu «suhuf» (səhifələr) kəlməsinin «Quran» mənasında işlənməsini başa düşürlər. Çünki, Quranda yazılmış səhifələr vardır.

Deməli «Müshəf», daxilində yazılı səhifələr olan şeyə (kitaba) deyilir ki, onun cəm forması «Məsahif» kəlməsidir. [«Möcəmu mufrədati əlfazil-Quran», Rağib Isfəhani, («Müshəf maddəsi).]

Beləliklə, «Müshəf» kəlməsi müasir dildə «kitab» deməkdir və Qurana məxsus bir ad deyildir. Yəni, bir cild içərisində bir miqdar yazılı səhifə olarsa, ona «Müshəf» deyilir. Quran da bir miqdar səhifələrdən toplandığı üçün ona da «Müshəf» deyilmişdir. Allah-taala bu müqəddəs kitaba «Quran», «Zikr», «Fürqan», «Kitab» və sairə adlar vermişdir. Amma Qurana «Müshəf» adını qoymamışdır. Bəlkə, müsəlmanlar Quran toplandıqdan sonra ona «Müshəf» adını vermişlər.

Xülasə, bu yanlış fikrin yaranmasına səbəb budur ki, onlar Müshəfin ədəbi mənası ilə lüğətdəki mənasını qarışdıraraq Imamın (ə) «Müshəf» kələməsindən Quranı nəzərdə tutduğunu zənn etmişlər. Halbuki, Imam (ə) özü anlaşılmamazlıq yaranmasın deyə, o hədisdə «Onda Qurandan bir ayə də belə yoxdur», deyərək bu fikri izah etmişdir. Yəni, Fatimənin (ə) Müshəfi Quran deyildir və onda Qurandan bir şey yoxdur. Ümumiyyətlə o vəhy deyil, Peyğəmbərin (s) imla etdiyi (dediyi) və Əlinin (ə) yazdığı bir kitabdır.

Bəzi alimlər deyiblər ki, «Müshəfe Fatimə» Peyğəmbərin (s) həzrət Zəhraya təlim və tərbiyə məqsədi

ilə öyrətdiyi dua və nəsihətlərdir.

Görürük ki, bəzi müsəlmanlar bu sadə şeyi səhvən və yaxud da qəsdən düzgün olmayan bir şəkildə düşünərək bəyan etmişlər.

Allah hamımızı xəta və günahlardan hifz etsin!

## QURAN ƏHLİ-BEYTİN (Ə) HƏDİSLƏRİNDƏ

Bunu onların həyati yaradıcılıqlarında, rəvayətlərində, tövsiyə və nəsihətlərində, səhabələrinə, tələbələrinə və bütün müsəlmanlara verdikləri təlimatlarında açıqca görmək olar. Imam Cəfər Sadiq (ə) babası həzrət Peyğəmbərdən (s) belə rəvayət etmişdir:

«Ey insanlar! Siz müvəqqəti bir evdəsiniz və elə bir dəvəyə minmisiniz ki, sizi sürətlə aparır. Görürsünüz ki, gecə-gündüz, günəş və ay (öz hərəkət və fırlanmaları ilə) bütün təzə şeyləri köhnəldir və hər bir uzaqlığı yaxınlaşdırırlar. Verilən vədlərin hamısını (bir-bir) gətirib çatdırırlar. Bəs (bu) uzaq səfər üçün tədarük görün».

Rəvayət edən deyir:

O halda Miqdad ibni Əsvəd qalxıb dedi: Ey Allahın Peyğəmbəri (s)! (Buyurduğunuz) bu keçici ev nədir? Peyğəmbər (s) cavabında buyurdu:

Bu (dünyadır) ki, səfər cehizini hazırlayıb, köç etmək evidir. Bəs fitnələr qaranlıq gecə parçaları kimi sizə gölgə saldığı vaxt Qurana üz tutub, ondan yapışın, çünki Quran şəfaəti qəbul olan bir şəfaətçi və şikayəti qəbul olan bir şikayətçidir. Kim onu öz qarşısında (yol göstərən) qərar versə, onu cənnətə aparar və kim onu arxada tutsa, onu cəhənnəmə sövq edər. Quran ən yaxşı bir yola hidayət edən dəlildir. O bir kitabdır ki, onda (həqiqətlər) yazılaraq bəyan edilmişdir. O ciddi və qəti bir kitabdır, əyləncə və zarafat kitabı deyildir. Onun bir zahiri və bir batini vardır. Zahiri hökmdür, batini isə elm, zahiri gözəldir, batini isə dərin. Onun ulduzları vardır. O ulduzların da ulduzları vardır. [Bu ifadədə bir neçə ehtimal verilir: 1) Ola bilər ki, məqsəd Quranın ayələridir ki, bəzisi bəzilərini izah edir. 2) Ola bilər ki, məqsəd Quranın ayələri və hədisləridir ki, Quranı izah edir. 3) Ola bilər ki, məqsəd Quran və imamlardır ki, Quranın təfsirçiləri və həqiqi yozucularıdırlar.]

O Quranın təəccüb doğuran işləri saysız-hesabsız və qəribəlikləri isə köhnəlməzdir. O Quranda hidayət çıraqları və hikmət məşəlləri vardır. Quran, onun sifətlərini tanıyan adamlar üçün mərifət yoludur. Demək (hər bir inamlı şəxs) onun xüsusiyyət və keyfiyyətlərini bilmək gərəkdir ki, bununla həlak olmaqdan nicat tapa və bəlalardan qurtara. Şübhəsiz, düşünmək bəsirətli qəlbin həyatıdır, necə ki, qaranlıqda olan adam nur ilə yol gedər...». [«Üsuli-kafi» (2-ci cild, səh. 598) Kitabu fəzil-Quran.]

Imam Sadiqdən (ə) belə nəql edilmişdir:

«Quranı əzbərləyib ona əməl edən şəxs, Allahın yaxın mələkləri ilə məşhur olar.» [«Üsuli kafi» (2-ci cild, səh. 603)].

Imam Zeynəl-abidin (ə) Peyğəmbərdən (s) belə nəql etmişdir:

«Əgər Allah bir adama Quran nemətini (Quran öyrənməyi və ona əməl etməyi) versə və o adam başqa bir adama daha yaxşı bir şey verildiyini güman etsə, onda o şəxs böyük bir şeyi kiçik və kiçik bir şeyi böyük hesab etmiş olar.[«Üsuli kafi» (2-ci cild, səh. 605)].

Imam Baqir (ə) Peyğəmbərdən (s) belə nəql etmişdir: «Ey Quran oxuyanlar! Allahın sizlər üçün verdiyi bu Quran (nemət) üçün Allahdan qorxun. (Qiyamət günündə) mən və siz sorğuya tutulacağıq. Məni risalətimin təbliği haqqında və sizi isə öyrəndiyiniz Quran və mənim sünnəm (dediklərim və elədiklərim) haqqında sorğuya tutacaqlar.» [«Üsuli kafi» (2-ci cild, səh. 606)].

Imam Sadiqdən (ə) nəql edilmişdir:

«Mömin adama layiq olan iş budur ki, ölümündən qabaq Quranı öyrənsin və ya onu öyrənmək halında olsun.» [«Üsuli-kafi» (2-ci cild, səh. 607)].

Yenə imam Sadiqdən (ə) belə rəvayət edilmişdir:

«Quran Allahın məxluqatı ilə olan əhdi-peymanıdır. Şübhəsiz, hər bir müsəlmana layiq olan iş budur ki, Allahın əhdinə baxsın və hər gün ondan əlli ayə oxusun.» [«Üsuli-kafi» (2-ci cild, səh.609)].

Aşağıdakı rəvayətlər də imam Sadiqdən (ə) nəql edilmişdir:

«Üç şey Allah-taalaya şikayət edər: 1. Xarab olan məscid ki, onun əhli onda namaz qılmayalar. 2.

Cahillər içərisində qalan alim. 3. Divara asılıb, üstünə toz qonan və oxunulmayan Quran.» [«Üsuli-kafi» (2-ci cild, səh.613)].

«Şübhəsiz, Quran ölməz və diridir. O Quran gecə-gündüz və günəş-ay cərəyan edən kimi cərəyan edər. Bizim əvvəlimiz (Quran ilə) birlikdə olduğu kimi, axırımız da onunla bərabər olar.»

Həzrət Əmirəl-möminin Əli ibni Əbi Talibdən (ə) belə rəvayət edilmişdir:

«Sonra ona (Məhmmədə (s)) kitab nazil etdi! Kitab (Quran) işıqları sönməyən bir nurdur. Alovları azalmayan bir çıraqdır. Elə bir yol ki, işığı zülmətə dönməz. Dəlil və bürhanı rədd edilməyən bir fürqandır (haqqı batildən ayıran). Sütunları yıxılmayan bir bina, xəstəliklərdən çəkinməyən bir şəfadır. Köməkləri məğlub edilməz, izzət vasitəsi və tərəfdarları tək qalmayan bir həqiqətdir. O, (Quran) imanın mədəni və mərkəzi, elmin və biliyin qaynaqları və dənizləridir. Ədalətin bağları və çeşmələri, islamın əsas damları və binasıdır. Həqiqət və ədalətin vadiləri və düzənlikləri və su götürənlərin suyunu tükəndirə bilməyən bir dəryadır. Su götürmək onun azalmasına səbəb olmayan bir qaynaqdır, gələnlərə nə qədər su verilərsə, yenə də qurtarmaq bilməyən bir yerdir. Yolçuların yolu itirmədikləri mənzillər, yol gedənlərin gözündən yayınmayan nişanələrdir. Elə yüksəklikləri vardır ki, hər istəyən o ucalıqlardan keçə bilməz.

Allah onu (Quranı) alimlərin susuzluğunu aradan aparmaq vasitəsi, fəqihlərin qəlblərinin baharı və saleh insnlara yol göstərmə vasitəsi qərar vermişdir. Elə bir dərmandır ki, ondan sonra dərd olmaz və elə bir nurdur ki, yapışılacaq halqası möhkəm və elə bir sığınacaqdır ki, ona bir şey nüfuz edə bilməz. Ona dost olana izzət və ona daxil olan kimsəyə təhlükəsizlik vasitəsidir. Ona inananlara yol göstərən və ona mənsub olanlara üzr vasitəsi olar. Onunla danışanın dəlil və bürhanı və onunla (düşmənə qarşı) vuruşanın şahididir. Onunla sübut gətirənə qələbə qazandırır və ona əməl edənləri qoruyar. Onu icra edəni özü ilə daşıyar. Kim onu özünə nişanə etsə, onu hidayət edər və onu vücuduna alanın olar. Quran başa düşənlərə və dərk edənlərə elm və bilikdir. Ondan rəvayət edənə hədis, söz və onunla mühakimə edənə hökmdür.» [«Nəhcül-bəlağə», (198-ci xütbə)].

Bəli, budur Quranın Əhli-beyt (ə) məktəbində qiymət və dəyəri, Quranın əhəmiyyəti və onun həyati rolu. Biz bu əhəmiyyət və həyati rolu Quranın bir cümləsində öz əksini tapdığını görürük:

***«Həqiqətən bu Quran ən sağlam və ən doğru yola hidayət edir.»*** *(Əsra surəsi, 9-cu ayə).*

Quran ümmətin əsas qanunu, elm və hidayət qaynağı, mərifət və mədəniyyət meyarıdır. Yalnız, düşüncə və anlayış vasitəsi olan Quranla insan həyatının nizama salınması üçün elmi bir qanun hazırlamaq olar.

## *QURANI ANLAMAQ VƏ ONU TƏFSİR ETMƏK ÜÇÜN ƏSASLI QAYDALAR*

Biz əvvəldə qeyd etmişdik ki, Quran Əhli-beyt (ə) nöqteyi-nəzrindən əbədi bir kitab hesab olunur və ona təhrif əli yetişə bilməz və Quran ilahi qanunların qaynağı olaraq əbədi yaşyacaqdır. Quran şəriət hökmlərinin kökü və mənbəyidir. Hətta, hədislərin və doğru və ya səhv olduğunu və ümumiyyətlə hər bir şeyin doğruluğunu Quranla müəyyənləşdirmək lazımdır. Bu mövzuda həzrət Peyğəmbərdən (s) belə rəvayət edilmişdir.

«Məndən (Peyğəmbər) sizə bir hədis gəlib çatsa, siz onu Allahın kitabı ilə yoxlayın, Quranla müvafiq olanı qəbul edin və müxalif olanı vurun divara (rədd edin).» [Təbəri, «Məcməül-bəyan» təfsirinin müqəddiməsindən (1-ci cild, səh.13)].

Bütün bunlardan sonra, bu nəticəyə yetişirik ki, bu əsas və islami üslub müsəlmanlara, o cümlədən elm və mərifət əhlinə Quranı necə anlayacaqlarını aşkar və müəyyən edir, Quranın ayələri ilə necə davranacaqlarını onlara göstərir.

Quranı başa düşmək və onu təfsir, təvil etmək çox mühüm bir məsələdir. Çünki, düşüncə sağlamlığı, islami inamın və əqidənin doğruluğu ona bağlıdır. Ona görə də Quranı başa düşən, şəriət və əqidə qaynaqlarını ələ gətirmək, ictimai, siyasi, iqtisadi, tərbiyəvi, hüquqi və sairə qanunları Qurandan və şəriət mənbələrindən çıxarmaqda hər hansı əyinti və qüsurun üz verməsi, müsəlmanların səhv etmələrinə və yoldan çıxmalarına və nəhayət onların parçalanıb ayrılmaqlarına, islami dəyərlərin və paklıqların aradan getməsinə səbəb olar.

Bu mühüm və əsaslı mətləbin önündə hər şeydən əvvəl «təfsir» və «təvil» arasındakı fərqi izah etmək lazımdır. Lüğət yazanlar «təfsir» sözünün tərifini belə izah etmişlər: «Təfsir» - sözün mənasını kəşf edib, onu aşkar etməkdir.

«Təvil» kəlməsinin mənası isə belə izah edilmişdir: «Təvil» - sözün iki ehtimaldan birisinin layiqli bilinməsidir. Quranın zahiri ilə müvafiq olmaq şərtiylə.

Əhməd Riza, təfsiri belə izah edir: «Təfsir» «fəssərə» felindən alınmışdır və mənası da «meydana çıxmaq» və ya «aşkar olmaq»dır. Əslində isə bu söz, aşkarlıq mənasında olan «səfr» sözündən alınmışdır. Məsələn, ərəb dilində sübh vaxtı aşkar olan zamana və yaxud qadın üzünü aşkar edəndə ona «səfr» deyərlər.

Mərhum şeyx Təbərsi də məşhur «Məcməül-bəyan» təfsirində «təfsir» və «təvil» kəlmələrini belə izah edir: «Təfsir» sözü çətin bir kəlmənin məqsədini izah etməkdir. «Təvil» də iki ehtimaldan birini kəlamın zahiri ilə müvafiq olmaq şərtilə təsdiq etməkdir. Ayrı ifadə ilə təfsir, bəyan etmək mənasındadır.» [«Məcməül-bəyan» (1-ci cild, səh.1)]

Əbül-Əbbas Mübərrəd belə deyir: «Təfsir» və «təvil» sözlərinin mənası birdir. Bəziləri deyiblər ki, «təfsir» bir şeyin üstündə örtüyün götürülməsi və «təvil», məqsədə nail olmağa və bir şeyin sona çatmasına deyərlər.

## *QURANI TƏFSİR ETMƏ QAYDASI*

Quranın təfsiri, onun kəlmə və cümlələrinin mənalarını bəyan və həqiqətləri aşkar etməkdən ibarət olduğunu və həmçinin Quran ayələrindən neçə-neçə mənaların ehtimal verildiyini nəzərə almaq, «təvil» isə bu ehtimalların hansının məqsədə uyğun olduğunu bəyan etməkdir. Yəni «təvil» bir ayənin batini mənasını (bir neçə məna ehtimalı olarsa) ayənin zahirinə münasib olan bir məna ilə əlaqələndirməkdir. Buradan belə aydın olur ki, ayə elə izah olunmalıdır ki, təvili ayənin zahiri təfsiri ilə zidd olmasın. Yəni, təvil ilə təfsir nəticə etibarı ilə eyni olsun. O da Quranın batini, gizli mənasını aşkar etmək və Allahın öz bəndələrinə yetirmək istədiyi məqsədi bəyan etməkdir. Təfsir kitabalarını və təfsirçilərin nəzərlərini tədqiq edərkən görürük ki, bəzi təfsirçilər özlərini necə də dərin quyuya salmış və təfsirdə tutduqları xüsusi metodun nəticəsindən əsil məqsəddən və ayələrlə münasib və layiqli rəftarlardan uzaq düşmüşlər. Bəzisi də şəxsi fikirlərindən istifadə edərək, Quranı öz fikir və əqidələrinə müvafiq təfsir etmiş və ayələri nəzərdə tutulmayan hadisələrə və şəxslərə aid etmişlər. Üstəlik bunun adını təvil də qoymuşlar.

Məsələn, «Fəlsəfə» və «Kəlam» alimlərindən bəziləri Quran ayələrini yeri gəldi-gəlmədi öz fəlsəfi və kəlami nəzərlərinə uyğun bir şəkildə təvil etmişlər.

Yenə görürük ki, bəzi yazıçılar və təfsirçilər Quranın ayələrini həqiqi və münasib olmadığı halda zorla olsa da, o əsrin məşhur elmi, iqtisadi, ictimai və siyasi hadisələri ilə əlaqələndirmək istəmişlər. Habelə, Quranı öz ürəkləri istəyən kimi təfsir etmişlər. Bu xətalara bir çox təfsirçilər (istər şiə olsun, istərsə də sünni) düçar olmuşlar. Sonra da öz səhv nəzərlərini müdafiə etmək üçün bir sıra dəlil və qondarma vasitələrdən istifadə etmişlər.

Amma, biz təfsirdəki əsas və ali metoda nəzər saldıqda görürük ki, bu metod o təfsir üsullarını necə rədd edir və Quran təfsiri üçün doğru və sağlam bir əsas hazırlayır.

Peyğəmbərin (s) və Əhli-beytin (ə) hədislərindən və onların yolunu səmimiyyətlə gedən təfsirçilərin üslubundan başa düşüldüyü kimi, Quran təfsirinin bir sıra özünəməxsus qayda və rəsmiyyətləri vardır ki, məhz onlara riayət etməklə müfəssirlər Quranı doğru-düzgün təfsir edər və nəzərdə tutulan nəticəyə yetişə bilərlər. Bununla da təfsir elmi öz mühüm rolunu insanlıq dünyasında ən yaxşı şəkildə ifa edər və müfəssirlər xəta və əyintilərdən, şəxsi fikirlərlə təfsir etmək və daxili ehtiraslara tabe olmaqdan xilas olarlar.

Biz burada hədislərdən və bu yolu doğru bir şəkildə gedən alimlərin sözlərindən istifadə edərək, bu qayda və düzgün təfsir üslubunu qısa şəkildə bəyan etməyə çalışacağıq...

Mərhum Təbərsi «Məcməül-bəyan» təfsirində yazır: «Səhih sənədlə Əhli-beyt (ə) Peyğəmbərdən (s) belə rəvayət etmişlər:

«Quranı ancaq doğru əsər (hədis) və aşkar nəss (ayələr) ilə təfsir etmək cayizdir.» [«Məcməül-bəyan» (1-ci cild, səh.13)].

Əhli-beyt (ə) həmin üslub üzrə hərəkət etmiş və bu iki əsasdan uzaq olan Quran təfsirlərini qəbul etməmişlər:

1. Quranı Quran ilə təfsir etmək (yəni, Quranın bir ayəsini digər ayəsi ilə təfsir etmək.)

2. Quranı doğru-düzgün hədislərlə təfsir etmək.

Bəli, həqiqi Quran təfsirçisi bu iki əsasa kamil şəkildə bağlı olmalıdır. Əlbəttə buna da diqqət yetirmək lazımdır ki, ağılın da Quranın məqsədlərini dərk etməkdə və mənalarını aşkar etməkdə böyük əhəmiyyəti vardır. Amma bu şərtlə ki, Quran və sünnənin hüdudlarından və onların ümumi qaydalarından kənara çıxmasın. [Peyğəmbər və imamların hədisərinə, davranışına sünnə deyilir.]

Həzrət Peyğəmbər (s) özü də Quranı təfsir etməkdə ağıldan istifadə etməyə əhəmiyyət vermiş və bu işə təşviq etmişdir. Məsələn, bir hədisdə buyurur:

«Quran aramdır və onda müxtəlif ehtimallar vardır. (Ağlınızı işə salıb), onu ən yaxşı ehtimallara aid edin.» [«Məcməül-bəyan» (1-ci cild, səh.13)].

Yenə o Həzrətdən (s) nəql edilmişdir:

«Quranı bəyan edin və əsrarəngiz mətləblərinə yiyələnməyə çalışın.» [«Məcməül-bəyan» (1-ci cild, səh.13)].

Qurani-kərim də ağlın təfsirdəki rolunu aydınlaşdırmış və Quranı analiz edərək, ondan istifadə edən ağıl sahiblərini tərifləmişdir:

«O Quranı (yalnız) o şəxslər tanıyırlar ki, onda istinbat (tədqiqat və araşdırma) etmiş olsunlar.»

Digər yerdə də Quranın ayələri haqqında düşünməyən və ağıllarını kütləşdirib, təfəkkür etməyən adamları məzəmmət etmişdir:

«Quranda fikirləşməzlərmi? Yoxsa, qəlblərə qıfıl vurulmuşdurmu?» [«Məhəmməd» surəsi, 24-cü ayə.]

Bəs məlum oldu ki, Əhli-beyt (ə) məktəbində təfsir üç şeyə əsaslanır.

1. Quranı Quranla təfsir etmək;

2. Quranı sünnə məsumların davranışı və doğru hədisləri ilə təfsir etmək;

3. Quranı Quran və sünnəyə bağlı olan ağıl ilə təfsir etmək.

Həmçinin məlum oldu ki, təfsirin özünəməxsus qayda-qanunları vardır. Ona görə də Əhli-beyt (ə) məktəbində müfəssirin öz şəxsi fikirlərinə əsaslanan və ya dövrün bəzi elmi nəzəriyyələrini, fəlsəfi və kəlami əqidələrini Quranla uzlaşdıran və yaxud zəif, uydurma, sənədsiz, Quranın mətni ilə müxalif olan və qəti, doğru hədislərlə zidd olan təfsirlər və onlara tabe olan alim və müfəssirlər qəbul edilməmişdir. Tədqiqat aparanlar, bu düzgün təfsir üslubuna əsaslanmayıb, Quranın ruhundan uzaq olan, şəxsi düşüncə və nəzəriyyələrdən qidalanan təfsirləri (həm şiə həm də sünnilər arasında) görə bilərlər. Bu cəhətdən də bu kimi təfsirlərə heç bir əhəmiyyət verməmək və şəxsi fikirlərə əsaslanan təfsirlərdən başqa təfsirləri qəbul etmək lazımdır. Çünki, kimliyindən aslı olmayaraq təfsirçi Qurana yox, əksinə Quran müfəssirə əsasdır. Öz növbəsində, əgər müfəssirin sözü etibarlı mənbələrə əsaslanmasa, onun sözü müsəlmanlar üçün heç bir zaman əsas ola bilməz. Məsum və pak Imamlar da (ə) qəti məlumat və dəlil olmadığı halda nəzər verməyi qadağan etmişlər:

Bildiyiniz şeyi deyin, amma bilmədiyiniz şeyin haqqında «Allah daha yaxşı bilir» söyləyin. Ola bilər ki, insan Qurandan bir ayəni götürüb (təfsir etmək istəyə), lakin, (onun təfsirində) elə bir xəta uçrumuna yuvarlana ki, onun həqiqi mənası ilə təfsir ediliyi mənası arasında yerlə göy arası qədər fasilə ola! [«Üsuli-kafi», Kuleyni (1-ci cild, səh.42)].

Imam Sadiqdən (ə) rəvayət edilmişdir:

«Hər bir şeyi Quran və sünnə ilə ölçmək lazımdır.» [«Üsuli-kafi», Kuleyni (1-ci cild, səh.69)].

## *ƏHLİ-BEYT (Ə) MƏKTƏBİ NÖQTEYİ-NƏZƏRİNDƏN PEYĞƏMBƏRİN (S) SÜNNƏSİ*

«Allah o bəndəni xoşhal edib nurlandırsın ki, mənim sözümü eşidib yadda saxlayır və onu başa düşərək eşitdiyi kimi başqalarına çatdırır. Çünki, çox fiqh (şəriət elmi daşıyan və başqalarına çatdıran olar ki, özü fəqih (müctehid) olmaz və çox fiqh elmi daşıyan olar ki, tərəf-müqabili onun özündən daha yüksək fəqih və bilikli olar.» [«Əd-dirayə», Şəhid Sani (səh.113)].

Müsəlmanların islam hökmlərini və qanunlarını tədqiq edərək (Qurandan sonra), istifadə etdikləri ikinci mənbə Peyğəmbərin (s) sünnəsidir. Sünnə Quranı təfsir edib aydınlaşdırır və onun fikri, tərbiyəvi və hüquqi məzmununu əsas qayda-qanunlar şəklində bəyan edir. Quran çox böyük, dərin və əbədi bir fikrə, hüquqi zənginlik və sərvətə malikdir, bu zənginlikləri kəşf edərək bəyan edən sünnədir. Sünnənin

Qurandan kəşf etdiyi mənaları heç bir adi ağıl dərk edə bilməz. Çünki, ilahi vəhyin bilavasitə tərəf-müqabili Peyğəmbərin (s) özüdür. Buna görə də Quranın məzmunu, hökmləri, mənaları, hədəf və məqsədlərinin tam mənasını kamil və doğru-düzgün şəkildə Peyğəmbərin (s) özü dərk edə bilər. Bu cəhətdən də sünnə Quranın bəyanı üçün ən münasib bir vasitədir. Bu mənbə Qurandan ilham aldığı üçün Quran kimi dərin və tükənməz, eyni zamanda əbədi bir çeşmə qaynağıdır. Sünnə Qurandan sonra insanın fərdi və ictimai həyatında yaşayış qanunlarını, onun xoşbəxtlik və səadətini aydınlaşdıran ən mötəbər meyardır. Allah-taala Quranda buyurur:

***«...Peyğəmbərin sizə verdiyi, (bəyan etdiyi) şeyləri alın (əməl edin) və onun qadağan etdiyi şeylərdən çəkinin...» (Həşər surəsi, 7-ci ayə.)***

Yenə buyurur:

***«Artıq siz (müsəlmanlar) üçün, axirət gününə ümidləri olanlar üçün Allah Peyğəmbərinin (həyat və davranışında) yaxşı bir örnək və meyar vardır...»*** *(Əhzab surəsi, 21-ayə.)*

Başqa bir ayədə buyurur:

***«...Əgər bir şeydə ixtilafa düşsəniz, onun həllində Allah və onun Peyğəmbərinə müraciət edin.»*** *(Nisa surəsi, 59-cu ayə.)*

Əhli-beyt (ə) və onlara tabe olanlar daima bu yolda və bu ilahi əmrlərdə, təfsirdə, hədislərdə, hüquqi məsələlərdə, əqidəvi mövzularda və ümumiyyətlə hər bir şeydə Peyğəmbərin (s) sünnəsinə əsaslanıb, onu qoruyub, Quranla birlikdə onun da icra edilməsi yolunda çoxlu mübarizələr etmiş və müxtəlif əziyyətlər, zindanlar, sürgünlər və hətta şəhid olmağa belə razı olmuşlar.

Lakin təəssüflə qeyd etmək lazımdır ki, Peyğəmbərin (s) pak sünnəsi də yalançı, hiyləgər, dünyapərəst və müsəlman geyimində peyda olan din düşmənləri tərəfindən müxtəlif təhrif, yalan və əyintilərə məruz qalmışdır. Bunun vasitəsi ilə də fırıldaqçı adamlar bu ilahi risalətin parlaq simasını ləkələndirib, ümməti ictimai həyatından və gedəcəyi doğru yoldan azdırmaq istəmişlər.

Peyğəmbərin (s) pak sünnəsini müdafiə cəbhəsinin önündə dayanan və onun həqiqi məzmununu aydınlaşdıran Əhli-beyt (ə), həmişə əyinti və azğınlıqlarla mübarizə aparmış və ümməti Quran və sünnəyə inanmağa və ondan ayrılmamağa dəvət etmiş, sünnənin doğru və ya səhv olmasını yoxlamaq üçün Qurana müraciət etmələrini tövsiyə etmişlər. Çünki, Quran bütün təhrif və hiylələrdən məhfuz qalmışdır. Şükürlər olsun Allaha ki, bu gün əlimizdə olan Quran, həmən Cəbrailin (ə) Peyğəmbərə (s) nazil etdiyi Quranın özüdür:

***«Həqiqətən Biz o zikri (Quranı) nazil etdik və şübhəsiz, Biz onu qoruyacağıq.»*** *(Hicr surəsi, 9-cu ayə.)*

Onun üçün də görürük ki, Əmirəl-möminin (ə) buyurur:

«Ey insanlar! Fitnələrin başlanğıcı, daxili ehtiraslara tabe olmaq və Allahın kitabı ilə müxalif olan bidət (yalan yerə çıxarılan) hökmlərdən ibarətdir ki, bununla da bəzi insanlar bəziləri ilə dost olarlar. Əgər batil müəyyən olsaydı və özünün həqiqi simasında görünsəydi, heç bir şey ağıl sahiblərinə gizli qalmazdı və əgər həqiqət müəyyən olub həqiqi simasında görünsəydi, daha heç bir ixtilaf çıxmazdı. Amma, (təəssüflər olsun ki) bir qədər batildən götürülür, bir qədər də həqiqətdən və bu iki şey bir-birinə qarışdırılıb birlikdə verilir. Elə o zaman Şeytan öz dostlarına hakim olar. (Yalnız) o şəxslər xilas olarlar ki, Allah tərəfindən onlar üçün elədikləri əməllərin müqabilində yaxşı bir aqibət təqdir edilmiş olsun.» [«Üsuli-kafi», Kuleyni (1-ci cild, səh.54)].

Imam Sadiqin (ə) səhabələrindən olan Əbu-Bəsir deyir ki, mən o həzrətə dedim:

«Bizim qarşımıza bəzi məsələ və mövzu çıxır ki biz onun hökmünü və cavabını Quranda tapa bilmirik, həmçinin onun izahında və o mövzuda sünnə əlimizdə yoxdur. Belə bir şəraitdə öz nəzəriyyəmizə görə əməl edə bilərikmi? Imam Sadiq (ə) cavabında buyurdu:

«Xeyr, əməl edə bilməzsiniz. Çünki, bu şəraitdə əgər (sənin nəzəriyyən) həqiqətlə müvafiq olsa, heç bir savabın olmaz və əgər səhv olsa, onda böyük və əzəmətli Allahın adından yalan danışmış olarsan.»

Imam bu sözünün davamında Peyğəmbərdən (s) bu hədisi nəql etdi:

«Hər bir bidət azğınlıq və zəlalətdir, hər azğınlıq (əhli) cəhənnəmə daxil olacaq.» [«Üsuli-kafi», Kuleyni (1-ci cild, səh.56)].

Imam Sadiqin (ə) Əbdüllah ibni Yəfur adlı səhabəsi deyir:

«Mən imam Sadiqdən (ə) soruşdum ki, bəzən etimad etdiyimiz, bəzən də mötəbər bildiyimiz ravilər

bizə hədis rəvayət edirlər. Bu vəziyyətdə bizim vəzifəmiz nədir? O həzrət buyurdu:

«Əgər sizin əlinizə bir hədis gəlib çatsa və (onun təsdiq barəsində) Qurandan və Peyğəmbərin kəlamlarından bir şahid tapsanız, (onu qəbul edin və ona əməl edin), əks təqdirdə (onu rədd edin və qəbul etməyin ki, bu surətdə) o, nəql edənin özünə layiqdir.» [«Üsuli-kafi», Kuleyni (1-ci cild, səh.69)].

Əbu-Əyyub Hurr adlı bir ravi də imam Sadiqdən (ə) belə eşitdiyini rəvayət edir:

«Hər bir şey Allahın kitabı və Peyğəmbərin sünnəsi ilə üzləşdirilib yoxlanılmalıdır. Bəs Allahın kitabı ilə müvafiq olmayan hər bir hədis yalan və uydurmadır.» [«Üsuli-kafi», Kuleyni (2-ci cild, səh 69)].

Əyyub ibni Raşid imam Sadiqdən (ə) rəvayət etmişdir:

«Quranla uyğun olmayan hədis yalandır.»

Imam Sadiq (ə) həzrət Peyğəmbərdən (s) belə rəvayət etmişdir:

«Hər kim ümmətin ixtilafında mənim sünnəmə əsaslanıb ona tabe olsa, (qiyamət günü) yüz şəhidin savabını alar.» [«Müşkatul-ənvar», Təbərsi («Əlxəzu bissünnə» fəsli)].

Bir nəfər Əmirəl-möminin Əlinin (ə) yanına gəlib dedi:

«Sünnəni, bidəti, camaatı və ixtilafı mənə aydınlaşdır.» Həzrət o şəxsin cavabında buyurdu:

«Peyğəmbərin etdikləri «sünnə», ondan sonra meydana gələn şeylər «bidət»dir. «Camaat» (ittifaq) haqq əhlinin (nəzər) birliyidir, hətta onların sayı az olsa da, «ixtilaf»da batil əhlinin nəzəridir, hətta onların sayı çox olsa da.» [«Müşkatul-ənvar», Təbərsi («Əlxəzu bissünnə» fəsli)].

Yenə də Əlidən (ə) belə nəql edilmişdir:

«Sünnə iki hissədir, birisi vacibdir və ona əməl etmək hidayət, tərk etmək isə zəlalət və azğınlıqdır. Ikincisi isə vacib olmayan sünnədir ki, ona əməl etmək fəzilət və üstünlük, onu tərk etmək, xəta və günah deyildir.» [«Müşkatul-ənvar», Təbərsi («Əlxəzu bissünnə» fəsli)]

Imam Baqirin (ə) bu şəkildə buyurduğu rəvayət edilmişdir:

«Hər kim (Peyğəmbərin) sünnəsindən irəli keçərsə, geri qaytarılmalıdır.» [«Müşkatul-ənvar», Təbərsi («Əlxəzu bissünnə» fəsli)].

Yenə imam Baqirdən (ə) rəvayət edilir:

«Sünnədə qiyas qaydası doğru deyildir. Necə doğru ola bilər, halbuki, heyz halında olan qadın yediyi orucun qəzasını tutmalıdır, amma (qılmadığı) namazın qəzasını qılmaq lazım deyildir. (Bir halda ki, qiyas qaydasına əsasən namaz orucdan üstündür və orucun qəzası vacib olan yerdə namazın da qəzası mütləq vacib olmalı idi.» [«Müşkatul-ənvar», Təbərsi («Əlxəzu bissünnə» fəsli)].

Imam Sadiq (ə) həzrət Əlidən (ə) belə rəvayət etmişdir:

«Hər haqqın bir həqiqəti və hər doğrunun bir nuru vardır. Bəs Allahın kitabı ilə uyğun olan şeyi götürün (əməl edin) və Peyğəmbərin (s) sünnəsi ilə zidd olan şeyi tərk edin...»

Yenə imam Sadiq (ə) buyurmuşdur:

«Allah, Peyğəmbərdən hədis nəql edib yalan deməyən və ya hansı bir vasitə ilə xalqı yalandan qoruyan adamlara rəhmət eyləsin. [«Müşkatul-ənvar», Təbərsi («Əlxəzu bissünnə» fəsli)].

Həzrət Əmirəl-möminin (ə) Peyğəmbərdən (s) belə rəvayət edir:

«Əgər sizin əlinizə mənaları bir-birinə əks olan hədislər çatarsa və o hədislərin bəziləri bəzilərini inkar edərsə, onda onlar mənim sözüm deyildir, hətta «Peyğəmbər söyləyib» desələr də. Əgər sizə bəzi hədislər nəql edilərsə və onlar bir-birlərini təsdiq edərsə, onda onlar mənim sözlərimdir. Hər kim məni vəfatımdan sonra görsə, elə bil ki, məni diri olarkən görmüşdür və hər kim məni ziyarət etsə, qiyamət günü onun şahidi olaram və onun xeyir işlərinə şəhadət verərəm.» [«Müşkatul-ənvar», Təbərsi («Əlxəzu bissünnə» fəsli)].

Imam Məhəmməd Baqir (ə) səhabəsi Məhəmməd ibni Müslimə belə buyurdu:

«Ey Məhəmməd! Əgər sənə istər yaxşı, istərsə də pis ravi tərəfindən bir rəvayət gəlib çatsa və Quranla uyğun olsa, onu qəbul et və o ravilər tərəfindən sənə bir rəvayət gəlib çatsa və Quranla uyğun olmasa, onu qəbul etmə.» [«Müşkatul-ənvar», Təbərsi («Əlxəzu bissünnə» fəsli)].

Biz bütün bunlardan bu qənaətə gəlirik ki, siz əziz oxucular üçün Əhli-beyt (ə) nöqteyi-nəzərindən Peyğəmbər (s) sünnəsinin reallığı, bu sünnə ilə münasibət tərzi, eyni zamanda bu sünnənin Quranla bağlılığı, həmçinin onun islam qanunlarını hazırlamaqda və islam xalqları üçün ictimai quruluşun

yaranmasındakı rolu müəyyənləşmişdir.

Bu qayda-qanunlardan aşağıdakı nəticələr hasil olur:

1. Peyğəmbərin (s) adından danışılan bütün söz və əməllər Quranla yoxlanılmalı və bunun vasitəsi ilə onun düzgünlüyü müəyyənləşməlidir. Beləliklə, Quranla uyğun olanlar Peyğəmbərin (s) sünnəsi, zidd olanlar isə o Həzrətin (s) adından söylənmiş yalan və iftiralardır;

2. Islamda qanun və şəriət mənbəyi Quran və sünnədir. Onlar hökmlərin və ictimai quruluşun meyarıdır. Buna görə də fiqhi hökmlər (hüquqi və əxlaq normaları), eyni zamanda bütün ideologiyalar Quran və sünnə ilə uyğun olarsa həqiqət, əks təqdirdə bidət və batil hesab olunmalıdır;

3. Sünnənin bir hissəsinin qəti şəkildə Peyğəmbər (s) tərəfindən olması, o cümlədən onların Quranla uyğun olması dəqiqləşdirilmişdir. Ona görə də digər hədis və rəvayətlərin düzgünlüyünü müəyyənləşdirmək üçün o hədislərdən və qəti sünnələrdən istifadə etmək olar.

## *PEYĞƏMBƏRİN (S) SÜNNƏSİNİN NÖVLƏRİ*

Islam alimləri Peyğəmbərin (s) sünnəsini üç yerə bölmüşlər:

1. Peyğəmbərin (s) sözləri: Bu hissə Peyğəmbərin (s) bütün hədisləri, xütbələri, vəsiyyət və namələrinə aiddir;

2. Peyğəmbərin (s) əməlləri: Bu hissə Peyğəmbərin (s) xalqa münasibət tərzi, ibadətləri, baş verən hadisələr və davranışlarından ibarətdir. Bu hissədə meyar Peyğəmbərin (s) iş üslubu və əməl keyfiyyətləridir. Yəni, Peyğəmbərin (s) gördüyü hər bir iş dəlalət edir ki, işin icrasına icazə verilir. Çünki aydın məsələdir ki, Peyğəmbər (s) heç bir zaman nalayiq və haram iş görməzdi. Peyğəmbərin (s) hərəkət və əməllərini iki hissəyə bölmək olar:

a) Vacib əməllər: Peyğəmbər (s) icra etdiyi bəzi əməllərin (namaz, oruc, həcc, xalq arasında ədalətli olmaq və s.) vacib olduğunu göstərir və müsəlmanların onların hamısını icra etməyin vacibliyini bildirir;

b) Cayiz və mubah əməllər: Peyğəmbərin (s) bəzi işləri vardır ki, onlar o işlərin vacib olmasına yox, sadəcə olaraq o işlərin icrasına icazə verdiyinə dəlalət edir.

Vacibi müstəhəbbdən, cayizdən, məkruhdan ayıra bilmək üçün Peyğəmbərin (s) sünnəsini də izah etməyə ehtiyac vardır. Bu cəhətdən də mütəxəssis alimlər müxtəlif sübutlar, əlamətlər, üsul və fiqh elmində olan qaydalar üzrə bunları müəyyən edib aydınlaşdırırlar.

3. Peyğəmbərin (s) təyid və təsdiqləri: Bu hissədə nəzərdə tutulan məqsəd budur ki, Peyğəmbərin (s) vaxtında bəzi müsəlmanlar bir sıra əməllər edirdilər ki, o Həzrət (s) bu işlərdən xəbər tutan zaman susar, heç bir söz deməz və o işləri qadağan etməzdi. Bu sükutun özü o əməlin caiz olduğunu göstərirdi. Çünki, əgər o işlər haram olsaydı, Həzrət (s) o işləri qadağan edərdi. Buna misal olaraq o dövrdə baş verən bəzi ictimai məsələlər və şəxsi münasibətləri göstərmək olar.

## *SÜNNƏ HAQQINDA TƏHQİQAT, TƏDQİQAT VƏ İSBAT QAYDASI*

Əhli-beyt (ə) məktəbinin alimləri bir sıra qaydalara əsaslanaraq Peyğəmbərin (s) sünnəsi üzərində tədqiqat işləri aparıb, həqiqi sünnəni müəyyən edərək dəqiqləşdiriblər. Qeyd edək ki, bu qaydaların təməl və əsaslarını qabaqca hədislərdə bu mövzuya işarə etdiyimiz kimi Imamlar (ə) da aydınlaşdırmışlar. Şiə alimləri o qaydaya əsaslanaraq həmişə Peyğəmbərin (s) sünnəsi haqqında tədqiq metodundan istifadə etmiş və heç bir sünnəni tədqiq etmədən, doğruluğuna təminat verməmişlər. Həmçinin, onların hər biri haqqında tədqiqat işləri aparıldıqdan və doğruluğu isbat edildikdən sonra, onlardan istifadə edilərək ümumi qanunlar, hökmlər və əqidələrin kəşf və müəyyən olunması imzalanmışdır. Eyni zamanda doğruluğu isbat olunmayanlar isə qəbul olunmayıb rədd edilmişlər. Ona görə də Əhli-beyt (ə) məktəbinin alimləri heç bir hədis kitabını bütövlüklə düzgün hesab etmirlər. Lakin, onlar bu əqidədədirlər ki, o kitabların hamısının üzərində tədqiq və təhqiq işləri aparılsın.

Məsələn, Əhli-beyt (ə) yolu ilə nəql edilən hədisləri bir yerə toplayan kitabların içərisində aşağıdakıların adlarını qeyd edə bilərik:

1. «Əl-kafi», Məhəmməd ibni Yəqub Kuleyni (Rəhmətullah əleyh)

2. «Əl-istibsar», Şeyx Tusi (r.ə.)

3. «Ət-təhzib», Şeyx Tusi (r.ə.)

4. «Mən la yəhzuruhul-fəqih», Şeyx Səduq (r.ə.)

5. «Vəsailuş-şiə», Şeyx Hurr Amili (r.ə.)

6. «Biharul-ənvar», Əllamə Məclisi (r.ə.)

Əhli-beyt (ə) məktəbinin alimləri, fiqhi, əqidəvi məsələlər və digər ümumi maarifdə onların ardıcılları və bu yola əsaslanan digər şəxslər bu kitablarda nəql edilən hədislər üzərində müəyyən qaydalara əsaslanaraq olduğu kimi təhqiq və tədqiq etmiş və onların bir çoxunu etibar dərəcəsinə gətirmişlər. Əməl etməyə gəldikdə isə, onlarda yalnız doğruluğu isbat olunan hədislərə əməl edirik.

Bu məktəbin alimləri qeyd etdiyimiz kitablara müraciət edib baxdıqları kimi, «Səhihi-Buxari», «Səhihi-Müslim», «Sunəni Əbi-Davud», «Kənzul-ümmal» və bir çox bu kimi hədis kitablarına da müraciət edib onlardakı hədislərin düzgünlüyünü də həmən meyarlara əsasən müəyyənləşdirirlər.

Alimlər bir hədis haqqında neçə cəhətdən tədqiqat və araşdırma işləri aparırlar:

1. Sənəd cəhətindən; Sənəddən məqsəd bir hədisi rəvayət edən ravilərin silsiləsidir. Alimlər böyük bir elmi axtarış və çox zəhmət ilə «Rical» elmində mövcud olan qaydalar üzrə və ravilər haqqında əldə olunan məlumatlara əsaslanaraq, sənəddəki ravilərin doğru və ya yalançı adam olmağını isbat edirlər. Əlbəttə onlar üçün mühüm sayılan məsələ ravinin hansı məzhəbdən olması deyil, onun doğruçu və ya yalançı olmasıdır. Əgər ravi mötəbər və etimad olunacaq bir adamdırsa, onda onun nəql etdiyi rəvayət qəbul edilir. Yaxud əksinə, ravi iftiraçı və yalançı adamdırsa, onun rəvayəti qəbul olunmur. Əlbəttə, bunun müəyyən qayda-qanunları vardır ki, o barədə yazılmış kitablarda bəyan edilmişdir;

2. Mətn və məzmun cəhətindən; Bundan məqsəd budur ki, alimlər nəql edilən hədisi və sünnəni məzmun və məna cəhətindən tədqiq edirlər. Əgər onda bəyan edilən mətləblər Quran və şəriətdə təsdiq və isbat olunan əqli həqiqət və əsaslarla uyğun olsa qəbul edilir, əks təqdirdə rədd olunur.

Qeyd etmək lazımdır ki, belə bir hədisin hansı kitabda nəql edildiyi mühüm deyildir.

Xülasə, şiə fəqihlərinin və Əhli-beyt (ə) məktəbi nöqteyi-nəzərindən əvvəla, hədis kitabları nə mütləq şəkildə qəbul edilir və nə də mütləq şəkildə inkar olunur.

Ikincisi, o hədislər yalnız o vaxt qəbul edilir ki, ravi hansı tayfa və ya məzhəbdən olduğundan aslı olmayaraq, doğru danışan və mötəbər adam olsun. Bu metodu aşkar şəkildə görmək istəyənlər «Üsul», «Fiqh» və «Rical» elmləri haqqında yazılan kitablara müraciət edə bilərlər.

Bu elmi və tənqidi metod, şəriətin əsaslarının orjinallığını qorumaqda və müsəlmanlar arasında vəhdət yaranmasında, həmçinin kor-koranə təəssübkeşlikdən, cahillikdən, mövhumat və xurafatdan uzaqlaşmaqda böyük rol oynaya bilər. Çünki, tənqidə əsaslanan elmi metod real, sədaqətlik yoludur. Bu yolun cahillik, kor-koranə təəssübkeşlik, xurafat və zorla bir şeyin qəbul etdirilməsi ilə uyğunluğu yoxdur.

## ƏHLİ-BEYT (Ə) HƏZRƏT PEYĞƏMBƏRİN (S) HƏDİSLƏRİNİ RƏVAYƏT EDƏNLƏRDİR

Əhli-beyt (ə) Peyğəmbərin (s) xanədanıdır və Səqəleyn hədisinə əsasən, Peyğəmbər (s) onlara tabe olmağı öz ümmətinə vacib etmişdir.

Elə buna görə də onlardan nəql olunan hər bir şey həqiqi «sünnə»dir. Onlardan hər biri öz atasından, o da öz atasından və nəhayət həzrət Peyğəmbərə (s) yetişənə qədər bir-birindən nəql etmişlər.

Bu barədə imam Sadiq (ə) belə buyurur:

«Mənim hədisim atamın hədisidir, atamın hədisi babamın hədisidir. Babamın hədisi isə atasının hədisidir. Onun hədisi də Əli ibni Əbi-Talib hədisidir. Əli (ə)-ın hədisi isə həzrət Peyğəmbərin (s) hədisidir və həzrət Peyğəmbərin (s) hədisi Allah-taalanın sözüdür. [«Əyanüş-şiə» 3-cü cild, səh.34 (Əllamə seyyid Möhsün Əmini (rə)].

Qutəybədən belə nəql olunubdur ki:

«Bir adam imam Cəfər Sadiq (ə)-a bir məsələ haqqında sual verdi. Imam Sadiq (ə) onun cavabını verdi. O adam dedi: «Əgər məsələ başqa cür olarsa, sənin nəzərinə görə onun hökmü nə olar?» O Həzrət belə cavab verdi:

«Sakit ol! Mənim sənə verdiyim cavabların hamısı Allahın Peyğəmbərindəndir. Bizlər, «sənin nəzərinə görə necədir?» deyə biləcəyin adamlardan deyilik». (Yəni, bizlər güman üzrə və özümüzdən yox, Peyğəmbərin (s) öz nəzərindən agah olaraq cavab veririk.) [«Üsuli kafi» 1-ci cild, səh.58. Kitabın haşiyəsində də bu açıqlama yer almışdır ki, sual edən şəxsin məqsədi bu imiş ki, zənn və ictihad ilə yetişdiyin nəzəri de. Və imam (ə) bundan nəhy elədi və bəyan elədi ki, onlar hər şeyi yəqin ilə və Peyğəmbəri-Əkrəmdən (ə) yetişən hədislərlə bəyan edirlər.]

Bu barədə mərhum Şeyx Bəhai belə demişdir:

«Bizim bütün hədislərimiz, az bir hissəsini çıxmaq şərtilə, on iki imamımızdan birinin vasitəsi ilə bizə yetişmişdir. Onlar da bu hədisləri Peyğəmbərdən (s) rəvayət etmişlər. Çünki, onlar (imamlar) elmdə günəşdən (Peyğəmbərdən (s)) nurlanırlar». [Əl-vəcizə, səh.22 (Şeyx Bəhai)].

Beləliklə, Əhli-beyt (ə) doğru hədis və rəvayətlərin qaynağıdır və islam şəriətinin hökmlərinin olduğu kimi bəyan edən yol və eyni zamanda düzgün yol göstərən çıraqdırlar.

Onların mübarək həyatları bir-birinin ardınca gələn, bir-birinə sıx şəkildə bağlı və həzrət Peyğəmbərə (s) qədər uzanan zəncirvari silsilənin fasiləsiz halqalarını təşkil etdiyindən həzrət Peyğəmbəri (s) xatırladır. Bu silsilədə həmin halqaların arasında örtülü və təəccübləndirici bir məsələ yoxdur ki, Peyğəmbərə (s) bağlı olan bu möhkəm münasibəti pozsun. Onların həyatı islamın həqiqi mənada canlı bir nümunəsi və diri məktəbi olmuşdur. Bu da bu çeşmənin paklığının, ondan irəli gələn hədislərin sağlamlığının ayrı bir dəlilidir.

Deməli Əhli-beyt (ə)-ın hədis, təfsir, əqidə, tövhid və sairə elmlərdəki məktəbləri, Peyğəmbərə (s) nazil olanları əmanət kimi bizə çatdırmaqdan başqa bir şey deyil. Əhli-beyt (ə) məktəbi peyğəmbərlik ilə gələn maarif və elmlərin davamıdır.

Burada lazımdır ki, öz ümmətimizə Əhli-beyt (ə)-ın elmi və mənəvi məqamını bəyan edib Əhli-beyt (ə) məktəbini vücuda gətirən bu pak silsilənin halqalarını həzrət Peyğəmbərə (s) qədər qeyd edək:

1. Imam Əli ibni Əbi Talib (ə); «Ammül-fil» adlanan tarixdən 30 il sonra dünyaya gəlib, 40-cı Hicri ildə isə vəfat edibdir.

2. Həzrət Əlinin oğlu olan imam Həsən Muctəba (ə); Hicri 3-cü ildə dünyaya gəlib, hicri 50-ci ildə isə vəfat etmişdir.

3. Imam Həsənin qardaşı imam Hüseyn Seyyidüş-şühəda (ə); Hicri 4-cü ildə dünyaya gəlib, 61-ci ildə vəfat etmişdir.

Bu üç imam haqqında əvvəlki fəsillərdə danışıb onların Qurani-kərim və sünnədəki məqamlarını öyrəndik.

Keçən söhbətlərdən məlum oldu ki, bunların sözlərinə etibar etmək barədəki dəlillər misli olmayacaq dərəcədə aşkardır.

4. Imam Hüseynin (ə) oğlu imam Əli Zeynül-abidin (ə); Hicri 38-ci ildə anadan olub, 95-ci ildə isə dünyadan getmişdir.

Şeyx Müfid «Əl-irşad» adlı kitabında rəvayət edibdir ki, sünnilərin məhşur alim və şəxsiyyətlərindən sayılan Zohəri belə dedi:

«Mən, Peyğəmbərin (s) Əhli-beyti (ə) içərisində Əli ibni Hüseyndən (imam Zeynül-abidin) daha fəzilətli olan birini görmədim». [Əl-irşad, həzrət imam Zeynül-abidin (ə)-ın fəzilətləri babı (Şeyx Müfid)].

Səid ibni Müseyyibdən nəql olunubdur ki, imam Zeynül-abidin (ə) haqqında belə deyibdir:

«Ibni Əbi Talibin oğlu Hüseyn oğlu Əli, abidlərin ağası və böyüyüdür». [Adı keçən qaynaq].

Ibni Hacər «Əssəvaiqul-məhreqə» adlı kitabında imam Zeynül-abidini belə vəsf edir:

«Imam Zeynül-abidin bir kəsdir ki, elmdə, təqvada və ibadətdə atasının yerini tutmuşdur». [Əhli-beyt (ə) (Əbu Ələm)].

Əbi Hazim və Süfyan ibni Oyəynənin belə dedikləri nəql olunmuşdur:

«Haşimilərdən Əli ibni Hüseyndən daha fəzilətli və daha fəqih olan bir şəxsi görmədik». [Təzkirətül-xəvass, imam Zeynül-abidin (ə) bəhsi (Ibni Cövzi)].

Doğrudan da ümmətin imamlıq məqamında olan belə bir misilsiz şəxsiyyət, alimlər tərəfindən belə vəsf olunduqda hədis, fiqh, təfsir, əqidə və digər islami elmlərdə müsəlmanlar tərəfindən iqtida olunmağa layiqdir.

Imam Hüseyn (ə) imamətə aid olan nişanələri özündən sonra imam Zeynül-abidin (ə)-a verilməsini vəsiyyət etməyi, həqiqətdə onun belə üstün bir məqama sahib olduğuna və ondan gələn elm, maarif və hədislərə tabe olmağa layiq olduğuna ən aşkar dəlildir.

Imam Cəfər Sadiqdən (ə) nəql olunmuşdur:

«Həzrət imam Hüseyn (ə) Iraqa tərəf hərəkət edəndə (imamət məqamına məxsus) kitabları və vəsiyyəti Ümmi Sələmənin yanında əmanət qoydu. Imam Zeynül-abidin (ə) qayıdandan sonra Ümmi Sələmə onları ona verdi». [Əlamül-vəra, imam Zeynül-abidin (ə)-ın imamətini bildirən dəlillər qismi, səh.252 və Mənaqibi Ali Əbi Talib 3-cü cild.]

5. Imam Zeynül-abidin (ə)-ın oğlu imam Məhəmməd Baqir (ə); Hicri 57-ci ildə dünyaya gəlib, 114-cü ildə isə vəfat etmişdir.

Imam Zeynül-abidin (ə)-ın oğlu imam Məhəmməd ibni Əli (ə) elm və maarifdəki üstünlük və dərinliyinə görə «Baqir» (yəni, elmləri yaran və açıqlayan) ləqəbini almışdır. O da atası kimi müsəlmanların haramdan uzaq durmaq, Allahdan uzaqlaşdıran dünya nemətlərinə göz yummaq, təqva, elm və bilikdə tanınmış və ən məşhur şəxsiyyət olmuşdur. Alimlər, mühəddislər və dahilər buna şəhadət veriblər. Hətta məşhur və məqamı yüksək səhabələrdən olan Cabir ibni Əbdullah Ənsari rəvayət edibdir ki, həzrət Peyğəmbər (s) ona Məhəmməd Baqir adlı bir övladının dünyaya gələcəyi vaxta qədər sağ qalacağı barədə xəbər vermiş və Ona salamını yetirməsini Cabirdən istəmişdir.

Cabir ibni Əbdullah Ənsarinin rəvayəti belədir:

«Həzrət Peyğəmbər (s) mənə dedi ki, sən gələcəkdə Hüseynin nəslindən olan mənim övladımdan birini görənə qədər sağ qalacaqsan. Onun adı Məhəmməddir. O, elmləri misli görünməmiş bir şəkildə yaracaq və açıqlayacaqdır. Onunla görüşən zaman mənim salamımı ona yetir». [Bu rəvayət bu kitablarda zikr olubdur: Əl-irşad (Şeyx Müfid). Əlfüsulul-mühümmə (Ibni-Səbbağ Maliki). Tarixi Yəqubi. Nurül-əbsar (Şiblənci) Təzkirətül-xəvass (Ibni-Cövzi).]

Bu səhabə Peyğəmbərin (s) buyurduğu kimi imam Məhəmməd Baqiri (ə) uşaq vaxtında gördü və babası Peyğəmbərin (s) salamını ona yetirdi. Həzrət Məhəmmədin (s) bu şahidliyi, imam Baqirin (ə) məqamını tanımaq, o imamdan bizə gəlib çatan hədislərə etibar etmək üçün kifayətdir. Xüsusilə də bu imam və onun oğlu imam Cəfər Sadiq (ə)-ın yaşadığı zaman islam tarixində hədis, rəvayət və islami elmlərin inkişaf etməsində ən zəngin mərhələni təşkil edir. Belə bir mərhələdə yaşayan alim, ravi və təfsirçilər elm, bilik və fəzilət baxımından imam Məhəmməd Baqir (ə)-ın varlığında misli görünməmiş ucalıq və yüksəklik gördülər. Bir ucalıq gördülər ki, hər ucadan daha da uca idi.

Ibnil Imad Hənbəli, imam Məhəmməd Baqir (ə)-ı belə vəsf etmişdir:

«Əbu Cəfər Məhəmməd Baqir Mədinədəki fəqihlərdən idi. Ona Baqir (yaran) ləqəbini vermişdilər. Çünki, o, elmi yarıb, elmin əsasını bilib, elmi genişlətmişdir». [«Əl-imamüs-Sadiq vəl-məzhəbül-ərbəə» cild 2, Əsəd Heydərdən, o da bu mətləbi Şəzəratüz-zəhəb (cild 1, səh.149)dan nəql edibdir.]

Ibni Cövzi böyüklərdən olan «Əta»nın imam Məhəmməd Baqir (ə) haqqında belə dediyini nəql etmişdir:

«Mən alimləri heç kəsin yanında elmi cəhətdən imam Məhəmməd Baqirin elmi məclisində kiçildikləri qədər kiçik görməmişəm...» [Sirətül-əimmətül-isna əşər, cild 2, səh.198 (Hişam Mərufül-Hüseyni)].

6. Imam Məhəmməd Baqirin (ə) oğlu imam Cəfər Sadiq (ə); Hicri 83-cü ildə anadan olub, 148-ci ildə isə dünyadan getmişdir.

Əhli-beyt (ə) məzhəbi, bu imamın adına nisbət verilərək «Cəfəri məzhəbi» adlanır.

Imam Məhəmməd Baqir (ə)-ın oğlu imam Cəfər Sadiq (ə)-ın məqamı haqqında alimlərin sözləri olduqca çoxdur. Biz həmin sözlərdən bəzilərini eyni ifadələrlə nəql edəcəyik.

Əllamə seyyid Möhsün Əmin nəql edir ki, Hafiz ibni Əqdi öz «Rical» kitabında rəvayətləri etibarlı sayılan dörd min şəxsin adını çəkmişdir ki, hamısı imam Cəfər Sadiq (ə)-dan rəvayət nəql etmişdirlər. Və müəllif eyni zamanda onların yazdığı əsərlərin də adını çəkmişdir. [Əyanüş-şiə, cild 3, səh.34 (Əllamə seyyid Möhsün Əmin)].

Ibni Şəhr Aşub «Mənaqibi ali Əbi-Talib» adlı kitabında Ibni Nəimin «Əl-hilliyyə» adlı kitabından belə nəql etmişdir:

«Cəfər Sadiq (ə)-dan bu şəxsiyyətlər rəvayət nəql etmişlər: Malik ibni Ənəs, Şöbə ibni Həccac, Süfyan Suri, Ibni Cərih, Abdullah ibni Ömər, Ruh ibni Qasim, Süfyan ibni Əyniyyə, Süleyman ibni Bilal,

Ismail ibni Cəfər, Hatəm ibni Ismail, Əbdül Əziz ibni Muxtar, Vəhəb ibni Xalid, Ibrahim ibni Təhan və başqaları».

Müslüm öz Səhihində o Imam (ə)-dan hədis nəql etmişdir və hədisi etibarlı saymışdır. Ayrıları da deyiblər ki, Malik Şafeyi, Həsən ibni Saleh, Əbu Əyyub Bəcistani, Ömər ibni Dinar və Əhməd ibni Hənbəl ondan hədis nəql etmişdir.

Ənəs ibni Malik demişdir:

«Fəzilət, elm, ibadət və haramlardan uzaq durmaqda Cəfər Sadiqdən daha üstün olan bir şəxsi nə bir göz görmüş, nə bir qulaq belə bir şəxsin olduğunu eşitmiş və nə də bir bəşərin qəlbindən keçmişdir». [«Mənaqibi Ali Əbi Talib» 4-cü cild, səh.248 (Ibni Şəhr Aşub)].

Misirin «Əl-əzhər» universitetinin şeyxi ustad Məhmud Əbu Zohrə «Imam Sadiq» adlı kitabının müqəddiməsində belə yazmışdır:

«Bizim qəsdimiz budur ki, Allahın yardımı ilə imam Cəfər Sadiq (ə) haqqında yazaq. Daha öncə yeddi ayrı imam haqqında yazmışdıq. Biz bu imam haqqında yazmağı, onun ayrılarından əskik olduğu üçün axıra saxlamadıq. Əksinə, onun çoxlarına nisbət öncə olmaq haqqı vardır. Onun böyük imamlara görə özünəməxsus bir fəziləti var. Əbu Hənifə ondan rəvayət edirdi və onun hər kəsdən çox məzhəbi ixtilafları bildiyini qeyd edirdi.

Malik (sünni məzhəblərinin birinin başçısı) ondan dərs almaq və rəvayət öyrənmək üçün hüzuruna gəlirdi. Onun Əbi Hənifə və Malikə ustadlıq etmək üstünlüyü var və bu üstünlük ona kifayətdir. Onu axıra saxlamaqda heç bir əskik cəhət yoxdur ki, bu cəhətdən başqalarından soruşula. Başqalarının da ona nisbət bir fəziləti yoxdur ki, ondan üstün tutula. O, öz dövründə Mədinə əhalisinin fəzilət, şərəf, din və elmdə ağası olan Əli Zeynül-abidin (ə)-ın nəvəsidir. Yəni, Ibni Şəhab Zohəri və tabeyindən çoxları onun babasının yanında dərs oxumuşdur.

O, elmi yaran, həqiqətə yetişən Məhəmməd Baqir (ə)-ın oğludur. Sözün qısası, Allah-taala Peyğəmbər (s) nəslindən olduğu üçün, şərafətin və kəramətin nəhayət dərəcəsini ona təqdim etmişdir. O, haşimilərdən idi və Peyğəmbərin (s) öz yaxınlarından və övladlarından olmaq məqamına birlikdə sahib idi». [Əl-imamüs-sadiq, səh.3 (Məhəmməd Əbu Zohrə)].

Ömər ibni Meqdam belə demişdir: «Cəfər ibni Məhəmmədə baxan kimi başa düşürəm ki, o, Peyğəmbər (s) övladlarındandır». [Əl-imamüs-sadiq («Ət-tövhid» müəssisəsinin təlif heyəti)].

Məşhur tarixçi Yəqubi onu belə vəsf eləmişdir:

«O, (imam Cəfər Sadiq (ə)) insanların ən fəzilətlisi və Allahın dinini ən yaxşı bilən idi. Ondan rəvayət eşidən alimlər ondan rəvayət nəql etmək istədikdə «alim bizə belə xəbər verdi» deyərək, nəql edərdilər». [«Tarixi Yəqubi» 2-ci cild, səh.381 (Əhməd ibni Əbi Yəqub)].

Yuxarıda qeyd etdiyimiz alim, ravi və hədisçilərin bu barədə yazdıqlarının az bir qismidir. Onların bu sözləri Əhli-beyt (ə)-ın məqamlarını, elm və imandakı misilsiz yerlərini göstərir.

7. Imam Cəfər Sadiq (ə)-ın oğlu imam Musa-Kazim (ə); Hicri 128-ci ildə dünyaya gəlib, 183-cü ildə isə vəfat etmişdir.

Imam Musa ibni Cəfər (ə) isə imam Cəfər Sadiqin (ə) oğludur. O, atasının əli altında böyüdü; ondan tərbiyə aldı; elm və gözəl əxlaqları qazandı. Buna görə də atası onun məqamının ucalığına şəhadət vermişdir.

Imam Sadiq (ə)-dan oğlu haqqında bəzi səhabələrinə belə buyurduğu nəql olunmuşdur:

«Mənim bu oğlumdan əgər mushəfin (Quranın hamısını əhatə edən kitab) içərisində olan hər hansı bir ayə haqqında soruşsan, sənə cavab verər». [«Biharul-ənvar» 48-ci cild, səh.24. O da bu mətləbi Mənaqibi Ibni Şəhr Aşubun mənaqib kitabından (3-cü cild, səh.411) nəql etmişdir.]

Rical və tarix alimləri də onun həqiqi elm, təqva, gözəl əxlaq və uca məqamla məşhur olan bir abid olduğunu yazmışlar.

Hafiz Razi «Rical» kitabında bu barədə belə deyibdir:

«(Əli ibni Əbi Talibin oğlu Hüseynin oğlu Əlinin oğlu Məhəmmədin oğlu Cəfərin oğlu) Musa Kazim öz atasından hədis rəvayət etmişdir və oğlu Ələyyibni Musa və qardaşı Əliyyibni Cəfər də ondan rəvayət nəql etmişlər. Mən atamdan eşitdim ki, Əbdür-Rəhman belə deyirdi:

«Atama onun haqqında sual verdilər, atam isə belə cavab verdi: «Siqədir (hədisinə mötəbər olun)

və doğru danışandır və müsəlmanların imamlarından biridir»». [Əl-cərhü vət-tədil (Hafiz Razh) 4-cü cild, cim babı.]

Məhəmməd ibni Əhməd Zəhəbi də bu barədə demişdir ki:

«Musa hikmət sahiblərinin ən yaxşılarından və Allahın təqvalı bəndələrindən idi». [Mizanül-etidal (Məhəmməd ibni Əhməd Zəhəbi)].

Kəmaləddin Məhəmməd ibni Təlhə Şafeyi də belə demişdir:

«O, məqamı böyük bir imamdır; ictihadında çox ciddiyyəti olan bir müctəhiddir; ibadəti ilə məşhurdur; itaətini qoruyandır; kəramətləri ilə məşhurdur; gecələri səcdə və qiyam halında ibadət ilə keçirər, gündüzlər isə sədəqə verib oruc tutar, çox güzəştli olduğu və haqqını tapdalayanları bağışladığı üçün ona Kazim (qəzəbini udan) ləqəbi veriblər». [«Mətalibüs-süal» (səh.18) (Kəmaləddin Məhəmməd ibni Təlhətüş Şafei). Bu mətləbi «Məhəmməd-dəxil»in (ərəb) adlı kitabından nəql edibdir.]

Mömin Şiblənci də onun haqqında belə demişdir:

«Musa Kazim (Allah ondan razı olsun) öz zamanının ən çox ibadət edəni və ən çox elmli olanı idi». [«Nurül-əbsar» səh.218 (Mömin Şiblənci)].

8. Imam Musa Kazimin (ə) oğlu imam Musər-Riza (ə); Hicri 148-ci ildə anadan olub, 203-cü ildə isə vəfat etmişdir.

Imam Musa Kazimin (ə) oğlu imam Əliyyibni Musər-Riza (ə) da elm, təqva vəgözəl əxlaq baxımından babaları kimi idi. Atasından sonra o, dini rəhbərlik, yəni imamlıq məqamını öhdəsinə aldı.

Onun məqamı və xalq içində nüfuzu elə bir yerə çatdı ki, abbasi xəlifəsi Məmun, özündən sonra onu vəliəhd (canişin) elan etməyə məcbur qaldı. Halbuki, abbasilərin Əhli-beyt (ə) ilə düşmənçiliklərini hamı bilirdi.

Elm və danışıq məclislərində imam Rza (ə) ilə qarşılaşan alim, fəqih və filosoflar Həzrətin (ə) qarşısında boyun əyməkləri tarixdə məşhurdur. Rical və tarix haqqında yazılmış kitablarda imam Rza (ə)-ın elmi məqamı və üstün səviyyəli təqvası haqqında sübutlar çoxdur. Biz bunlardan bəzilərinə işarə edirik:

Vaqidi demişdir ki:

«O (imam Rza (ə)) siqə (hədisinə etibar olunan bir şəxs) idi. Iyirmi neçə yaşında idi ki, Peyğəmbərin (s) məclisində oturub fətva verərdi. O, Mədinə əhalisindən olan tabeinlərin (Peyğəmbəri (s) öz gözləri ilə görməyənlərə deyilir.) səkkizinci təbəqəsində idi». [Təzkirətül-xəvass, səh.198 (Ibni Cövzi)].

Bu mətləbi Hafiz Razi «Əl-cərhu vət-tədil» kitabında imam Rza (ə)-ın atası imam Musa Kazim (ə) barəsində yazdığı məqalədə qeyd etmişdir.

Imam Musa Kazim (ə)-ın özü də oğlu imam Rza (ə)-ın elmi məqamına şəhadət verib, o biri oğlanlarına xitab edərək belə buyurmuşdur:

«Bu qardaşınız Əli ibni Musa Ali-Məhəmmədin alimidir. Dininiz haqqında ondan soruşun və sizə dediyini qəbul edin». [Əl-irşad (Şeyx Müfid)].

9. Imam Musər-Riza (ə)-ın oğlu imam Məhəmməd Cavad (Təqi) (ə); Hicri 195-ci ildə dünyaya gəlib, 220 ci ildə isə dünyadan getmişdir.

Imam Məhəmməd Cavad (ə) da elm, təqva pərhizkarlıq və başqa gözəl xüsusiyyətlərdə öz pak babaları kimi idi.

Sibt ibni Cövzi belə demişdir:

«Məhəmməd Cavad, Əli ibni Əbi Talibin oğlu Hüseynin oğlu Əlinin oğlu Məhəmmədin oğlu Cəfərin oğlu Musanın oğlu Əlinin oğludur. Kunyəsi Əbu Əbdullah və Əbu Cəfər idi. Hicri 195 ci ildə dünyaya gəlmiş və 220 ci ildə isə vəfat etmişdir. O da elm, təqva, pərhizkarlıq və səxavətdə öz atasının yolunu tutmuşdur». [Təzkirətül-xəvass, səh.202 (Ibni Cövzi)].

Məhəmməd ibni Əmmar belə rəvayət edibdir:

«Mən, (imam) Məhəmməd Baqirin oğlu Cəfər (Sadiqin) oğlu Əlinin yanında idim. [Əli ibni Cəfər imam Cavadın (ə) babası imam Rzanın (ə) əmisidir. Və rəvayət və hədisçilərin yanında etimad olunan rəvayətçilərdəndir.]

Mən iki il onun yanında qalıb qardaşı Musa Kazimdən eşitdiyi hədisləri yazırdım. (Mən Əli ibni Cəfərin yanında oturduğum bir vaxtda) Əbu Cəfər Məhəmməd ibni Əli (yəni, imam Məhəmməd Cavad (ə)) məscidə girdi. Əli ibni Cəfər tez ayağa qalxdı, əbasını geyinmədən gəlib Məhəmməd Cavadın

əlindən öpdü və onun qarşısında baş əydi.

Əbu Cəfər (imam Cavad) dedi:

**«Ey əmi, Allah mərhəmət eləsin, otur».**

Amma Əli ibni Cəfər dedi:

«Sən ayaq üstə durduğun halda mən necə oturum?»

Əli ibni Cəfər öz məclisinə qayıdandan sonra səhabələri ona müraciət edərək dedilər:

«Sən onun atasının əmisisən, onunla niyə belə davranırsan?»

Əli ibni Cəfər—«Sakit olun»—dedi, sonra əli ilə saqqalını tutub dedi:

«Əgər Allah-taala bu ağarmış saqqalı (imamlıq məqamına) layiq bilməyib, bu gənci layiq bilibsə və öz istədiyi şəxsə imamlıq məqamını ehsan edibsə, mən necə onun üstünlüyünü inkar eləyim... Mən onun bir quluyam». [Mədinətül-müaciz, səh.450]

Hənəfi məzhəbli Məhmud ibni Vəhib bağdadi də imam Məhəmməd Təqi (ə) barəsində belə deyibdir:

«Məhəmməd Cavadın (ə) künyəsi Əbu Cəfərdir...O, elm və fəzilətdə öz atasının varisi idi və qardaşları arasında kamal cəhətdən hamıdan üstün idi». [Cəvahirul-kəlam, səh.147].

10. Imam Məhəmməd Cavadın (ə) oğlu imam Əliyyəl Hadi (Nəqi) (ə); Hicri 212 ci ildə dünyaya gəlib, 254 ci ildə isə vəfat etmişdir.

Imam Hadi (ə) isə imam Məhəmməd Cavadın (ə) oğludur. O həzrətin künyəsi Əbül Həsəndir. Elm, təqva fəzilət və uca məqamı cəhətindən pak atalarında olan vəsflər onda da mövcud idi.

Mömin Şiblənci deyibdir ki, «Onun (imam Hadinin (ə)) münacatları çox idi». «Səvaiq» kitabının müəllifi də belə yazmışdır:

«Əbül Həsən Əsgəri (yəni, imam Hadi (ə)) elm və səxavətdə atalarının varisi idi». [Nurül-əbsar, səh.149]

Hənbəli məzhəbli Əbdu-həyy ibni Imad da belə deyibdir:

«Ələvi və Hüseyni olan (yəni, həzrət Əli və imam Hüseynin övladlarından olan), Hadi ləqəbi ilə tanınmış Cəfər Sadiqin oğlu Musa Kazimin oğlu Əli Rzanın oğlu Məhəmmədin oğlu Əli Əbülhəsən çox ibadət eləyən bir fəqih və imam idi». [Şəzəratüz-zəhəb, 2-ci cild, səh.129].

Hafiz Imadəddin Əbül-fəda Ismail ibni Ömər ibni Kəsir də imam Hadi Əliyyən Nəqi (ə)-ın barəsində belə qeyd etmişdir:

«Və amma Əbül Həsən Əliyyəl Hadi (ə): O, Əli ibni Əbi Talibin oğlu Şəhid Hüseynin oğlu Zeynül-abidinin oğlu Məhəmməd Baqirin oğlu Cəfər Sadiqin oğlu Musa Kazimin oğlu Musər Rzanın oğlu Məhəmməd Cavadın oğludur. O, on iki imamdan biridir və imam Həsən Əsgərinin atasıdır. Abid və zahid idi. Mütəvəkkil onu Samirrayya gətirdi. O Həzrət (ə) iyirmi ildən bir neçə ay çox orada sakin oldu və Hicri 254-cü ildə orada vəfat elədi».[Əl-bidayə vən-nihayə, 11-ci cild, səh.15].

Abbasi xəlifələrindən olan Mütəvəkkilin imam Hadini (ə) Mədinədən Samirra şəhərinə gətirmək üçün yolladığı Yəhya ibni Hərsəmədən də belə rəvayət olunubdur:

«Mən Mədinəyə getdim. Elə ki, Mədinə şəhərinə daxil oldum, oranın camaatı Əli Hadi (ə) üçün qorxduqlarından misli görünməmiş bir şəkildə ah-fəğan etməyə başladılar. Beləliklə, vəziyyət təhlükəli şəkil aldı, çünki O, onlara yaxşılıq edən, məsciddən ayrılmayan və dünyaya meyli olmayan bir şəxs idi. Mən onları sakitləşdirməyə məcbur qaldım və and içdim ki, mənə onun barəsində xoşagəlməyən bir iş görmək əmri verilməmişdir. Sonra evini axtardım. Lakin orada da müshəfdən (Qurandan), dua və elmi kitablardan başqa bir şey tapmadım. Beləliklə, onun məqamı mənim gözümdə böyük oldu». [Təskirətül-xəvass, səh.202 (Ibni Cövzi)].

11. Imam Əliyyən Hadi (ə)-ın oğlu imam Həsən Əsgəri (ə); Hicri 232-ci ildə dünyaya gəldi, 260-cı ildə isə vəfat etmişdir.

Imam Həsən Əsgəri (ə) isə atası imam Hadi (ə) və pak babaları kimi idi və elm, bilik, təqva və cihadda onların varisi idi.

Alim və tarixçilər bu həqiqətə şahidlik edirdilər. Biz bunlardan bəzisinə işarə edəcəyik. Şəmsəddin Əbül Müzəffər Yusif ibni Fərağlı, Sebt ibni Cövziyə belə deyibdir:

«O bir etibar olunan alim idi. Atası və babasından hədis nəql etmişdir». [Təzkirətül-xəvass, səh.203].

Əli ibni Səbbağ Maliki belə deyibdir:

«Ağamız Həsən Əsgərinin həyatı onun fəzilətinə və fəzilətli bir ağanın oğlu olduğuna sübutdur. Onun imamlığında heç kim şəkk-şübhə edə bilməz. Əgər kəramət və dəyərlər satılsa, dəyərləri satan ayrılarıdır. Amma O, daima dəyərlərə müştəridir. O, zəmanəsinin tayı olmayan yeganə şəxsiyyəti idi. Gözəl əxlaq baxımından misilsiz idi. O əsrdə yaşayanların ağası, o zamandakı xalqın həqiqi imamı idi. Sözləri sağlam və düzgün, əməlləri isə gözəl idi». [«Əl-füsulul-mühimmə fi əhvalin-əiimə» səh.290 (Ibni Səbbağ Maliki)].

12. Imam Həsən Əsgəri (ə)-ın oğlu imam Məhdi (ə) (ki, ləqəbi Məhdi və adı Həzrət Peyğəmbərin (s) adı ilə eynidir.); Hicri 255-ci ildə dünyaya gəlmişdir və Allahın iradəsi ilə islam dinini bütün yer üzünə hakim edəcəkdir, o Həzrət qeybdədir.

Əhli-beyt (ə)-a tabe olan müsəlmanların əqidəsinə görə 12-ci imam Həzrət Əli ibni Əbi Talibin oğlu, Seyyidüş-şühəda Həzrət imam Hüseynin oğlu Həzrət Zeynül-abidinin oğlu, Həzrət imam Məhəmməd Baqirin oğlu, Həzrət imam Cəfər Sadiqin oğlu Həzrət Musa Kazimin oğlu, Həzrət imam Rzanın oğlu Həzrət Məhəmməd Təqinin oğlu Həzrət imam Əliyyən Nəqinin oğlu Həzrət imam Həsən Əsgərinin oğlu imam Məhdi (ə)-dır. Adı Həzrət Peyğəmbəri-əkrəmin (s) adı ilə eynidir. Hicri 255-ci ilin şaban ayının 15-də dünyaya gəlmişdir. O həzrət Allahın iradəsi və təqdiri ilə sağdır, amma qeybdədir. O, yer üzü zülm ilə dolduqdan sonra Allahın iradəsi ilə zühur edəcək və dünyanı bərabərlik və ədalət ilə dolduracaq. Həzrət Isa (ə) isə gəlib onun arxasında namaz qılacaq.

Həzrət Peyğəmbər (s) buyurmuşdur:

«Bir gün gələr Allah-taala mənim Əhli-beytimdən göndərər ki, onun adı mənim adım kimidir. O, yer üzünü zülm ilə dolduğu kimi ədalət və bərabərliklə doldurar». [«Sünnəni Əbu Davud» 4-cü cild, səh.104, 4282-ci hədis və «Əlfisulul-mühimmə» həzrət Məhdi (əc) haqqındakı babından.]

Həzrət Əli (ə)-da həzrət Peyğəmbərdən (s) belə nəql etmişdir:

«Əgər dünyanın ömründən bir gün qalsa da belə, Allah mənim Əhli-beytimdən olan bir nəfəri göndərəcək. O, yer üzünü zülm ilə dolduğu kimi ədalət ilə dolduracaqdır».

Bu hədisi Əbu Davud öz «Müsnəd»ində belə nəql edibdir. Yenə Əbu Davud və Termezi öz «Sünən» kitablarında Səid Xidiridən belə nəql ediblər:

«Mən həzrət Peyğəmbərdən (s) eşitdim ki, belə buyurdu:

«Məhdi məndəndir, alnı (geniş və ) parlaqdır, burnunun üstünün orta qismi dikdir. O, yer üzünü zülm ilə dolduğu kimi bərabərlik və ədalət ilə doldurar».

Əbu Davud bu cümləni də əlavə edibdir ki, «yeddi il hökm sürəcək» və qeyd edibdir ki, bu hədis sabit və səhih bir hədisdir.

Bu Əhli-beyt (ə)-ın haqqında qısa bir izahat idi ki, onların kimliyi, məqam və dərəcələri haqda qısa şəkildə danışıldı.

Biz fiqh, hədis, təfsir, əqidə, şəriət və digər elmlərimizi bunlardan alırıq.

## *ƏHLİ-BEYT (Ə) MƏKTƏBİNDƏ TÖVHİD*

Həzrət Əli (ə) buyurmuşdur:

«Dinin əvvəli Onu (Allahı) tanımaq, Onu tanımağın kamil olması Onun təkliyinin qəbul etmək, tövid və Onun təkliyinin qəbul olunmasının kamilliyi isə tam xalisliklə Ona ibadət etməkdən ibarətdir». [«Nəhcül-bəlağə», (Həzrət Əli (ə)-ın xütbə, məktub və qısa sözləri.)]

Imam Cəfər Sadiq (ə) buyurmuşdur:

«Allah-taala haqqı tanımaqla birlikdə olmayan əməli qəbul etməz və əməl üçün isə mərifətdən başqa heç bir şey deyildir. Hər kim haqqı tanısa onun o mərifəti onu əməl etməyə vadar edər. Bəs hər kim əməl etməzsə, onun mərifəti də (haqq tanımağı) yoxdur. Bilmək lazımdır ki, imanın bəzi hissələri digər hissələrini tamamlayır»

Tövhid islam dininin təməli və müsəlmanların inam, düşüncə, elm və əməllərinin əsasıdır. O, şəriət-dəki qanun və dəyərlərin, həmçinin təfəkkür və düşüncənin mehvəridir. Tövhid anlayışı islamın şirkdən uzaq və tövhidə əsaslanan mədəniyyətin meydana gəlməsində ən mühüm amildir. Islam mədəniyyəti-nin bəyəndiyi rəng və daşıdığı nişanə, ilahi rəng və tövhid nişanəsidir. Allah-taala Quranda «Bəqərə» surəsi, 138-ci ayədə buyurmuşdur:

«(Bu) Allahın verdiyi bir rəng və nişanədir və kimdir ki, rəng və nişanəsi Allahdan daha gözəl ola! Və biz Ona (o Allaha) ibadət edirik».

Islam mədəniyyətinin tövhid rəngi və nişanəsi onu xurafat, mövhumat və cahiliyyət dövrünə aid olan mədəniyyətlərdən ayırır. Və onun ilahi məsuliyyət və hədəflərini təyin edir.

Həmçinin müsəlman şəxsin ictimaiyyətdəki nümunəvi davranış və fikirlərini istiqamətləndirir! Qurani-kərim və pak sünnə müsəlmanın əqidə və düşüncə qaynağıdır ki, aşkar şəkildə tövhid əqidəsini, əzəmət sahibi olan Allahın varlığını, Onun kamal sifətlərinin nədən ibarət oduğunu və Onun hər növ çirkinlik və naqislikdən uzaq olmağını bəyan etmişlər. Ilk müsəlmanlar da bunu Allahın Peyğəmbəri və Qurani-kərimin bəyan etdiyi kimi öyrənib iman gətirmişlər. Zaman keçdikcə islam dini yayılmış, ölkələr bir-birinin ardınca fəth olunmuş və cahil mədəniyyətlərin təsiri altında olan millətlər də müsəlmanların sırasına daxil olmuşlar. Ayrı-ayrı dinlərə və millətlərə mənsub olmuş şəxslər islama daxil olduqca, Yunan və digər fəlsəfələrin müsəlmanlar arasında yayılması nəticəsində tövhid əqidəsinə xurafatlar daxil olmağa başladı. Tövhidi əqidə barəsində bəzi yersiz mücadilə və şübhələr meydana gəlmişdir. Məsələn, insanın öz işlərində məcbur (iradəsiz) və ya ixtiyarlı (iradəli) olması, Allahın cism olub-olmaması və ya merac haqqında meydana gələn mübahisələri göstərmək olar. Bunun nəticəsində də fikir ayrılığı və müxtəlif məzhəb və firqələr yaranmışdır. Əhli-beyt (ə) bu dövrlərdə islamın həqiqətini qorumaq və onun yanlış, batil və xurafi inamlardan uzaq qalması, çox geniş bir elmi və fikri mübarizə aparmışlar. Bu mübarizələr nəticəsində o batil firqələrdən çoxu müsəlmanlar arasında yayılmış və tarixdə bilinməz olmuşdur. Əhli-beyt (ə) Allahın verdiyi elm və mərifət sayəsində Allahın kitabını və Peyğəmbərin (s) sünnəsini həqiqi mənada bildiklərindən, tövhid anlayışını müdafiə edərək, batil və zəlalətə düşmüş firqələrin fikri əsaslarını rədd etməkdə və şübhələrin təməlini qazmaqda ən mühüm məsuliyyəti və rolu öz öhdələrinə almışlar. Bu barədə Əhli-beyt (ə)-ın mübahisələri, hədisləri, Quranın tövhid haqqındakı ayələrinə söylədikləri təfsirləri mötəbər mənbələrdə mövcuddur. Onlar müasir dövrdə tövhid haqqındakı şübhələri yox etməkdə, islami fikirləri öz orjinallığına qaytarmaqda və yolunu azmış adamaların ayələri öz şəxsi fikirlərinə əsaslanaraq təfsir etmələrinin müqabilində dayanmaq üçün mühüm bir rola malikdirlər. Hər kim tövhid əqidəsinin nəzəriyyələrindən xəbərdar olsa və Əhli-beyt (ə) məktəbi nöqteyi-nəzərindən tövhid inamının fikir və ideoloji planındakı yerini tədqiq etsə, onda bu məktəbin özünə məxsus üstünlüyünü dərk edə bilər. O zaman anlamaq olar ki, tövhid əqidəsinin əsası kamalın bütövlüklə Allah-taalaya məxsus olmasına, onun hər bir çatışmamzlıqdan pak bilinməsinə və onun şəriki, misalı və ziddinin olmaması üstündə qurulmuşdur. Həzrət Əli (ə) bu tövhidi istiqamətin əsaslarını bu cümləsində bəyan etmişdir:

«Tövhid odur ki, Onu (Allahı) dərrakəndə sığışdırmayasan və ədalət odur ki, Ona töhmət vurmayasan». [«Nəhcül-bəlağə»].

Əhli-beyt (ə)-dan nəql olunan bir çox hədislərdə tövhid əqidəsinin möhkəm əsasları aydınlaşdırılmış və Deysani, ibni Əbil Əvca, ibni Müqffə kimi onu inkar edənlərin və ya «Ğülat», «Mufəvvəzə», və «Cəbriyyə» kimi Allaha inanan, lakin yolunu azmış firqələrin şübhələri batil edilmişdir. Aşağıda Əhli-beyt (ə) tərəfindən tövhid əsasları haqqında söylənən bir sıra hədisləri olduğu kimi təqdim edəcəyik. Elə bu qısa işarələrlə aydın olacaq ki, Əhli-beyt (ə)-ın bəyan etdiyi tövhid anlayışı, həmin Quranda olan tövhid əqidəsinin özüdür. Imam Sadiq (ə)-dan rəvayət olunubdur ki, həzrət Əmirəl-möminin Əli ibni Əbi Talib (ə) belə buyurubdur:

«Allahı Özü ilə, Peyğəmbəri (s) peyğəmbərliyi ilə və «ulul-əmri» (imamları) isə ədalət və yaxşı işlərə əmr etmələri ilə tanıyın...» [«Üsuli kafi» 1-ci cild. «Ət-tövhid» babı (Məhəmməd ibni Yəqub Küleyni)].

Fəth ibni Yəzid imam Rza (ə)-dan belə rəvayət etmişdir:

«Mən imam Rza (ə)-dan mərifətin (Allahı tanımağın) ən aşağı mərtəbəsinin nədən ibarət olduğunu soruşdum. O həzrət belə cavab verdi:

«O (mərifət) Allahdan başqa bir tanrının olmaması, Onun oxşarı və bənzərinin olmaması, qədim (əzəldən) olması, sabit (dəyişməz və yox olmaz) olması və Onun misalının və bərabərinin olmamasını iqrar etməkdən ibarətdir». [Zikr edilən qaynaq].

Nafe ibni Əzrəq imam Məhəmməd Baqir (ə)-dan soruşdu:

«Allah-taala nə vaxtdan var?» Imam cavabında buyurdu:

«Allah nə zaman yox olub ki, mən sənə Onun nə vaxtdan var olduğunu xəbər verəm? Əzəldən var və əbədi olacaq, hər bəndənin möhtac olduğu və özünə bir yoldaş və övlad götürməyən Allah bütün

çatışmamazlıqlardan pakdır».

Imam Cəfər Sadiq (ə) rəvayət etmişdir ki, bir yəhudi alim imam Əli (ə)-ın yanına gəlib soruşdu:

«Ey Əmirəl-möminin! Sənin rəbbin nə zamandan var?» Imam (ə) buyurdu:

«Vay olsun sənə! Bir zaman yox olan bir şeyə nə vaxtdan var, deyə soruşarlar? Mənim Allahım ilkinlərin ilkini və ondan qabaq bir vücud olmayan bir varlıqdır. O, nəhayətsiz və sonların sonudur. [Zikr edilən qaynaq].

O, nəhayətsiz və həm də nəhayəti də nəhayətsizdir. Bütün nəhayətlər Onda qurtarır və O nəhayətlərin müntəhasıdır».

O yenə soruşdu:

«Ey Əmirəl-möminin! Sən də peyğəmbərsənmi?» Imam cavab verdi:

«Mən Məhəmməd peyğəmbərin xidmətçilərindən biriyəm». [Zikr edilən qaynaq].

Imam Baqir (ə)-dan belə nəql olunmuşdur:

«Allahın zatı haqqında fikirləşməyin. Lakin, Onun böyüklüyünə baxmaq istəsəniz, Onun yaratdıqlarının əzəmətinə baxın». [Zikr edilən qaynaq].

Imam Cəfər Sadiq (ə) səhabəsi, Məhəmməd ibni Müslümə belə vəsiyyət edibdir:

«Ey Məhəmməd! Həqiqətən, insanlar o qədər danışarlar ki, nəhayət Allahın zatı haqqında da söhbət edərlər. Bu sözləri eşidən zaman deyin: Oxşarı və bənzəri olmayan Allahdan başqa bir Allah yoxdur». [Zikr edilən qaynaq].

Imam Məhəmməd Baqir (ə) buyurmuşdur:

«Hər bir şeyin haqqında danışın, ancaq Allahın zatı haqqında danışmayın». [Zikr edilən qaynaq]

Həzrət imam Əlidən (ə) Allahın, məxluqatın yaranışdan qabaq harada olduğunu soruşdular. O Həzrət (ə) cavabda buyurdu:

«Allah-taalanın zaman və məkana ehtiyacı yoxdur. Həqiqətən, O Allah bütün çatışmamazlıqdan pak-pakizədir». [Zikr edilən qaynaq].

Bir şəxs həzrət Əlidən (ə) soruşmuşdur:

«Rəbbimiz yeri və göyü yaratmazdan əvvəl harada idi?» Imam (ə) cavab vermişdir:

«Allah-taala «Məkan» yaranmazdan qabaq var olduğu halda, Onun məkanı haqqında necə sual edirsiniz?»

Yenə də bir nəfər Həzrət Əlidən (ə) soruşdu:

«Ey Əmirəl-möminin! Sən Allaha ibadət edən zaman Onu görürsənmi?» Imam (ə) cavab verdi:

«Vay olsun sənə! Mən görmədiyim Allaha ibadət etmərəm».

O yenə soruşdu:

«Sən Onu necə görürsən?» Imam (ə) cavab verdi:

«Onu (zahiri) gözlər vasitəsi ilə müşahidə etmək olmaz, lakin qəlblər öz həqiqi inamları ilə Onu görə bilərlər». [Zikr edilən qaynaq].

Məhəmməd ibni Həkim də rəvayət etmişdir:

«Imam Musa Kazim (ə) atama belə yazmışdı:

«Allah-taala, Onun haqqında söylənən sifətlərin hamısından daha uca, daha üstün və daha böyükdür. Demək, Onu özü vəsf etdiyi kimi vəsf edin və bununla da kifayətlənin.»

Müfəzəl nəql edibdir:

«Imam Musa Kazim (ə)-dan Allahın sifətlərindən bəziləri haqqında soruşdum. Imam (ə) buyurdu:

«Bu barədə Quranda olanlarla kifayətlənin». [Zikr edilən qaynaq].

Əbdürrəhman ibni Ətik deyir:

«Əbdül Məlik ibni Əyənin vasitəsi ilə imam Cəfər Sadiq (ə)-a yazdım:

«Iraqda bir dəstə adamlar var ki, Allahı şəkil və cizgilərlə vəsf edirlər. Sizə qurban olum, əgər məsləhət bilsəniz tövhid haqqında olan doğru anlayışı mənə yazasınız». Imam (ə) cavabında mənə belə yazmışdı:

«Allah sənə mərhəmət eləsin ki, özündən qabaqkıların tövhid barəsində olan fikirlərini məndən soruşursan. (Bil ki,) Allah-taala hər bir şeydən ucadır və Onun misli və bənzəri yoxdur. O, eşidən və görəndir. Vəsf edənlərin vəsfindən uca və pakdır. Bil ki, o şəxslər ki, Allahı məxluqata bənzədirlər, Allaha iftira deyirlər. Allah sənə mərhəmət eyləsin, tövhid haqqında doğru anlayış Quranda zikr olduğu Allahın sifətləridir. Bəs Allah-taalanın fani olmağını, Onu bir şeyə bənzətməyi unut. Çünki, Onun haqqında bir şeyi inkar etmək və Onu bir şeyə bənzətmək düzgün deyildir

O Allah sabitdir və vəsf olunan sifətlərin hamısından yüksəkdir. Bu barədə Quranda olanlarla kifayətlənin ki, həqiqət aşkar olan bir halda yoldan azmayasınız».

Bu barədə Həmzə ibni Məhəmməd deyir:

«Mən imam Musa Kazim (ə)-a məktub yazaraq (Allahın) cism və surəti haqqında soruşdum. Imam (ə) cavabında belə yazdı:

«O (Allah), hər bir çatışmamazlıqdan uzaq, bənzəri və surəti olmayan bir varlıqdır». [Zikr edilən qaynaq].

Beləliklə Quranın ruhunu təfsir edən Əhli-beyt (ə) məktəbində tövhid əqidəsinin, Allahı mütləq şəkildə çatışmamazlıqlardan pak bilmək prinsipinə əsaslandığını görürük. Bu yolla Əhli-beyt (ə) batil əqidələri, islami anlayışlara qarşı yaranmış şübhələri və xurafatları aradan aparmışlar....

Bu dediklərimiz «Ğulat», «Müfəvvəzə», «Mücəssəmə», «Hülul» kimi xurafatların rədd olunmasında öz əksini tapmışdır.

Əhli-beyt (ə)-ın bu izahları sayəsində Əhli-beyt (ə) məktəbinin həqiqi ardıcılları ilə bu yoldan azmış və ya özlərini qeyri-rəsmi olaraq, bu yolun davamçıları hesab edənlər (Ğulat, Müfəvvəzə, Hülul, Ittihad kimi firqələr) fərqlənirlər.

Əlbəttə qeyd edək ki, tarix boyu iftira, yalan və hiyləgərliklə aldadıb, müsəlmanların birliyini pozmaq istəyənlər, əslində isə islam düşmənlərinə qulluq edənlər olduqca çox olmuşdur.

## *İLAHİ ƏDALƏT VƏ İNSAN DAVRANIŞLARININ İZAHI*

***«Allah-taala şəhadət verir ki, Allahdan başqa ədaləti bərpa edən bir tanrı yoxdur. Mələklər və elm sahibləri də (şəhadət verirlər). Və (O,) ədalətə əsaslanır. Əziz və hikmət sahibi olan Allahdan başqa bir tanrı yoxdur».*** *(Ali Imran surəsi, 18-ci ayə)*

Ədalət Allahın sifətlərindən biridir və Onun əlaməti dünyanın hər bir yerində müşahidə olunur.

Ilahi ədalətin nişanələri yaranışda açıqca göründüyü kimi, ilahi kitablarda göndərilən şəriət və onun qanunlarında da aşkar müşahidə olunur. Allah-taala Qurani-kərimdə «Nəhl» surəsinin 40-cı ayəsində belə buyurur:

***«Həqiqətən Allah ədalət və yaxşılıqlara əmr edir».***

Ilahi ədalət Allahın öz yaratdıqlarında icra edilərək qəza və qədərdə öz əksini tapdığı kimi, axirət dünyasında da hakim olacaq. Bu qanunlara əsaslanaraq yaxşı iş görənlər yaxşılıqlarla mükafatlandırılacaq və pis iş görənlər isə pisliklərinə görə cəzalandırılacaq... Necə ki, «Kəhf» surəsinin 40-cı ayəsində buyurulub:

***«Sənin Pərvərdigarın heç bir kəsə zülm etməz..»*** *(Kəhf-40)*

Yenə buyurur:

***«Sonra (o gündə) hər bir şəxs etdiyi əməllərin əvəzini kamil şəkildə alacaqdır».*** *(Bəqərə-281)*

Yenə də buyurur:

***«Onun etdiyi hər bir yaxşı və pis iş onun özü üçündür».*** *(Bəqərə-286)*

Ilk müsəlmanlar bu əqidədə yaşayaraq gördükləri işlərdə o mətləbə əsaslanırdılar. Amma, sonralar müxtəlif fəlsəfə və məzhəblərin yaranması nəticəsində müsəlmanlar arasında bir-birindən fərqli olan üç nəzəriyyə meydana gəldi:

1. Cəbr: Yəni, mütləq məcburiyyət;

2. Təfviz: Yəni, mütləq muxtariyyət;

3. Nə cəbr və nə də təfviz: Yəni, orta mövqe.

1). Quran ayələrinin bəzilərinin zahirinə diqqət yetirmək və digər ayələrə nəzər salmamağın nəticəsində bəziləri xəyal edirdilər ki, Quran Cəbr nəzəriyyəsini təsdiq edir. Məsələn, Allah-taala bir ayədə buyurur:

***«Allah, istədiyini hidayət edir və istəmədiyini zəlalətə salır».***

Bu ayənin həqiqi mənasını bilməyənlər belə təsəvvür edirdilər ki, insan heç bir iradə və ixtiyara malik deyildir. Yəni insan xaricdən idarə olunan bir texnika kimidir. Bu nəzəriyyəyə görə insan bütün işlərində ixtiyarsız və məcburiyyət qarşısındadır. Bu fikir sahiblərinə «Cəbriyyə» deyilir.

2). Digər bir nəzəriyyəyə görə insan öz işlərində Allahın iradə təsiri altında olmayıb, tam mənası ilə azad və ixtiyar sahibidir. Hətta, belə iddia edirdilər ki, Allahın insanın işlərinin qarşısını almağa qüdrəti yoxdur. Istər bu işlər öldürmək, zülm, içki içmək və sairə işlər kimi pis və ya ibadət, ədalət, səxavət və namaz qılmaq kimi yaxşı işlər olsun. Bunlara «Müfəvvizə» deyirlər.

3). Əhli-beyt (ə) isə nə Cəbr və nə də Təfviz prinsipinə əsaslanaraq, bu fikirlərin hər ikisini rədd etmiş və bu nəzəriyyələrin Qurani-ərimdəki tövhid məfkurəsinə zidd olduqlarını bəyan etmişlər. Əhli-beyt (ə) izah etmişlər ki, insanın davranışlarını Allahın ədalətinə əsaslanaraq təfsir etmək lazımdır. Əks təqdirdə, insanın iradə və ixtiyarını inkar etmək və onu öz işlərində məcburi saymaq, yaradan Allahı zülmlə ittiham etmək mənasını verir. Çünki, onun mənasından belə çıxır ki, Allah-taala bir tərəfdən insanı pis işlər görməyə məcbur edir, digər tərəfdən də onu bu işlərdə cinayətkar bilib cəzalandırır.

Müsəlmanların çoxu bəzi ayələrin həqiqi mənasını unudaraq onların zahiri mənalarına diqqət yetirmiş və səhv olaraq insanın öz işlərində məcbur olduğunu yəni, qeyri-iradi olmasını düşünmüşlər.

Məsələn, aşağıdakı ayə kimi:

***«Allah istədiyini yoldan çıxarır və istədiyini hidayət edir».***

Amma Əhli-beyt (ə) bu ayədə qeyd olunan hidayət və zəlalət məfhumlarını elə bəyan etmişlər ki, Allahın ədaləti ilə tam uyğun gəlir.

Eyni zamanda Əhli-beyt (ə) «Cəbr» müqabilində olan «Təfviz» fikrini (yəni, insanların öz işlərində tam öz başlarına buraxıldıqları və yüksək bir qüdrətin tədbirinə tabe olmadıqları fikrini) də rədd etmişlər və bunu Allah-taalanı (nəuzubillah) qüdrətsizlikdə ittiham etmək kimi qiymətləndirmişlər.

Bu iki azğın fikirin müqabilində Əhli-beyt (ə)-ın bəyan etdikləri həqiqət və doğru məzhəb bundan ibarətdir ki, nə «Cəbr» doğrudur və nə də «Təfviz». Həqiqət bu iki fikirlərin arasında olan bir nöqtədir. Insan bu dünyada öz işlərində məcbur olmadığı kimi, öz başına da buraxılmamışdır. Əhli-beyt (ə)-ın hədisləri bu mövzunu çox dəqiq və açıq bir şəkildə bəyan etmişdir.

Biz bu barədə Əhli-beyt (ə)-dan nəql olunan hədislərə işarə etməzdən qabaq, Əhli-beyt (ə)-ın məktəbi ilə digər məzhəblər arasında Allahın ədaləti barəsində olan ixtilaf və fərqləri qısaca qeyd edəcəyik.

1. Insan hər bir zaman xeyir və şər işləri görməyə ixtiyarlıdır. Məsələn, insan zülm etməyə, yalan danışmağa və sair pis işlərə gücü və iradəsi çatdığı kimi, bu işləri görməyib ədalətli olmağa və yaxşı işlər görməyə də gücü və iradəsi çatır. Bu iki yoldan hər hansı birini istəsə, öz azad iradəsi və ixtiyarı ilə görə bilər.

Əlbəttə, Allah-taala insanı bir iş görməyə vadar etməyə qadir olduğu kimi, hər hansı bir pis işdə də qabağını almağa və qadağan etməyə qadirdir. Amma, Allah-taala heç kəsi zorla bir işi görməyə və ya bir işi tərk etməyə məcbur etməz.

Bəli, Allah-taala öz lütf və rəhməti ilə ilahi inayət və mərhəmətə layiq olan şəxsləri pis və bəyənilməyən işləri görməkdən çəkindirər. Məsələn, bəzən insanların yaxşı işlərdə müvəffəqiyyət qazanmasına kömək edir. Amma bu iş heç də insanın ixtiyarını və iradəsini əlindən almaq deyil, əksinə ona əldə etdiyi ləyaqətə görə bir lütf və mərhəmət etməkdir.

2. Allah-taala qiyamət günü hər bir insanı gördüyü işlərə görə cəzalandırar. Ilahi ədalətin nəticəsi olaraq, yaxşı iş görənlərlə pis iş görənlərin mükafat və cəzaları bir-birindən ayrı olar. Bir dəstə öz gördükləri işlərin nəticəsində atəş və cəhənnəmə, digər bir dəstə isə cənnətə girməyə layiq olarlar.

Amma, müsəlman firqələrindən bəziləri demişlər ki, Allahın yaxşı iş görənləri cəhənnəmə və pis iş görənləri isə cənnətə aparmağı heç də qəbahət sayılmır.

Onlar yanlış olaraq, aşağıda qeyd olunan ayəyə əsaslanmışlar:

***«(Allah), gördüyü işlər barəsində sorğu-sual olunmaz; (bütün bəndələr), isə sorğu-sual***

***olunarlar».*** *(Ənbiya-23)*

Bəziləri bu müqəddəs ayənin doğru olmayan təfsirinə istinad edərək demişlər:

«Vacib deyildir ki, Allah-taala qiyamət günü üçün verdiyi mükafat vədlərinə əməl etsin».

Amma Əhli-beyt (ə)-dan nəql olunan hədislərdə bu sözün Allahın sədaqət və ədaləti ilə müxalif olduğu bəyan edilmişdir.

Bu (yanlış) fikir yaxşı iş görən insanla pis iş görən insanı bir sayır və şəriətdə müəyyən olunan vəzifələri və onların mahiyyətini itirir. Halbuki, müqəddəs islam şəriətində heç bir iş cəza və məsuliyyətsiz deyildir. Allah-taala buyurur:

***«Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onun xeyrini görəcəkdir, (mükafatını alacaqdır.) Kim zərrə qədər pis iş görmüşdürsə, onun zərərini görəcəkdir, (cəzasını çəkəcəkdir).***

3. Bəzi müsəlmanların nəzəri bu olubdur ki, (nəuzubillah) Allah-taala öz bəndələrinə gücü və imkanları çatmayan vəzifə və təkliflər müəyyən edə bilər. Onlar öz nəzərlərində bu müqəddəs ayənin yanlış təfsirinə istinad etmişlər. Ayə belədir:

***«Ey rəbbimiz, gücümüz çatmayan vəzifələri bizə daşıtdırma!»****(Bəqərə-286)* [Əllamə Təbatəbai (r.h.) «Əl-mizan fi təfsiril-Quran» adlı təfsir kitabında yuxarıdakı ayənin təfsirində qeyd edibdir ki, Bizim taqətimiz (gücümüz) olmayan şeydən məqsəd, insanı ilk başdan gücü yetişməyən bir şeyə mükəlləf qılınması deyildir. Çünki, bildiyiniz kimi bunu ağıl səhih bilmir və Allah-taalanın Quranda nəql etdiyi «Dedilər ki, biz eşitdik və itaət elədik» sözü də belə bir şeyin iradə olmadığına dəlildir. Bəlkə «Bizim taqətimiz olmayan şeylər»dən məqsəd, insanların elədikləri günahlar nəticəsində onlara və normalda təhəmmül olunmayan təkliflər göydən enən əzab, Məsx olmaq və buna bənzəyən əzablardır.(Əl-mizan təfsiri, 2-ci cild, səh.445)

Amma Əhli-beyt (ə) bu nəzəri rədd edərək izah etmişlər ki, bu anlayış Allahın ədaləti və Qurani-kərimin aşkar ayələri ilə uyğun gəlmir. Çünki, Allah-taala açıqca buyurubdur:

***«Allah heç kəsi qüvvəsi çatmayan işi (görməyə) vadar etməz».*** *(Bəqərə-286)*

Burada Əhli-beytdən (ə) bu mövzuların həqiqəti barəsində nəql olunan bəzi rəvayət və fiqh mübadilələrini qeyd edəcəyik. Bu rəvayətlərdə ilahi ədalətə əsaslanaraq insanın davranışı, rəftarı və insan iradəsi ilə Allah-taalanın iradəsi arasındakı rabitə izah olunmuşdur.

Əhli-beyt (ə) məktəbinə məxsus olan bu izahatda, bu məktəbin əqidə, fikir və ideolgiya birliyi aydın olur, Cəbr, Təfviz və Quranın əsasları ilə uyğun gəlməyən digər nəzəriyyələrin batil olduğu isbat edilir.

Imam Cəfər Sadiq (ə)-dan rəvayət edilmişdir ki, belə buyurdu:

«Həqiqətən Allah məxluqatı yaratdı və onların aqibətlərini də bilir. Onlara əmr və nəhylər edib və əmr etdiyi şeyləri tərk etmək qüdrətini də veribdir. Amma onlar Allahın izni olmazsa, heç bir işi icra və tərk edə bilməzlər». [Üsuli kafi, 1-ci cild, cəbr və qədər babı (Kuleyni)].

Imam Əli ibni Əbi Talib (ə) Müaviyə ilə müharibə etmək üçün Şama gedən zaman öz səhabələrindən biri ilə belə danışıq aparmışdı. O şəxs belə sual etmişdi:

«Ey Əmirəl-möminin! Bilmək istəyirik ki, bizim bu səfərimiz Allahın qəza-qədəri ilədirmi? (Yəni alın yazısı ilə)».

Əmirəl-möminin Əli (ə) cavabında buyurdu:

«Bəli ey yaşlı adam! Allaha and olsun ki, sizlər Allahın təqdiri olmazsa, heç bir addım da yol gedə bilməzsiniz».

Bu vaxt o yaşlı kişi dedi:

«Ey Əmirəl-möminin! Mən səfərdəki zəhmətimi Allahın hesabına qoyuram. (Yəni hər nə iş görsən Ona hesablanır.)

Əmirəl-möminin Əli (ə) buyurdu:

«Vay olsun sənə! Sən elə zənn edirsən ki, bu mütləq bir qəza və mütləq bir qədərdir? Əgər belə olarsa, o zaman savab və əzab vədələri batil olar.(Mənasız olar)».

Və (Allahın yaxşılara cənnət) vədə verməsi və ya (yoldan çıxanları) əzabından qorxutması, mənasız olar.(Və günahkar olanı) tənqid etmək və xeyirxahları tərifləmək və onlara təşəkkür etmək əbəs olardı.

***Həqiqətən Allah-taala öz bəndələrini (ixtiyar sahibi olduqları üçün), öz əmrləri ilə yaxşı işləri görməyə əmr etmiş və nəhyləri ilə pis işlərdən çəkindirmişdir. Onun bəndələrin üzərinə qoyduğu vəzifələr çətin yox, asandır. Və az əməlin müqabilində çox mükafat verəcəkdir.***

***Allahın əmrlərinin icra olunması, Onun məğlubiyyətinə səbəb olmadığı kimi, edilən itaət də bəndənin məcburi olması üçün deyildir.***

O, göyləri, yeri və onların arasında olan mövcudatı, boş yerə yaratmayıb və əbədi əzab və nemətlərin müjdəçisi olan peyğəmbərləri əbəs yerə göndərməmişdir. Bu (dünyanın və s. boş yerə yaranması) küfr edənlərin düşüncələridir. Bəs, vay olsun kafirlərə cəhənnəm atəşindən». [Nəhcül-bəlağə (Sohi salehin tədqiq etdiyi çap, səh.481)]

Imam Riza (ə)-dan nəql olubdur ki, Onun yanında söz Cəbr və Təfviz məsələsindən düşdü. Imam (ə) belə buyurdu:

«Bu barədə sizə mübahisəyə ehtiyacı olmayan bir əsas deyim ki, kim onu qəbul etməyib sizinlə müxalifət eləsə, onu məğlub edə biləsiniz?»

Dedik ki, əgər münasib bilirsinizsə buyurun. Həzrət (ə) buyurdu:

«Həqiqətən izzət və cəlal sahibi olan Allaha itaət etmək, zorla və çarəsizlikdən deyildir və eləcə də günah etmək bəndələrin Onun iradəsinə qələbə çalması ilə olmayıb. O, öz mülkündə bəndələri öz başlarına buraxmamışdır. Allah onlara verdiklərinin sahibidir. Və onlara verdiyi gücü öz qüdrətilə dəstəkləmişdir. Əgər bəndələr Ona itaət edərlərsə, Allah onlara mane olmaz. Eyni zamanda ona günah etmək yolunu tutduqları halda, əgər Allah onların qabağını almaq istəsə, alar. Amma, əgər istəməzsə, bu heç də onları günaha vadar etmək sayılmaz».

Sonra buyurdu:

«Hər kəs bu sözün məna və həqiqətini öyrənsə, müxaliflərə cavab verə bilər». [Əl-mizan təfsiri 1-ci cild, Cəbr və Təfviz bəhsi. Əl-mizan da bu hədisi Şeyx Səduq (rə)-ının «Ət-tövhid» və «Üyunü əxbarü-Rza» kitabından nəql etmişdir.]

Şeyx Müfid (r.ə.) yazdığı «Şərhül-əqaid» kitabında deyibdir:

«Imam Əliyyən Nəqi (ə)-dan nəql olunubdur ki, o Həzrətdən (ə) insanların işlərinin Allah-taala tərəfindən yaranıb-yaranmaması haqqında sual olundu. Imam (ə) belə buyurdu:

«Əgər insanın işləri özündən aslı olmayaraq Allah tərəfindən törənsəydi, Allah o işlərdən uzaq olduğunu elan etməzdi. Halbuki, Allah-taala buyurubdur: «Həqiqətən Allah müşriklərdən uzaqdır». Bu ayədə Allah-taala müşriklərin özlərindən «bəri» olduğunu deyil, onların şirklərindən və pis işlərindən uzaq olduğunu nəzərdə tutmuşdur. [Əl-mizan təfsiri, Cəbr və Təfviz bəhsi, Əllamə Təbatəbai (r.ə.)].

«Ət-tövhid» kitabında da Məhmməd ibni Əclandan nəql olunubdur ki, o belə dedi:

«Mən imam Cəfər Sadiq (ə)-a dedim ki, Allah hər şeyi bəndələrin öz ixtiyarına buraxıbdır?»

Imam (ə) buyurdu:

«Allahın kərəm və məqamı hər şeyi bəndələrin ixtiyarına buraxmaqdan daha ucadır. Dedim ki, elə isə Allah öz bəndələrini gördükləri işlərə məcbur edibdir. Buyurdu ki, Allahın ədaləti bundan daha ucadır ki, bəndəni bir işə məcbur edə və sonra da ondan ötrü onu cəzalandıra». [Zikr edilən qaynaq].

Və (Uyunu əxbarülr-rza) adlı kitabında da «Allah onları (heç bir şeyi) görməyəcəkləri bir qaranlıqda buraxdı», ayəsinin təfsiri barəsində imam Riza (ə)-ın belə buyurduğu nəql olunubdur:

«Tərk etmək və özbaşına buraxmaq məfhumları xalqa aid olduğu kimi, Allaha nisbət verilməz. Amma, Allah-taala bəzi bəndələrinin küfr və zəlalətindən qayıtamayacaqlarını bildiyi üçün onlara yardım və lütfünü şamil etməmiş və seçdikləri işlərində onların qarşısını almamışdır». [Zikr edilən qaynaq].

Yenə «Uyunu əxbarür-riza»kitabında «Allah onların qəlblərinə möhür vurmuşdur» ayəsinin təfsir-ində imam Riza (ə)-ın belə buyurduğu söylənilmişdir:

«Bu ayədə işlənən «xətm» (möhür) sözündən məqsəd, kafirlərin öz küfrlərinin cəzası olaraq, qəlblərinin möhürlənməsi (öz təbiətini itirib ayrı bir təbiət alması) olmuşdur. Onların bir hissəsi istisna olmaqla, qalanları iman gətirməyəcəklər».

Göründüyü kimi Əhli-beyt (ə)-ın məktəbində Allaha aid olan hidayət və zəlalət məfhumları insanların ixtiyarını inkar etmək mənasında deyildir. Bu məktəb nöqteyi-nəzərindən insan həqiqi mənada ixtiyar və iradəyə malikdir və bu cəhətdən də gördüyü bütün işlərdə məsuliyyət daşıyır. Çünki, Allah insanı həm iradəli yaratmış və həm də ona xeyir və şər yollarının nə olduğunu açıq-aydın bəyan etmişdir. Allah-taala Qurani-kərimdə buyurub:

***«Biz ona haqq yolu göstərdik. Istər (nemətlərimizə) minnətdar olsun, istər nankor. (Bu onun***

***öz işidir)».*** *(Insan-3)*

Və yenə buyurub:

***«Və Biz ona hər iki yolu da göstərdik».***

Həzrət Rəsuli-əkrəm (s) bu ayəni belə təfsir etmişdir:

«Bu iki yol xeyir və şər yollarıdır. Sizlər çalışın ki, şər yolu sizin üçün xeyir yolundan sevimli və əziz olmasın».

Əhli-beyt (ə)-ın insanın rəftar və davaranışı və eləcə də insanda baş verən xeyir və şərlərin izahında bəyan etdikləri üsul və əsasın xülasəsi bu cümlədə dərc olunmuşdur:

«Nə Cəbr doğrudur və nə də Təfviz. Həqiqət bu iki mərhələnin arasında yerləşən ortaq bir nöqtədir».

Əhli-beyt (ə)-ın birindən «Cəbr vəTəfvizin arasında bir ortaq yer varmı?» deyə sual edilən zaman belə buyurmuşdur:

«Bu iki fikrin arasında günəşlə yerin arasında olan məsafə qədər bir orta mənzil vardır».

Bu məsələ Əhli-beyt (ə)-ın cəbr və ixtiyar mövzusu barəsində bəyan etdikləri əsasın qısa şəkildə olan izahı idi ki, müsəlmanlar onu o müqəddəslərdən öyrənib inanmışlar.

## ***ƏHLİ-BEYT (Ə) VƏ AZĞIN FİRQƏLƏR***

Haqqı batildən ayırmaq üçün meyar olan Əhli-beyt (ə)-ın aşkar davranış və əməllərinə diqqət yetirməyən bəzi düşmənlər özlərinə mövqe qazanmaq, yaxud da islam dininə və Şiəliyə zərbə vurmaq üçün çox təhlükəli bir üsluba əl atmışlar.

Onlar özlərini Əhli-beyt (ə)-ın ən yaxın dostları kimi göstərərək öz batil əqidə və qeyri-həqiqi fikirlərini müsəlmanlar arasında yaymağa çalışmışlar.

Məsələn, bəziləri Allah-taalanın Əhli-beyt (ə)-ın cismlərində hülul etdiyini (yəni, onların cismlərinə qarışdığını ) deyərək, (nəuzubillah) «Uluhiyyə» (rəbblik) məqamını Əhli-beyt (ə)-a aid etmiş və ya Allahın öz işlərini Əhli-beyt (ə)-ın ixtiyarında qoyması və sairə bu kimi insanları batil və zəlalətə doğru çəkən fikirləri yaymaq istəmişlər.

Onlar Əhli-beyt (ə)-ın adına yalan sözlər düzəldərək bəzi yalan rəvayətlər söyləmiş və müsəlmanlar arasında şübhələrini nəşr etməyə çalışmışlar.

Buna görə də Şeyx Tusi və Nəcaşi kimi böyük alimlər hədis rəvayət edən şəxsləri və onların hansına etimad edilə biləcəyini bildirən kitablar yazmışlar. Bunlar «Rical» kitabları adlanırlar. Məsələn Şeyx Tusinin «Rical» və «Fehrist» kitabları və ya Nəcaşinin «Rical» kitabı bu mövzuda yazılan əsərlərdəndir.

Xülasə, tarixdə qeyd olunduğuna görə, həqiqi şiələrin kənarında özlərini yalandan Əhli-beyt (ə)-a sadiq göstərən, amma həqiqətdə Əhli-beyt (ə)-ın etiqad etdiyi məsələlərə inanmayan və onların əməl etdiyi işlərə əməl etməyən bəzi zəlalətə və azğınlığa düşmüş firqələr var idi ki, bunlar ümumən «Ğulat» adı ilə tanınırdılar. Əhli-beyt (ə) bunları özlərindən uzaqlaşdırmış və onlara lənət demişlər. Şiə alimləri də Əhli-beyt (ə)-a Allahlıq nisbət verən şəxslərin murdar olduqlarını bəyan etmişlər. Əlbəttə bu firqələrdən bəziləri bu gün də bəzi yelərdə mövcuddur.

Növbəxti «Firəqüş-şiə» adlı kitabında «Ğulat»dan olan bir çox firqələrin adını çəkərək, Əhli-beyt (ə)-ın onlara qarşı olan mövqe və nəzərini qeyd etmişdir. [Əbu Məhəmməd Həsən ibni Musa Növbəxti şiənin 3-cü hicri əsrindəki böyük alimlərindəndir.]

Burada onun bu barədə olan sözlərindən bir hissəsini qısa şəkildə nəql edəcəyik:

«Amma Əbul-Xəttab Məhəmmədin ardıcılları və ona tabe olanlar imam Cəfər Sadiq (ə)-ın ona (Əbul-Xəttaba) lənət söylədiyini eşidəndə, onun ətrafından dağılaraq neçə dəstəyə bölündülər. Bunlardan bir firqə deyibdir ki, imam Cəfər Sadiq (ə) (nəuzubillah) Allah, Əbul-Xəttab isə peyğəmbərdir. Bir firqə də deyibdir ki, imam Cəfər Sadiq (ə) Allah və bir nurdur ki, Peyğəmbərin (s) canişinlərinin bədənlərinə daxil olur. Bu nur imam Cəfər Sadiq (ə)-dan xaric olduqdan sonra Əbul-Xəttabın bədəninə girmişdir» [Firəqüş-şiə, səh.46 (Növbəxti)]

Sonra Növbəxti belə davam edir:

«Bunlar özlərini şiə bilib, ğülüvvə düşən firqələrdir ki, Xürrəmilik, Məzdək [Məzdək firqəsi əski Iranda vücuda gəlmiş bir firqədir. Bu firqə «Ənuşirəvan»ın babası «Qübad»ın şahlığı zamanında «Məzdək» adlı bir şəxs

tərəfindən icad edilmiş və kitablarının adı «Distav»dır. Onlar da Manəvi firqəsi kimi nur və zülmət olaraq iki ilah olduğunu iddia etmişdir. Ibni Nədimin «Fehrist» kitabına baxa bilərsiniz.] Zindiq [Zindiqlər: onlardırlar ki, fikir hürriyyəti adı altında ilahi dinləri inkar etmişdirlər.] və Dəhriyyənin [Dəhrilər: Mülhid və inkarçı firqələrdəndir və aləmin bir yaradıcısının olmadığını və bu aləmdəki nizamın öz başına mövcud olduğunu iddia edirlər.] yolunu davam etdirirlər. Bunların hamısı Allah-taalanın «Rübubiyyətini» inkar etmək və Onun bir nur və ruh kimi bir məxluqun bədəninə daxil olaraq qarışdığını və bir bədəndən digər bədənə keçdiyini iddia edirlər. Əlbəttə bu firqələr, tabe olduqları başçılar cəhətindən bir-birlərindən ayrılırlar və hətta bir-birləri ilə düşmənçilik də edirlər». [Zikr edilən mənbə səh.60].

Növbəxti daha sonra zəlalətə dümüş firqlərədən bəzilərinin qərəzli olduqlarını nəql edir. Məsələn, bu firqələrdən biri həzrət imam Əli (ə)-ın oğlu Məhəmməd ibni Hənəfiyyənin «Məhdi» olduğunu və onun ölmədiyini və ölməyəcəyini demişlər. Onlar onun bir gün qalib gələcəyini, yer kürəsinin hər bir tərəfinə hakim olacağını və ondan sonra bir imamın olmayacığı fikrini yaymışlar. Bunların başçısı Ibni Kərb adlı bir şəxsdir. [Zikr edilən qaynaq səh.44]

Sonra qeyd edir ki, Həmzə ibni Əmmar Bərbəri də bu firqədən idi. Mədinəli olan bu şəxs sonralar bu firqədən ayrılıb özünün imam və peyğəmbər və Məhəmməd ibni Hənəfənin (nəuzubillah) Allah olduğunu iddia etdi... Və Mədinə və Kufə əhalisindən bəziləri də ona tabe oldular. Imam Məhəmməd Baqir (ə) ona lənət oxuyub ondan uzaq olduğunu elan etdi. Şiələr də bu şəxsdən uzaq olduqlarını elan etdilər». [Zikr edilən qaynaq səh.45]

Eləcə də imam Sadiq (ə) da bu firqəyə tabe olan Said Nəhdiyə lənət oxumuş və onu şeytanlardan saymışdır. Bir ayrı rəvayətə görə də imam Cəfər Sadiq (ə) adı çəkilən şəxsi, imamın dilindən yalan rəvayətlər uyduranlardan olduğunu bildirmişdir. [Zikr edilən qaynaq səh.45]

Aşağıda şiə alimlərinin imam Sadiq (ə)-dan zəlalətə düşən «Ğulat» firqələri barəsində nəql etdikləri açıq nəzərlərini və imamın onlara lənət oxuyaraq, onları özündən uzaqlaşdırdığı barədə söylənən sözləri qısa bir şəkildə nəql edəcəyik.

Ibni Nədim «Fehrest» adlı kitabında yazır ki, «imam Cəfər Sadiq (ə) Said Nəhdiyə lənət söyləyərək buyurubdur ki, ***«Onun bəsirət gözü kordur...»*** Kəşşi də onun Imam (ə) tərəfindən pislənməsini bildirən rəvayətlər nəql etmişdir. [Zikr edilən qaynaq səh.21]

Imam Cəfər Sadiq (ə)-ın lənətlədiyi şəxslərdən biri də Ğulat tayfasından olan Əbu Mənsur Əcladır. Kəşşi öz «Rical» kitabında (səh.196) yazır ki, imam Cəfər Sadiq (ə) bu şəxsə üç dəfə lənət oxuyubdur. Hişam ibni Əbdül Məlikin səltənəti vaxtında Iraqın hakimi Yusif ibni Ömər Səqəfi onu edam etdirmişdir. [Zikr edilən qaynaq səh.38]

Bu qeyd olunan firqələrdən başqa yenə bir çox «Ğulat» firqələri vardır ki, imam Cəfər Sadiq (ə) onlardan uzaq olduğunu bildirmiş və hətta onların bəzilərinə lənət oxumuşdur.

Seyyid Məhəmməd Sadiq Ali Bəhrül-ülum, «Firəqüş-şiə» kitabının haşiyəsində qeyd edibdir:

«Imam Cəfər Sadiq (ə) Bəzi ibni Musa Haik, Müğəyrə ibni Səid, Səri, Əbul-xəttab, Məhəmməd ibni Əbi Zeynəb, Müəmmər, Bəşşar Şəiri, Həmzə Bərbəri və Said Nəhdiyə belə lənət oxumuşdur:

«Allah onlara lənət eləsin; Biz (əhli-beyt) həmişə adımıza söylənən yalanlara, yalançılara və ya ağlı zəif olan insanların hücumlarına məruz qalmışıq. Allah bizləri yalançıların şərindən qurtarsın və onlara isti dəmir göstərsin» (Yəni, onları qızarmış dəmirlə cəzalandırsın). [Zikr edilən qaynaq səh.43]

Yenə imam Cəfər Sadiq (ə)-dan, onun Ğulatdan uzaq olduğunu elan etmək barəsində belə nəql olunubdur:

«Ey şiələr, Ali Məhəmmədin şiələri, orta mövqe tutun ki, ğülüvvə düşən (Əhli-beyti öz məqamından yuxarıya çıxaran) sizə tərəf qayıtsın və (onların məqamını tanımaqda) sizdən geri qalanlar da sizə yetişsin».

Səd adlı bir şəxs imam Cəfər Sadiq (ə)-a dedi ki, «Ğali» (ğülüvvə düşən) kimdir? Imam (ə) buyurdu:

«Onlar bir dəstədirlər ki, bizim öz haqqımızda demədiyimiz şeyi (özümüzə aid etmədiyimiz məqamı) bizim haqqımızda deyərlər. Onlar bizdən deyillər və biz də onlardan deyilik».

O şəxs dedi ki, bəs «Tali» (geridə qalan) kimdir? Imam buyurdu:

«O, xeyiri istəyəndir ki, xeyirə çatar və onun qarşısında (Allah tərəfindən) mükafat alar». [Müşkatül-ənvar fi Ğürərül-əxbar səh. 66 (Təbərsi)]

Səhabələrdən biri deyir: «Imam Cəfər Sadiq (ə)-a Əbul-Xəttabın onun haqqında dediyi sözlər nəql

olunanda, gördüm ki, imam Sadiq (ə)-ın gözlərindən yaş axır və belə deyir:

«Ey mənim Rəbbim, «Bəni-Əsəd»in nökəri olan Əcdəin (Əbul-Xəttabın) mənim haqqımda etdiyi iddiadan uzaq olduğumu Sənə bildirirəm, (Sənə sığınıram). Mənim tüküm və dərim də belə sənə boyun əyir. Mən sənin bəndən və sənin bəndənin oğluyam və (mən sənin müqabilində) itaətkar və zəliləm».

Sonra başını aşağı salıb ahəstə nə isə dedi, sonra başını qaldırıb buyurdu:

«Bəli, bəli, öz Rəbbinə xüzu-xüşu edən (boyun əyən) kiçik və zəlil bir qulam. Mən öz Rəbbinin müqabilində torpağa sarılmış və qorxaq (bir bəndəyəm). And olsun Allaha ki, mənim bir «Rəbb»im vardır. Hansı ki, Ona ibadət edirəm və Ona heç bir şeyi şərik tutmaram. Allah onu (Allahlıq məqamını mənə nisbət verdiyi üçün) xar eləsin və onun qəlbinə qorxu salsın ki, qiyamət günü qorxusunu rahatlığa dəyişməsin...

Nə peyğməbərlərin, nə rəsulların və nə də mənim Təlbiyəm (ləbbeyk deməyim) belə deyildir (yəni Əcdədin dediyi kimi deyildir.) Mən belə Təlbiyə deməmişəm». [Biharul-ənvar, 47-ci cild, səh.378 (Əllamə Məclisi)]

Sədirdən də rəvayət olunubdur ki, mən imam Cəfər Sadiq (ə)-a dedim:

«Bir dəstə insan sizlərin ilahi olduğunuzu xəyal edir və bu barədə bizə Quran ayəsini oxuyurlar ki, Allah buyurub: «O (Allah) elə bir kəsdir ki, həm göydə və həm də ilahdır». Imam (ə) buyurdu:

«Ey Sədir! Mənim qulağım, gözüm, dərim, ətim, qanım, tüküm onlardan uzaqdır və Allah da onlardan uzaqdır. Onlar mənim və mənim babalarımın dinində deyillər. And olsun Allaha ki, Qiyamət günü Allah məni və onları bir yerə toplayanda qəzəb edəcəkdir». [Üsuli kafi 1-ci cild səh.269, (Küleyni)]

Bəzi dəstələr imam Məhəmməd Baqir və imam Cəfər Sadiq (ə)-ın adlarına yalan uydurduqları və o iki imam bunlardan uzaq olduqlarını söylədikləri kimi, bəzi firqələr də imam Musa Kazim (ə)-a vəfat etdikdən sonra yalan nisbətlər vermişlər. Məsələn, demişlər ki, imam Musa Kazim (ə) vəfat etməyibdir. O, həzrət Isa (ə) kimi göyə aparılıb və bir müddətdən sonra yenə qayıdacaq. Imam Musa Kazim (ə)-ın oğlu imam Riza (ə)-da bunlardan uzaq olduğunu bəyan etmiş və onlara lənət etmişdir. Beləcə Əhli-beyt (ə) bu firqələrdən narazıdırlar və onlara nifrət edirlər. Amma imam Cəfər Sadiq (ə)-ın buyurduğu kimi, Əhli-beyt (ə) məktəbini yıxmaq üçün hər bir dövrdə daimi olaraq Əhli-beyt (ə)-a yalan nisbətlər verən yalançılar mövcud olacaqdır.

Əlbəttə, Əhli-beyt (ə)-ın onların müqabilində açıq-aşkar əks mövqe tutmaları və onlardan uzaq olduqlarını elan etmələri, onlara Əhli-beyt (ə)-ın məktəbini ləkələndirmək kimi pis hədəflərinə mane olmuşdur.

Burada qeyd etmək lazımdır ki, bu firqələrdən çoxu Allahın lütf və kərəmi nəticəsində yox olub gediblər və tarixdə onların pis adlarından başqa bir şey qalmayıb...

Amma təəccüblüdür ki, qəlblərində çirkin niyyətləri olan bəzi şəxslər həqiqətləri ayrı cür göstərməyə çalışaraq Əhli-beyt (ə) məktəbini, o firqələrin xurafat və batil inancları ilə ittiham etmək istəyirlər. Bunlar Əhli-beyt (ə) məktəbinə tabe olanları rədd olunan və batil «Ğulat» firqələrinin tabeləri kimi göstərməyə və bu yollla xalqın Əhli-beyt (ə) məktəbinə olan meylini qırmağa səy edirlər. Buna görə də müsəlmanların vəhdətini aradan aparmaq və həqiqətləri ayrı cür göstərməyə çalışanların bu kimi mürtəce və təhlükəli plan və oyunları müqabilində müsəlmanları oyatmaq lazımdır...

Bu yalanları yayanların özlərinə diqqət olunsa, məlum olar ki, onlar Əhli-beyt (ə)-ın məktəbi haqqında belə yalanları yaymaqla bərabər özlərini himayət etdikləri bəzi məzhəbləri müdafiə edirlər. Məsələn, «Cəbr» və «Təcəssüm» məsələsi kimi ki, onlar Allahın cism olduğuna Onun bir kürsü üstündə oturduğuna, kürsünün eninin yeddi qarış olduğuna, Allahın qiyamət günü ayağını cəhənnəmə daxil edib cəhənnəmin atəşini azaldacağına və Allahın (nəuzubillah) fil və ya eşşək üstündə oturub göydən yerə endiyinə inanırlar.

Bunların tövhid əqidəsinə müxalif və batil inam olmasına baxmayaraq, onlar bu barədə heç bir şey deməzlər. Bu da göstərir ki, öz təriqətlərində bu kimi mürtəce əqidələri qoyub, Əhli-beyt (ə)-ın məktəbinə dil uzadanların məqsədləri həqiqətləri ayrı cür göstərmək və islama zərbə vurmaqdır.

## ƏHLİ-BEYT (Ə)-İN ÖZ SƏHABƏLƏRİNƏ QARŞI TƏRBİYƏ ÜSULLARI

Imam Cəfər Sadiq (ə) buyurmuşdur:

«Həqiqətən mən sevirəm ki, bir adam Peyğəmbərin (s) xislətlərindən (sünnələrindən) birini belə icra etmədiyi halda dünyadan getsin, (yəni, insan çalışmalıdır ki, Peyğəmbərin (s) gördüyü və ya görülməsini məsləhət etdiyi işləri ən azı ömründə bir dəfə yerinə yetirsin)». [Məkarimül-əxlaq səh.39 (Təbərsi)]

Əhli-beyt (ə) öz səhabə və tələbələrinin tərbiyə və təliminə xüsusi bir maraq göstərirdi. Yəni öz dostlarının yaşayış tərzində islami əqidə, əxlaq və əhkamın həqiqi bir şəkildə tətbiq olunmasına və əməldə özünü göstərməsinə əhəmiyyət verirdilər.

Onlar səy edirdilər ki, ümmət arasında hidayət məşəlini daşıya bilən, xalqın içərisində alim, xeyirxah və haqqa bağlı olan sədaqətli şəxsiyyətlər vücuda gətirsinlər. Elə şəxsiyyətlər ki, fəsad, pozğunluq amillərinin çoxaldığı bir vəziyyətdə xalqın süqut etməsinin qarşısını alsın və haqq əleyhinə aparılan mübarizələri dəf edərək, islah qiyamları vücuda gətirə bilsinlər. Biz bu həqiqətlərin Əhli-beyt (ə)-ın davranış və əxlaqlarında, söz və əməllərində aşkar olmasını görürük. Onların tövsiyə və nəsihətlərində bu məsələyə yüksək əhəmiyyət verdikləri aşkardır. Məsələn, islamı təhrif edib əhli-beyt məktəbini yıxmaq istəyən bəzi şəxslər, təkcə Əhli-beyt (ə)-ın məhəbbətinin insana kifayət etmədiyini və Allah əmrlərinə əməl etməyin və dinin əhkamına bağlı olmağın zəruri və lazım olmadığını yaymaq istəyirdilər. Imam Məhəmməd Baqir (ə) onlara buyurdu:

«Hər bir müsəlman doğru bir əqidə ilə Quranın gətirdiyi, Peyğəmbərin (s) bəyan etdiyi və ömür boyu əməl etdiyi işləri icra etməlidir».

Imam Məhəmməd Baqir (ə) bu barədə buyurubdur:

«And olsun Allaha ki, bizim vücudumuz sizi Allahın əzabından qurtarmayacadır. Bizim ilə Allah arasında nə bir qohumluq və nə də onun müqabilində bir höccətimiz yoxdur.(Yəni, bir nəfəri cəhənnəmə atsa, bizim əlimizdə bir sübut yoxdur ki, onu qurtarmaq üçün Allaha göstərək). Fəqət, insan itaət etməklə Allaha yaxın ola bilər. Sizlərdən kim (Allahın əmrlərinə) itaətkar olsa, bizim vilayətimiz ona fayda verər. Əgər bir kəs üsyan edərsə, (yəni, Allahın əmrləri ilə müxalifət edərsə) bizim vilayətimiz ona bir fayda verməz». [Zikr edilən qaynaq səh.67 (Təbərsi)]

Yenə Əmr ibni Səid ibni Hilal da rəvayət edibdir ki:

«Mən imam Məhəmməd Baqir (ə)-a dedim ki, sənə fəda olum, mən səni neçə ildə ancaq bir dəfə görə bilirəm. Mənə bir vəsiyyət elə ki, ona daim əməl edim». O Həzrət, mənə belə buyurdu:

«Mən sənə Allahın təqvasını (Allahdan qorxmağı), vərə (günahlardan çəkinməyi) və bəndəlik etməkdə çalışmağı vəsiyyət edirəm. Bil ki, «vərə» bəndəlikdə çalışmaqla birlikdə olmasa, bir faydası olmaz...» [Zikr edilən qaynaq səh.66]

Imam Cəfər Sadiq (ə)-ın öz səhabələrindən olan Əbu Osaməyə, digər şiələrə də çatdırılmasını istədiyi vəsiyyətin bir hissəsi belədir:

«(Ey şiələr!) Allahdan qorxun və biz Əhli-beytə eyb yox, zinət olun. Xalqın məhəbbətini bizə cəlb edin və bizi hər cür pislikdən uzaq bilin... Bizim, Allahın kitabında (bəyan edilmiş) haqqımız, Onun Peyğəmbərinə əqrəbalığımız, pərvərdigar tərəfindən müqəddəsliyimz (hər cürə pislikdən uzaq və pak olmağımız) və pak bir vilayətimiz vardır. Hər kəs bunların bizdən ayrı olmasını iddia edərsə, yalançıdır. Allahı və ölümü yad eləməyi, Quranı tilavət eləməyi və Peyğəmbərə (s) salavat göndərməyi mümkün qədər çoxaldın. Çünki, Peyğəmbərə (s) salavat göndərməyin on savabı vardır». [Zikr edilən qaynaq]

Imam Cəfər Sadiq (ə) öz səhabələrindən olan Ismail ibni Əmmara da belə vəsiyyət edibdir:

«Mən sənə Allahdan qorxmağı (təqvalı olmağı), «vərəli» olmağı (haramlardan çəkinməyi), doğru danışmağı, əmanətə sadiq olmağı, (qonşuların ilə) yaxşı qonşuluq etməyi və çox səcdə etməyi vəsiyyət edirəm. Bu işləri görməyi Məhəmməd (s) bizlərə əmr edibdir».

Hişam ibni Salim də rəvayət edibdir ki:

«Imam Cəfər Sadiq (ə)-ın Həmrana belə buyurduğunu eşitdim:

«(Dünyanın mal və sərvətində) özündən aşağıya bax, özündən yuxarı olana baxma. Bu sənin üçün öz qismətindən qane olmağa və Allahdan daha artıq (ruziyə) layiq olmağına vasitə olar. Bunu da bil ki, yəqin ilə olan daimi və az əməl Allah yanında yəqinsiz olan daimi əməldən daha yaxşıdır. Həmçinin bilməlisən ki, Allahın haram etdiyi işlərdən çəkinməkdən, müsəlmanlara əziyyət etməməkdən və onların qeybətlərini danışmamaqdan faydalı bir «vərə» (çəkinmək) olmaz. Eləcədə heç bir şey gözəl əxlaq kimi qiymətli, heç bir mal insaniyyətdən və az mala qane olmaqdan faydalı və heç bir cəhalət özünü bəyənmək kimi pis və acı deyildir». [Zikr edilən qaynaq səh.72]

Imam Cəfər Sadiq (ə) möminlərin xüsusiyyətləri barədə Həzrət Peyğəmbərdən (s) rəvayət etmişdir ki:

«Hər kim gördüyü pis işdən narahat olsa və yaxşı işlər etsə, mömindir». [Zikr edilən qaynaq səh.77]

Bunlar kimi onlarla, bəlkə yüzlərlə mövcud olan hədislərdən anlaşılır ki, Əhli-beyt (ə) ümmətinin fərdləri bütün cəmiyyətlərdə nümunəvi insanlar kimi tərbiyə olunmaqda çalışıblar. Onların saleh və nümunəvi insanlar yetişdirməkdəki üslublarının əsas mehvəri, məhz Allahın kitabına və Peyğəmbərin (s) sünnəsinə həqiqi mənada bağlı olmağın vacibliyi və ictimai həyatı bu mehvər əsasında qurmaqdır. Beləliklə, hər bir müsəlmanın üzərinə düşən vəzifə odur ki, haqq yolunu tapa bilmək üçün, onların hər cür şübhə və şəkdən uzaq olan hidayətlərinə inansınlar və vəsiyyətlərinə əməl etsinlər.

## ƏHLİ-BEYT (Ə)-İN SİYASİ FƏALİYYƏTLƏRİ

Əhli-beyt (ə)-ın məqamları və onların cəmiyyətə lazım olan ictimai-siyasi məsələlərdə fəaliyyət göstərməkləri müsəlmanlara az-çox məlum idi. Buna görə də Əhli-beyt (ə) islamın siyasi tarixində müntəzəm olaraq fəaliyyət göstərmiş və çox mühüm rol və təsirə malik olmuşlar. Əhli-beyt (ə) həmişə Peyğəmbəri-əkrəmdən (s) sonra meydana gələn xurafatlara qarşı islam hökmlərini icra etmək və ədalətin hakim olması üçün aparılan mübarizələrin ön cərgəsində olmuşlar.

Islamın siyasi tarixini tədqiq edənlərin nəzərində aşkardır ki, Peyğəmbərin (s) vəfatından qısa bir müddət sonra xilafət və islam ümmətinin idarəsi məxsus sülalələrin əlində olan səltənətlərə çevrildi. Bu səltənətlərdə islam hökmlərinin icrası dondurulub bir kənara qoyuldu və xilafət məqamı mal toplamaq və mənsəb əldə etmək vasitəsinə döndərildi. Bununla da xalqa hər cür zülm və haqsızlıq rəva görüldü.

Islam dininin bir oyuncağa çevrilməsi səbəb oldu ki, çox qiyamlar vücuda gələ və nahaq yerə qanlar tökülə və təfriqə, fitnə çoxala. Hətta, düşmənlər bu fürsətdən istifadə edərək, qeyri həqiqi fikirlər yaymaqla islamı bünövrədən yox etmək istəyirdilər. Məsələn, dindəki haramları halal elan edən, mal və qanuni nikahı inkar edən və vacibatı saya salmayan «Qəramətə», «Məzdəkiyə» və «Xürrəmdiniyə» kimi inamlar yarandı. Bəziləri də tamamilə hərc-mərcliyə və qan tökməyə dəvət edirdilər və özlərindən başqa hamını kafir bilirdilər. Bunlar tarixdə «xəvaric» adı ilə məşhurdurlar.

Bu zülmlərin və ilahi hökmlərin mahiyyətinin dəyişdirilməsinin müqabilində ümmətin rastlaşdığı dəyişiklik və fikri iztirab, çalışmalar və müharibələrin qarşısında islamın doğru yolunu, haqq məktəbini bütün şəraitlərdə açıq bir şəkildə işıqlandıran və saleh müsəlmanların rəhbərliyini öhdələrinə alan yalnız Əhli-beyt (ə) olmuşdur.

Bu bəhsimizdə müxtəsər bir şəkildə Əhli-beyt (ə)-ın siyasi sahədə təqib etdikləri hədəf və üslublardan söz açmağa çalışacağıq.

## ƏHLİ-BEYT (Ə)-İN SİYASİ SƏHNƏLƏRDƏ MÖVQEYİ

Hər kim Əhli-beyt (ə)-ın təxminən iki əsr yarım (islamın yaranışından Imam Zaman (ə)-ın qeyb olmasına qədər keçən müddət) boyunca siyasi həyat və mübarizələrini mütaliə edərsə, görər ki, Əhli-beyt (ə)-ın siyasi səhnədəki fəaliyyət və davranışları bu prinsiplərə əsaslanır:

1. Ümməti zülm və zalıma qarşı barışmaz etmək, ədalət məfhumunun əhəmiyyətini bildirmək, imamət məntiqini aydınlaşdırmaq və islamda dövlət və onun idarə olunmasını, yəni islam siyasətinin əsaslarını açıqlamaq.

Bunlardan məqsəd islam ümmətində siyasi şüur və biliyi o dərəcəyə yetişdirmək idi ki, zalımlara düşmən kəsilmək və islamın istədiyi imamın rəhbərliyi ilə ədalət hökumətini bərqərar etməyə doğru hərəkət etsinlər. Əhli-beyt (ə)-dan bu barədə nəql olunan sözlər və onların tarixdə səbt olunan davranışları və Peyğəmbəri-Əkrəmdən (s) nəql etdikləri hədislər onların müsəlmanlarda siyasi hissi oyatmaq və onlara islami şüur və idrakı vermək yolunda atdıqları addımların əhəmiyyətini göstərir...

Burada Əhli-beyt (ə)-ın zülmün qarşısında dayanması və siyasi durğunluğu hərəkətə gətirərək ümmətdə islahatçılıq ruhunu yerləşdirmək barəsindəki fikirləri ilə tanış olmaq üçün onlardan gələn hədis və rəvayətlərdən bir qisminə qısa şəkildə işarə edəcəyik:

«Nəxə qəbiləsindən olan bir yaşlı şəxsdən belə nəql olunubdur: Mən imam Məhəmməd Baqir (ə)-a

dedim ki, bir çox müddət Həccac tərəfindən Vali təyin olunmuşdum. Indi görəsən mənim tövbəm qəbul olar? Imam (ə) bir şey buyurmadı. Mən sualı təkrar etdim. Buyurdu:

«Hər haqq sahibinin haqqını özünə yetirməyənə qədər, yox!»

Əbu Həmzə Somali də imam Məhəmməd Baqir (ə)-dan nəql edibdir ki, babası imam Zeynül-abidin (ə)-ın vəfat zamanı yaxınlaşanda onu bağrına basıb belə deyibdir:

«Ey oğul, sənə babamın vəfat elədiyi vaxtda mənə elədiyi vəsiyyəti edirəm. O da budur: Ey oğul Allahdan başqa heç kimi olmayan bir şəxsə zülm etməkdən uzaq dur». [Üsuli kafi 2-ci cild, zülm qismi (Küleyni)]

Və imam Sadiq (ə)-dan da nəql olubdur ki, belə buyurubdur:

«Heç bir zülm Allahdan ayrı bir kəsi olmayan şəxsə edilən zülmdən daha çətin deyildir».

Və yenə imam Sadiq (ə) cəddi Rəsulullahın belə buyurduğunu nəql edibdir:

«Zülm etməkdən uzaq durun ki, (bu dünyada) zülm etmək qaranlığdır». Yəni, qiyamət günü qaranlıqlarda qalmağa səbəb olar).

Yenə imam Cəfər Sadiq (ə)-dan nəql olunubdur ki, belə buyurdu:

«Izzət və cəlal sahibi olan Allah bir zalımın hökumət etdiyi məmləkətdə yaşayan, öz peyğəmbərlərindən birinə vəhy elədi ki, get o zalıma de ki, Allah belə buyurur: «Mən səni qan tökmək və xalqın malını əllərindən almaq üçün başa gətirmədim. Mən sənə hökm etdim ki, məzlumların fəryadının Mənə tərəf ucalmasına mane olasan. Həqiqətən Mən onların məzlumiyyət fəryadını yerdə qoymaram. Hətta o məzlumlar kafir də olsalar». [Zikr edilən qaynaq]

Həmçinin o Həzrətdən (ə) nəql olunubdur:

«Zülm edən, ona yardım edən və ona razı olanların üçü də zülmdə şərikdirlər». [Zikr edilən qaynaq]

Və yenə buyurubdur ki:

«Hər kim bir zalımı zülmündə üzürlü göstərməyə çalışsa, Allah ona zülm edən bir şəxsi müsəllət edər və əgər o, «Allah, bu zülmü məndən uzaq eylə» deyərək dua eyləsə də, Allah onun duasını qəbul etməz və məzlumluğuna görə də Allah yanında bir mükafatı (savabı) olmaz». [Zikr edilən qaynaq]

Imam Sadiq (ə)-ın səhabələrindən olan Əbu Bəsr nəql edibdir:

«Aralarında alver üstündə münaqişəsi olan iki nəfər imam Sadiq (ə)-ın hüzuruna gəldilər. Imam (ə) onların sözlərinə qulaq verdikdən sonra belə buyurdu:

«Heç bir şəxs zülm ilə ələ gətirdiyi şeydən bir xeyir tapmaz. Bilin ki, zalım bir şəxsin məzlumun malından aldığından çox, məzlum şəxs zalımın dinindən alar».

Sonra buyurdu:

«Insanlara pislik edən, özünə pislik olanda onu inkar etməz! Bilin ki, insan öz əkdiyini biçər və heç bir şəxs acı toxumdan şirin bir məhsul və nə də şirin toxumdan acı məhsul götürməz». (Imamın bu söhbətindən sonra o iki şəxs oradan qalxıb bir-birləri ilə razılaşdılar). [Zikr edilən qaynaq]

Əhli-beyt (ə) həzrət Peyğəmbərdən (s) nəql ediblər ki:

«Hər kim bir zalımın zülm etdiyini bildiyi halda ona yardım etmək üçün onun yanına getsə «islam»dan çıxıbdır». [Müşkatül ənvar, zülm fəsili səh.315 (Təbərsi)]

Həzrət Peyğəmbərdən (s) belə rəvayət olunubdur:

«Bir saat ədalət ilə hökm etmək, yetmiş il ibadətdən (gecələrini yatmayıb, ibadət ilə keçirib, gündüzləri də oruc tutmaqdan) daha xeyirlidir. Və bir saat ədalətsizliklə hökm etmək, Allah yanında altımış ilin günahlarından daha çətindir». [Zikr edilən qaynaq səh.316]

Və Cabir ibni Əbdullahi Ənsari Rəsulullahdan (s) belə rəvayət edibdir:

«Kim Allahın qəzəb edəcəyi bir yol ilə bir sultanı razı edərsə, Allahın dinindən çıxıbdır». [Zikr edilən qaynaq səh.318]

həmçinin Rəsulullahın belə buyurduğu da nəql olubdur:

«Hər kim on nəfərin başçılığını öhdəsinə ala və onlar arasında ədalət ilə davranmaya, qiyamət günü əli, ayağı və başı baltanın küpündəki kimi bir deşikdən keçmiş halda məhşərə gələcəkdir». [Zikr edilən qaynaq səh.316]

Əmirəl-möminin Əli ibni Əbi Talibdən (ə) isə belə nəql olubdur:

«Hər kim müsəlmanların işlərindən bir işin başında ola, amma qapısını onların üzünə bağlaya və pərdəsini çəkə, belə bir şəxs qapısını ehtiyac sahibinin və şikayəti olanın üzünə açmadıqca Allahın qəzəb və lənətinə giriftar qalar». [Zikr edilən qaynaq səh.316]

Göründüyü kimi Əhli-beyt (ə) öz səhabələrini və digər müsəlmanları zülmdən və zalımdan şiddətlə uzaq durmaq prinsipinə əsaslanaraq tərbiyə etmək istəmiş və bu yolla onları yaşadıqları cəmiyyəti islah etmək üçün hərəkətə gəlməyə və siyasi səhnəyə daxil olmağa lazımı yolla təşviq etmişdir.

2. Rabitə və əlaqəni kəsmək üsulu:

Zalım idarəçilər müqabilində Əhli-beyt (ə)-ın istifadə etdikləri mühüm üsullardan biri də əməldə onlarla əlaqəni kəsmək və onlardan uzaq durmaq idi.

Necə ki, əvvəldə nəql etdiyimiz rəvayətlərdən də bu məna anlaşılırdı. Məsələn, «Hər kim bir zalımın zalım olduğunu bildiyi halda ona yardım üçün onun yanına getsə, islamdan çıxıbdır» və «Zülmü edən, ona yardım və ona razı olan şəxslərin hər üçü zülmdə şərikdirlər» və sairə bu kimi hədislər.

Əhli-beyt (ə) zalımlardan uzaq durmağa və onlarla rabitəni kəsməyə və onlara yardım etməməyə açıq şəkildə əmr etmişdirlər. Bir hədisdə nəql olunubdur ki:

«Qiyamət günü olanda (bir münadi) nida edəcək ki, zalımlar və zalımlara yardım edənlər haradadır. (Hətta) o kəslər ki, onlara minik hazır ediblər, ya onların kisələrinin ağzını bağlayıblar və ya qələmlərini onlar üçün mürəkkəbə batırıblar. Onların hamısını birlikdə məhşur eləyin». [Biharul-ənvar 75-ci cild səh.372 (Əllamə Məclisi)].

Əhli-beyt (ə) Əməvi və Abbasi hakimləri müqabilində bu üsula yəni, zalımlarla rabitəni kəsmək, onlardan uzaq durmaq və onlara yardım etməmək üslubuna əhəmiyyət vermişlər. Yəni, imam Zeynülabidin (ə), sonra imam Məhəmməd Baqir (ə), sonra imam Cəfər Sadiq (ə), sonra imam Musa Kazim (ə), sonra imam Musər-Riza (ə), sonra imam Məhəmməd Cavad (ə) və daha sonra imam Hadi (ə) və sonra da imam Həsən Əsgəri (ə) öz zamanlarının Əməvi və Abbasi sülaləsindən olan zalım hakimlərinin müqabilində zalımlardan uzaq durmaq, onlarla rabitəni kəsmək və onlara heç bir surətdə yardım etməmək (prinsiplərinə) əməl etmişlər. Bu (məsələnin aydınlaşması üçün) daşürəkliyi və qan tökməsi ilə məşhur olan Abbasi xəlifəsi Mənsurun müqabilində imam Cəfər Sadiq (ə)-ın tutduğu mövqeyə işarə edəcəyik.

Tarixçilər yazıblar ki, Mənsur, imam Sadiq (ə)-a bir məktub yazaraq imamdan istədi ki, onun yanına gedib onunla birlikdə olsun. O, öz xəyalında imamı da saray mühitinə gətirmək istəyirdi. Amma Imam (ə) şiddətlə onun bu istəyini rədd elədi. Əlbəttə zülm və zor hakim olan bir şəraitdə belə bir şeyi rədd etmək çox çətin bir iş hesab olurdu.

Mənsurun imam Cəfər Sadiq (ə)-a yazdığı məktubda qeyd olunmuşdur:

«....Ayrılarının (xalqın) bizim ətrafımızı bürüdüyü halda, sən niyə bizim yanımızda olmursan?»

Imam Sadiq (ə) cavabında yazdı ki:

«Bizim nə səndən qorxmağımıza səbəb olacaq bir şeyimiz var (ki, onu əlimizdən almayasan deyə sənin yanına gələk) və nə də səndə axirətə aid olan bir fəzilət var ki, ona görə sənə bir ümidimiz ola... Və nə sən bir nemətdəsən ki, səni təbrik edək və nə də onu bir əzab görürük ki, sənə başsağlığı verək...»

Mənsur bu cavabı oxuduqdan sonra Imam (ə)-a yazdı ki:

«Məqsədim budur ki, bizimlə olasan və bizə nəsihət edəsən.»

Imam Sadiq (ə) cavabında yazdı:

«Hər kim dünyanı istəsə sənə nəsihət etməz, hər kim axirəti istəsə sənin yanında durmaz (səninlə həmsöhbət olmaz)». [Əl-imamüs-Sadiq, səh.139 (Məhmud Əbu-Zöhrə)]

Allahın hökmlərini icra etməyən zalım hakim və sultanlara qarşı Əhli-beyt (ə)-ın bu aşkar mövqe və davranışına bağlı qalan şiə fəqihləri zalımlara yardım etməyin və onlar tərəfindən bir işi qəbul etməyin haram olduğuna fətva vermişlər. Şiə müctehidlərinin «Məkasibi muhərrəmə» (haram kəsblər) fəslində bu barədə fətvaları şiə fiqhini bilənlərin nəzərində məlumdur.

Məsələn, Şəhid Əvvəl [Şiə alimlərinin böyüklərindəndir. 734-786 hicri illərində yaşamışdır] ləqəbi ilə məşhur olan Məhəmməd ibni Cəmal Məkki Amili (r.ə.) «Lümə» adlı kitabında haram kəsbləri sayarkən «zalımlara zülmlərində yardım etməyi» də sayıbdır. Adı çəkilən kitabın şərhində mərhum Şəhid Sani izah üçün qeyd edibdir ki, «məsələn, zalımlar üçün bir yazı yazmaq və ya məzlumu onların yanına gətirmək

kimi...» [«Ər-rövzətül-bəhiyyə fi şərhil-lümətüd-dəmeşqiyyə» 2-ci cild, səh.213 (Şəhid Sani)]

Həmçinin fəqihlər zalım tərəfindən bir iş və vəzifə qəbul etməyi haram bilmişlər, yalnız bir şəxs bu yolla islama xidmət etməyə və ayrılarını zülmə düçar olmaqdan qurtarmağa imkanı olsa, müstəsna xarakteri daşıyır.

3. Qiyam etmək və qiyam edənlərdən himayə etmək:

Zalımın müqabilində qiyam etmək və onun zülmünə boyun əyməmək bir əsasdır ki, islam onu «mərufa əmr etmək və münkərdən çəkindirmək» ünvanı ilə rəsmən tanıtmış və ona çox əhəmiyyət vermişdir.

Həzrət Peyğəmbərin (s) belə buyurduğu nəql olunubdur:

«Şəhidlərin ağası bir «Həmzə»dir və bir də o şəxsdir ki, bir zalım sultanın müqabilində qiyam edə və ona əmr be məruf və nəhy əz münkər edə və nəhayət (sultan onu) öldürə» [«Məqtəlül-Hüseyn» 1-ci cild səh.88 (Xarəzmi)]

Hər kim Əhli-beyt (ə)-ın həyatlarında apardıqları siyasi mübarizələrini tədqiq etsə görər ki, Əhli-beyt (ə) xüsusi bir mübarizə və qiyam xəttini vücuda gətirmişlər. Ayrı ifadə ilə desək, onlar qiyam və mübarizələrin rəhbərliyini öhdələrinə almışdılar.

Müaviyə islamın təməlini qazmaq məqsədiylə müsəlmanları idarə etmək üçün lazım olan şərtlərdən heç birini özündə daşımayan oğlunu özündən sonra müsəlmanların xəlifəsi elan etməsi müqabilində, imam Hüseyn ibni Əli (ə) sakit qalmayıb qiyam etdi. Mədinədən hərəkət edib Məkkəyə gəldi və orada dörd ay qalıb, xalqa Yəzidin iş başına gəlməsinin islam və müsəlmanlar üçün böyük təhlükə olduğunu bəyan etdikdən sonra, Iraqa doğru hərəkət etdi və Iraqda, Kərbəla çölündə, Yəzidin sayı çox olan ordusunun müqabilində təslim olmayıb, yetmiş iki nəfər ilə birlikdə şəhadətə çatdı və öz müqəddəs qanının tökülməsinə, övlad və səhabələrinin məzlumcasına şəhid olmalarına və uşaqlarının əsir düşməsinə razı oldu. Amma razı olmadı ki, zalımlar Peyğəmbərin (s) dinini paymal edələr, haqq və ədaləti ayaq altına salalar.

Bu pak qanlar islam ümmətinin yatan vicdanını oyatdı və onların zülm müqabilindəki süstlüyünü aradan apardı.

Bəli, bu qiyam zalım hakim və sultanlar müqabilində və onlara beyət edib boyun əymək qarşısında həyata keçirilən ilk inqilab idi. Bu inqilab təslim və sazişə çağıran, zülmü qanuni göstərən pula satılmış alimlərin islamdan və dindən uzaq olduqlarını göstərən ilk hərəkat idi.

O alimlər ki, Peyğəmbərin (s) aşkar sünnəsini qoyub, xalqı zalıma beyət etməyə və ya zalım nə iş görsə də beyətə vəfalı qalmağa dəvət edirdilər. Halbuki, Peyğəmbər (s) aşkar buyurmuşdur ki:

«Allahın əmrinə üsyan edən şəxsin and içməsi və söz verməsi qəbul olunmaz».

Və yenə buyurmuşdur ki:

«Xaliqə (yaradana) üsyan etmək işlərində məxluqa (yaradılana) itaət olunmaz».

Allah-taala Qurani-kərimdə buyurubdur:

«Və zülm etmiş şəxslərə ürək bağlamayın ki, atəş (cəhənnəm odu) sizi də yandırar».

Həzrət Peyğəmbərin (s) nəvəsi imam Hüseyn (ə) qiyam edib, 61-ci hicri ilində Kərbəlada şəhid olaraq müsəlmanları düz yoldan uzaqlaşdıran və onları zülmün müqabilində təslim olmağa, ona razı olmağa çağıran fikirləri batil etdi və qiyam, şəhadət səsini dünyada satılıb zülmə boyun əymək çağırışından uca etdi.

Imam Hüseyn (ə) öz qiyam və inqilabının əsas amillərini bu hərəkatdakı hədəfini islam ümmətinə açıqca bəyan edərək buyurmuşdur:

«Mən təkəbbür, azğınlıq, fəsad və zalımlıq üçün qiyam etməmişəm. Mən qiyam etmişəm ki, cəddim Rəsulullahın (s) ümmətini islah etməyə çalışam və istəyirəm ki, «Mərufa» əmr və «münkərdən» nəhy edəm. Və öz cəddimin və atamın getdiyi yolla gedəm». [«Əl-irşad» səh.204 (Şeyx Müfid)].

Kufə əhlinə yazdığı məktubda da müsəlmanlara rəhbərlik edən şəxsin hansı sifətlərə malik olduğunun lazım olmasını bəyan edərək buyurmuşdur:

«And olsun canıma ki, ədalət və bərabərliyi əsas tutmayan, həqiqi dinə bağlı olmayan və Allah xatirinə öz nəfsinin qabağını ala bilməyən hakim imam ola bilməz».

Bəsrənin böyüklərinə yazdığı məktubda da bu cümlələri qeyd etmişdi:

«Və mən sizi Allahın kitabına və Peyğəmbərin sünnəsinə dəvət edirəm. Çünki, həqiqətən sünnə

məhv edilib və bidət dirildilibdir. Əgər mənim sözümə qulaq versəniz və əmrimə itaət etsəniz sizi kamal və səadət yollarına hidayət edərəm». [«Məqtəlül-Hüseyn» səh.141-142 (Əbdür-Rəzzaq Möqrim)]

Beləcə imam Hüseyn (ə), zalım olan hakimin müqabilində qiyam etməyin caiz və qanuni olduğunu isbat etdi və xalqı bir müqəddəs iş olaraq zalımların müqabilində mübarizə aparmaq fikri ilə tanış etdi.

Əhli-beyt (ə)-ın siyasi fəaliyyətləri göstərir ki, onlar imam Hüseyn (ə)-ın qiyamından sonra islam məmləkətlərində iki yüz il boyunca Ələvilər (seyyidlər) tərəfindən vücuda gətirilən qiyamları himayə etmişlər.

Nümunə olaraq imam Zeynül-abidin (ə)-ın oğlu «Zeyd»in qiyamı ki, islam tarixində çox mühüm təsirləri olan bir qiyamdır. Bu qiyam imam Cəfər Sadiq (ə)-ın zamanında baş vermişdir. Imam Sadiq (ə) onun hərəkatını təsdiq etmiş və «Zeyd»in şəhadəti imamı çox narahat etmişdir.

Füzeyli Rəssan nəql edir ki:

«Zeyd ibni Əlinin şəhadətindən sonra imam Cəfər Sadiq (ə)-ın yanına gəldim. O Həzrət (ə) məni bir otaqdan ayrı bir otağa apardı. Sonra mənə dedi:

«Ey Füzeyl, əmim Zeyd şəhid olubdur?»

Dedim ki, sənə fəda olum, bəli.

Buyurdu: «Allah ona rəhmət eləsin! Bil ki, o, mömin, arif, alim və doğru danışan idi. Bil ki, əgər o, zəfər çalsaydı, (əhdinə) vəfa edəcəkdi və imaməti öz sahiblərinə verəcəkdi. Həqiqətən, əgər o, dövləti və qüdrəti əlinə keçirsəydi, onu kimə təslim edəcəyini yaxşı bilirdi». [Biharul-ənvar, 47-ci cild səh.325 (Əllamə Məclisi)]

Göründüyü kimi Əhli-beyt (ə) qiyamlardan himayə edirdilər... Və imamlarla Ələvi qiyamçıları arasında qarşılıqlı əməkdaşlığı var idi.

Bu siyasi himayənin ən gözəl nümunələrindən biri də imam Musa Kazim (ə)-ın məşhur «Fəxx» qiyamının rəhbəri Hüseyn ibni Əlinin hərəkat və qiyamını himayə etməsidir. Bu qiyam 169-cu hicri ilinin Zil-qədə ayına təsadüf edir.

Tarixin yazdığına görə, imam Musa Kazim (ə) bu hərəkatın lazımı zəminə və şəraiti olmadığına görə zəfərə yetişməyəcəyini bildiyi halda, yenə də qiyamçıların yanında mövqe seçir və onları himayə edirdi.

Buna görə də Imam (ə) qiyam rəhbərinə buyurmuşdu:

«Sən qətlə yetiriləcəksən, silahı iti saxla! Çünki, bu qövm fasiqdir və özlərini imanlı göstərirlər. Amma qəlblərində nifaq və şirki gizlədirlər. Bəs mən sizi Allahın öhdəsinə qoyuram». [Məqatilüt-talibin, səh.447 (Əbul Fərəc Isfəhani)]

Elə ki, Hüseyn Fəx qiyamının rəhbəri və əshabı şəhid oldular və onların başını zalım Abbasilərə gətirdilər, imam Musa Kazim (ə)-a dedilər: «Bu Hüseynin başıdır.»

Imam (ə) buyurdu: «Bəli!

«Allaha and olsun ki, o saleh müsəlman, oruc tutan, xeyir işlərə dəvət edən və pis işlərdən çəkindirən olduğu halda, dünyadan getdi və öz sülaləsində özü kimisi yox idi.» [Zikr edilən mənbə səh.455]

Hüseyn xalqı qiyam dəvət edəndə belə deyirdi:

«Mən sizi Ali Məhəmməddən (s) olan bəyənilmiş bir şəxsə tabe olmağa dəvət edirəm və içinizdə Allahın kitabı və Peyğəmbərin sünnəsi ilə əməl etməyə, xalqın arasında ədaləti hakim etməyə dəvət edirəm.» [Zikr edilən mənbə səh.450]

Göründüyü kimi «Fəxx» qiyamının rəhbəri Hüseynin dəvəti, Peyğəmbərin (s) sülaləsindən imamətə layiq olan, bəyənilmiş bir şəxsə tabe olmaqdır. Və ola bilər ki, onun məqsədi imam Musa Kazim (ə)-ın özü imiş... Necə ki, «Zeyd»in qiyamı da eyni hədəflər yolunda idi. Imam Sadiq (ə) da buna görə ona rəhmət göndərib, onun xilafəti öz yerinə qaytarması üçün qiyam etdiyini bildirmişdi.

Abbasi sultanları da Əhli-beyt (ə)-ın bu qiyamları müdafiə etdiyini bilirdilər. Əllamə Məclisi bu barədə nəql etmişdir ki, «Fəxx» qiyamından sonra Abbasi sultanı o qiyamda iştirak edənləri və onu himayə edənləri sayıb onların əleyhinə danışırdı ki, imam Musa Kazim (ə)-dan söz açıldı. O, imamın əleyhinə danışıb dedi: «And olsun Allaha ki, Hüseyn onun əmri ilə qiyam etmişdir. Çünki, Əhli-beyt arasında vəsiyyət sahibi odur. Mən əgər onu (Musa Kazim (ə)-ı) öz halına qoysam, Allah məni öldürsün.» [Biharul-ənvar, 48-ci cild, səh.151 (Əllamə Məclisi)]

Imam Məhəmməd Cəvad (ə) da bu qiyam haqqında öz mövqeyini belə bəyan etmişdi:

«Kərbəladan sonra «Fəxx»dən daha çətin bir qətlgahımız olmayıbdır.» [Zikr edilən mənbə səh.165]

Bu misallardan anlaşıldığı kimi qiyam etmək və qiyam edənləri himayə etmək Əhli-beyt (ə)-ın zalım dövlətlər və sultanlar müqabilində tutduqları mühüm şivələrdən biridir.

4. Siyasi müqavimət:

Islam ümmətinin siyasi həyatında Əhli-beyt (ə)-ın zalımlar müqabilində ayrı bir siyasi cəbhə vücuda gətirərək müqavimət etməklərinin mühüm bir yeri və rolu var.

Allah əhkamını icra etməyib, ədalətlə davranmamaqla qüdrəti əlinə alan hər hansı zalım sultan bu üç əsrə yaxın bir müddət ərzində Əhli-beyt (ə)-dan birini öz müqabilində görübdür. Hər bir Imam (ə) öz zamanındakı siyasi müqavimətin rəhbəri idi. Xalq imamlara mübarizələrinin mehvəri, doğruluq və qanunilik meyarı kimi baxırdılar... Əhli-beyt (ə)-ın varlıqları bir məşəl kimi müsəlmanların mübarizə yolunu işıqlandırırdı.

Əhli-beyt (ə)-ın bu mövqeyini, müsəlmanların oyanmasındakı rollarını və qəlblərdəki təsir və məhəbbətlərini düşmənlər də, yəni islam və ədalətdən uzaq olan zalım Bəni-Üməyyə və Bəni-Abbasi sultanları da bilirdilər.

Buna görə də Əhli-beyt (ə)-ın dostlarına qarşı rüşvət və məqam, ya öldürmək və tabe etmək kimi aldatmaq və ya qorxutmaq vəsilələrinə əl atıb müsəlmanları Əhli-beyt (ə)-dan ayrı salmağa və Əhli-beyt (ə)-ın cəmiyyətdəki təsirlərini azaltmağa çalışırdılar.

Bu cəhətdən də Müaviyə həzrət Əli (ə)-ın xilafətinə boyun əymədi və Həzrətlə müharibəyə girişdi və həzrət Əli (ə)-ın şəhadətindən sonra da imam Həsən (ə)-ın müqabilində durub, o Həzrət (ə) ilə də müharibə etməyə təşəbbüs etdi və çoxlu pak insanları məhz Əhli-beyt (ə)-ı sevdiklərinə görə şəhid etdi. Nəhayət imam Həsən (ə)-ı da zəhər ilə şəhid etdi.

Müaviyədən sonra oğlu Yəzid də (Allahın lənəti ona olsun) Əhli-beyt (ə)-ın siyasi mövqeyinə toxunmaq məqsədi ilə tarixdə misli görünməmiş bir cinayətə əl atdı və Peyəğəmbərin (s) sünnəsini diriltmək və zülmü aradan aparmaq üçün qiyam edən imam Hüseyn (ə)-ı Kərbəlada öz övladları və səhabələri ilə birlikdə şəhid edib arvad-uşaqlarını da əsir tutdular.

Imam Hüseyn (ə)-dan sonra müsəlmanlar imam Əli ibni Hüseyn Zeynül-abidin (ə)-ı Bəni-Ümməyənin zülmü müqabilində müqavimət nişanəsi olaraq görürdülər. Buna görə də qiyam edənlər, O həzrətdən icazə alırdılar. Imam Zeynül-abidin (ə)-ın zamanında imam Hüseyn (ə)-ın intiqamını almaq və Əhli-beyt (ə)-i müdafiə etmək üçün bir çox qiyamlar meydana gəldi. O cümlədən Mədinə qiyamı, Məkkə qiyamı, Muxtar qiyamı və Təvvabin qiyamı bunların ən mühümlərindən sayılır.

Imam Zeynül-abidin (ə)-ın özü aşkar şəkildə hərəkət etməməsinə baxmayaraq, müsəlmanların və qiyamçıların nəzərində o mübarizənin simvolu və başçısı sayılırdı.

Imam Zeynül-abidin (ə)-ın Yəzid ibni Müaviyə, Mərvan ibni Həkəm və Əbdüllah ibni Mərvan kimi o zamanda hakimiyyət başında olan zalım Əməvi sulatanları müqabilində mövqeyi aşkar olmayan həqiqi bir müqavimət idi... Bu cərəyan imam Hüseyn (ə)-ın qatillərindən intiqam alan Muxtarın qiyamına qədər davam etdi. Imam Zeynül-abidin (ə) çox dərin mənaya malik olan dualar vasitəsi ilə də müsəlmanlara islamın həqiqi yolunu bəyan etmişdir. [Imam Zeynül-abidin (ə)-ın duaları «Səhifeyi Səccadiyyə» adlı bir müqəddəs kitabda toplanmışdır]

Imam Zeynül-abidin (ə)-dan sonra bu müqavimət və rəhbərlik oğlu imam Məhəmməd Baqir (ə)-ın öhdəsinə düşmüşdür. Imam Məhəmməd Baqir (ə)-ın Əməvi sultanları tərəfindən, xüsusi ilə Hişam ibni Əbdül-Məlikdən çəkdiyi əziyyət və zülmlər bunu açıqca isbat edir.

Imam Məhəmməd Baqir (ə)-ın zamanında qardaşı «Zeyd»in rəhbərliyi ilə «Ələvi» qiyamı meydana gəlmişdir.

Əməvi xəlifəsi Hişam yaxşı bilirdi ki, bu siyasi hərəkət və mübarizənin qaynağı imam Məhəmməd Baqir (ə) və oğlu imam Cəfər Sadiq (ə)-dır. Buna görə də onların hər ikisini Mədinədən xilafətin paytaxtı olan Şama gətirdi. Imam Məhəmməd Baqir (ə) Əməvi sultanının məclisinə varid olan zaman əli ilə məclisdə oturanlara işarə edib onlara salam verdi. Amma Əməvi sultanı Hişam xəlifə ünvanı ilə salam vermədi və ondan icazə istəmədən əyləşdi. Bunu görən Hişam daha da narahat olaraq dedi:

«Ey Məhəmməd ibni Əli, həmişə sizlərdən biri çıxıb müsəlmanların birliyini, bərabərliyini aradan aparır, xalqı özünə tərəf dəvət edib avamlıq və biliksizliyindən özünü imam sayır». Hişam bu sözləri deməklə çalışırdı ki, imam Məhəmməd Baqir (ə)-ı ittihamlandırsın. Hişam sakit olduqdan sonra məclisdə

olanlar onlara qabaqca verdiyi təlim və əmrə görə imam Məhəmməd Baqir (ə)-ı danlamaq istəyirdilər...

Imam (ə) vəziyyəti belə gördükdə ayağa qalxıb məclisin ortasında dayanaraq buyurdu:

«Ey camaat hara gedirsiniz? (Yəni, niyə yolunuzu itirmisiz?). Və sizi hara aparmaq istəyirlər? Allah bizim xatirimizə sizlərin əvvəlinizi (atalarınızı) hidayət etdi və bizə görə sizlərin axırınızı xətm edəcək. Əgər indi dünya sizin olubdursa; (Allah nəzərində) məlum olan vaxtda həyata keçəcək hakimiyyət bizimdir. Bizim səltənətimizdən sonra artıq ayrı bir səltənət olmayacaqdır; Çünki, bizlər «aqibət» əhliyik və Allah-taala buyurur ki: «Aqibət təqvalılar üçündür».

Bu sözlərdən sonra Hişam imam Məhəmməd Baqir (ə)-ın həbs edilməsinə əmr verdi və beləliklə imamı həbs etdilər... [«Əlmənaqib» 4-cü cild imam Məhəmməd Baqir (ə)-an Şama aparılması məsələsi (Ibni Şəhr Aşur)]

Amma imam Məhəmməd Baqir (ə) zindanda olmağından istifadə edərək, həbsdəkiləri islam məktəbinin həqiqəti ilə tanış edib onları siyasi cəhətdən oyatmağa çalışdı. Imamın (ə) müqəddəs vücudu zindanda o qədər təsir buraxdı ki, zindanın məsulu Hişamın yanına gələrək zindanda yaranan təhlükəli vəziyyəti və Imamın (ə) orada icad etdiyi təsiri ona bildirdi. Hişam bu təsirdən qorxuya düşüb imamın zindandan azad olunmasına və səhabələri ilə birlikdə rəsmi şəkildə Mədinəyə qaytarılmasına əmr etdi». [Zikr edilən qaynaq]

Ibni Cərir Təbəri də yazır ki, imam Məhəmməd Baqir (ə) ilə xristianların (məsihilərin) rəhbəri arasında baş verən bir bəhs nəticəsində Imamın (ə) mənəvi və fikri üstünlüyü Şam əhalisi arasında yayılmağa başlamışdı. Bu vəziyyətdən qorxuya düşən Hişam, imamı Mədinyə qaytardı...» [«Dəlailül-immə», imam Məhəmməd Baqir (ə)-ın həyatı (Məhəmməd ibni Cərir Təbəri)].

Imam Məhəmməd Baqir (ə)-dan sonra oğlu imam Cəfər Sadiq (ə)-ın mübarizə dövranı başlayır. Bu dövran acı və çətin hadisələrlə doludur. Ümumiyyətlə, islam ümməti məxsusən Peyğəmbərin (s) pak nəsli tarix boyu müxtəlif məşəqqətlərlə üz-üzə gəlmişdir...

Müxtəlif hadisələrlə dolu olan bu dövranda imam Cəfər Sadiq (ə)-ın zalım Əməvi və Abbasi sultanlarının müqabilində aşkar bir qiyamı davam etdirməklə, islam adından aparılan həqiqi mübarizə və müqavimətin rəhbərliyini daşıyırdı.

Buna görə də qiyam edənlər imam Cəfər Sadiq (ə)-dan onların mübarizələrini aşkar şəkildə himayə etməsini, hətta qiyamlarının rəhbərliyini öhdəsinə almasını istəyirdilər. Məsələn, Əbu Müslüm Xorasani imam Cəfər Sadiq (ə)-ın yanına gəlib ona qiyamın rəhbəri kimi beyət etmək istədi. Amma imam Cəfər Sadiq (ə) o zamanın şəraitini belə bir qiyama münasib olmadığını bildirərək bu təklifi rədd etdi.

Abbasi sultanlarının birincisi olan Əbül Abbas Səffah imam Cəfər Sadiq (ə)-ın mövqeyini və müqavimətdəki rolunu bildiyi üçün Imam (ə)-dan qorxurdu. O, hətta Imamı (ə) öldürməyi təşəbbüs göstərdi. Amma, Allah-taala ona bu fürsəti vermədi... O, bir dəfə imam Cəfər Sadiq (ə)-ı Mədinədən Hirəyə apardı və orada onu şiddətli nəzarət və təzyiqdə saxladı.

Əbu Cəfər Mənsur da səltənətə yetişən zaman öz sələfi Səffah kimi Imamın (ə) mənəvi rəhbərliyindən və müqavimət simvolu olmasından qorxdu. Buna görə də bir neçə dəfə Imamı (ə) ittihamlandırmaq üçün Mədinədən Iraqa apardı...

Mənsur Imamı (ə)-ın güclü mənəvi və siyasi şəxsiyyəti müqabilində olan acizliyini etiraf edərək belə deyirdi:

«Bu şəxs (imam Cəfər Sadiq (ə)) xəlifələrin boğazına ilişib qalan bir tikandır ki, onu nə sürgün etmək olur, nə də öldürmək. Əgər o, kökü təmiz, gövdə və meyvələri gözəl olan bir mübarək ağacdan (nəsildən) olmasaydı, hansı ki, səmavi kitablarda onun müqəddəs olduğu yazılıbdır, o da (imam Cəfər Sadiq (ə)-da) aqibəti yaxşı olmayanlardan olardı. Çünki o, gələn xəbərlərə görə bizə çox zərbə vurur və bizim haqqımızda pis sözlər deyir... [«Əl-imamüs-sadiq səh. 138 (Məhmud Əbu Zöhrə)].

Beləliklə aydın olur ki, imam Cəfər Sadiq (ə)-ın mövqeyi zalım sultanlar müqabilində müqavimət göstərmək, xalqı oyatmaq və bu yolda onlara rəhbərlik etməkdən ibarət idi.

Imam Cəfər Sadiq (ə)-dan sonra oğlu imam Musa Kazim (ə)-ın müqavimət dövrü başlandı. Imam Musa Kazim (ə)-da öz zamanının islamdan yayınan və müsəlmanların məsləhətini öz şəxsi istəkləri yolunda tapdalayan Abbasi sultanları müqabilində xalqı oyatdı və onlara zalımlara qarşı mübarizə aparmaq yolunda rəhbərlik etdiyi üçün Abbasilər tərəfindən müxtəlif işkəncə, əziyyət və zindanlara məruz qalmışdır.

Peyğəmbərin (s) nəslinə çox zülm edən, mallarını talan edib hətta onlardan bir qismini diri-diri daş yerinə divarlara hördürərək şəhid edən Abbasi sultanı Əbu Cəfər Mənsur imam Musa Kazim (ə)-ı güclü nəzarət altına almışdı.

Mənsurdan sonra səltənətə yetişən Məhdi Abbasi imam Musa Kazim (ə)-ın ümmət arasındakı dərin nüfuz və mövqeyindən qorxuya düşərək mühakimə və təhqiq üçün Imamı (ə) Mədinədən Bağdada gətirib zindana saldı və orada Imamı (ə) cürbəcür işgəncələrə məruz qoydu. Amma Abbasi sultanı bir gün yuxusunda həzrət Əli (ə)-ın ona xitab edərək bu ayəni oxuduğunu gördü:

«Hakimiyyətə çatdıqda yer üzündə fitnə-fəsad törədib, (cahiliyyət dövründə olduğu kimi) qohumluq tellərini qırmaq istəyirsinizmi?»

Bu yuxudan qorxuya düşən Abbasi sultanı Məhdi, Imamın (ə) zindandan azad edilməsinə əmr verdi.

Məhdi Abbasidən sonra səltənətə yetişən Hadi Abbasinin zamanında həzrət Peyğəmbərin (s) nəslinə və imam Musa Kazım (ə)-a olan zülm və işgəncə daha da şiddətləndi. Hadi Abbasi, xüsusi ilə «Fəxx» qiyamından sonra zülmünü daha da artırıb, onların bəzilərini sürgünə göndərmək və bəzilərini öldürməklə bu nəsli tamamilə yox etməyə çalışırdı...

Imam Musa Kazım (ə)-a çox şiddətli zülm edən Hadi, hətta Imamı (ə) öldürməklə hədələdi və bu işə təşəbbüs də göstərdi. Amma tarixçilərin yazdığına görə o, qazi Əbu Yusifin vasitəçiliyi ilə bu qərarından əl çəkdi. Öldürülmək yerinə onun həbs olunmasına göstəriş verdi.

Amma Hadi Abbasinin tez çatan ölümü onun bu qərarının icra olunmasına mane oldu.

Sonra iş başına gələn Harun-ər-Rəşidin də imam Musa Kazim (ə)-a qarşı zülmü çox şiddətli idi.

O, Imamı (ə) Mədinədən Iraqa gətirib həbs etdi, ağır əziyyət və işgəncələrə məruz qoydu. Hətta zindanda Imamın (ə) boynunu və ayaqlarını ağır zincirlərlə bağlatdırdı. Imamı (ə) bir zindandan o biri zindana aparıb neçə il zülm və işkəncə ilə dolu həbslərdə saxlatdıqdan sonra təhlükəsizlik məmurlarının rəisi olan Sindi ibni Şahik adlı bir yəhudiyə, Imama (ə) zindanda zəhər verib öldürməsini əmr olundu. Beləliklə Imam (ə) 183-cü hicri ilinin Rəcəb ayının 25-də Harun-ər-Rəşidin əmri ilə verilən zəhərlə zindanda şəhid oldu.

Imam Musa Kazim (ə)-dan sonra oğlu imam Riza (ə)-ın dövrü başlayır. Bu dövrdə müsəlmanların oyanması, Əhli-beyt (ə)-a olan məhəbbətin yayılması ilə müqavimətin çox qüdrətli şəkil alması və imam Riza (ə)-ın ümmət arasındakı mənəvi nüfuzunun nəticəsində Abbasi sultanı Məmun, xalq arasında özünə hörmət qazanmaq və imamın mənəvi nüfuzunu azaltmaq üçün, nəyin bahasına olursa olsun, özünü Imama (ə) yaxın göstərməyə çalışırdı.

Buna görə də Məmun, Imamı (ə) özünə vəliəhd olmağa məcbur etdi.

Imam Riza (ə) da çarəsizlikdən dövlətin heç bir işinə dəxalət etməmək, hökuməti və heç bir məsuliyyəti öhdəsinə almamaq şərti ilə Məmuna vəliəhd olmağı qəbul etdi.

Amma Imamın (ə) varlığını hər bir şəraitdə özünə təhlükə görən Abbasi sutanı Məmun, bir müddət sonra Imama (ə) zəhər verib şəhid etdi.

Imam Riza (ə)-dan sonra imamət məqamı Allahın əmri ilə imam Məhəmməd Cavada (ə) yetişdi. Imam Cavad (ə)-ın imamətinin ilk çağları Məmun ilə bir dövrə təsadüf edirdi.

Məmun müsəlmanların məhəbbətini qazanmaq və Imamın (ə) rəhbərlik etdiyi mübarizləri özünə doğru çəkə bilmək üçün. Imam (ə) ilə zahirdə yaxşı rəftar edərək qızı Ümmi Fəzli Imama ərə verdi. Amma imam Cavad (ə)-ın mövqeyindən sui istifadə edə bilməyəcəyini görən Məmun imam Cavad (ə)-dan əl çəkdi. Beləliklə Imam (ə) Bağdadı tərk edib Mədinəyə qayıtdı...

Məmun öldükdən sonra oğlu Mötəsəm səltənətə yetişdi. O, Imamın (ə) Mədinədə olmasını öz səltənəti üçün təhlükəli bilib onu Mədinədən Bağdada gətirtdi. Bununla o, bir tərəfdən Imamı elm mərkəzi olan Mədineyi-münəvvərdən uzaqlaşdırmaqla onun müsəlmanlar arasındakı fikri və elmi təsirini azaltmaq istəyir, digər tərəfdən də onun mübarizlərlə rabitəsini kəsməklə, bir başa mərkəzin nəzarəti altında yaşamasını düşünürdü.

Amma Imamın (ə) harada olmasından asılı olmayaraq nüfuz və təsirinin müsəlmanlar üzərində davam etdiyini görən Abbasilər, imam Məhəmməd Cavad (ə)-ı Mədinədən gətirdikləri ildə, yəni 225-ci hicri ilində zəhərləyib gənc çağında şəhid etdilər.

Imam Məhəmməd Cavad (ə)-dan sonra imamət məqamı Allah-taalanın əmri ilə oğlu imam Əliyyəl Hadi (ə)-a, yəni onuncu imama yetişdi... Və imam Hadi (ə) müsəlmanların zalımlar qarşısındakı müqa-

vimətlərindəki rəhbərliyini öhdəsinə aldı.

Abbasi sultanlarından olan Mütəvəkkil bu dövrdə səltənətə yetişmişdi. O, Peyğəmbərin (s) övladlarına düşmənçiliyi və Əhli-beytin (ə) dostlarına ədavəti ilə tanınan, onları nahaq yerə öldürən, hüquqlarını tapdalayan və xalqı onlara yardım etməkdən məhrum edən bir şəxs idi...

Imam Hadi (ə)-ın Mədinədə olması və xalq arasında olan nüfuzu onu qorxuya salırdı. Buna görə də Imam Hadi (ə)-ı nəzarətdə saxlamaq üçün Mədinədən Iraqa gətirdi. Və hərbi məntəqə olan Samirrada qalmağa məcbur etdi. Bununla da kifayətlənməyib bir neçə dəfə Imam Hadi (ə)-ı öldürməyə və ya həbs etməyə təşəbbüs göstərdi. O, Imam Hadi (ə)-ın evinə hücum edib evinin axtarılmasına göstəriş vermişdi. Bunlar hamısı Imamın (ə) zülmə təslim olmayaraq, müsəlmanların fikri və mənəvi rəhbərliyini daşıdığı üçün idi.

Tarixçilər Mütəvəkkilin imam Hadi (ə)-ı Mədinədən Samirraya gətirməsini yazarkən, yuxarıda qeyd olunan nöqtəni açıqca bəyan etmişlər. Biz misal olaraq Sibt ibni Cövzinin bu barədə olan sözünü nəql edirik. O, belə yazır:

Tarix alimləri deyiblər: «Mütəvəkkil Imam Hadi (ə)-ı Mədinədən Bağdada gətirtdi; çünki, o (Mütəvəkkil), Həzrət Əli və övladları ilə çox düşmənçilik edirdi. O, Əliyyəl Hadinin Mədinədəki məqamını və xalqın ona meyl etdiyini eşitmişdi və bundan qorxaraq...» [«Təzkirətül-xəvass» səh.359 (Sibt Ibni Cövzi)]

Imam Əliyyəl Hadi (ə) 254-cü hicri ilində Samirrada şəhid edildikdən sonra, oğlu imam Əbu Məhəmməd Həsən Əsgəri (ə) imamət məqamını və ümmətin mənəvi və siyasi rəhbərliyini öhdəsinə aldı. Imam Həsən Əsgəri (ə) atası Əliyyəl Hadi (ə) ilə birlikdə, Mədinədən Samirraya gətirilmişdi. Imam Həsən Əsgəri (ə)-ın Abbasi sultanları müqabilindəki mövqeyi öz babaları kimi zülmün qarşısında müqavimət göstərmək idi.

Məhz buna görə də Imam (ə) öz babaları kimi müxtəlif əziyyət və zülmə məruz qaldı. Imam Həsən Əsgəri (ə) Samirrada zindana salındı. Abbasi sultanı Möhtədi, Imam Həsən Əsgəri (ə)-ı öz zalımlığı və rəhimsizliyi ilə tanınan zindançılara təslim edirdi. Amma Imam Həsən Əsgəri (ə)-ın mənəvi şəxsiyyəti onlarda təsir edib hidayət olmalarına səbəb olurdu.

Tarixdə mövcud olan bəzi işarələr Abbasilərin Imam Həsən Əsgəri (ə)-a qarşı icad etdikləri zülm və işkəncələrlə dolu olan bəzi cəhətlərini bizə anlada bilər:

Əhməd ibni Məhəmməd yazır:

«Möhtədi xidmətçiləri öldürməyə başladığı zaman, (imam) Əbu Məhəmməd Həsən Əsgəriyə (ə) bir məktub göndərdim və dedim ki, «ey mənim ağam, Allaha şükr olsun ki, (Allah) onu (Möhtədini) ayrı işlərlə məşğul edibdir. Amma mənə xəbər yetişibdir ki, o səni də hədələyir və deyir ki, and olsun Allaha, mən onları yer üzündən siləcəyəm».

Imam (ə) cavabında öz xətti ilə belə yazır:

«Bu onun ömrünün daha qısa olmasına səbəb olar».[«Əl-füsulul-mühümmə», imam Həsən Əsgəri (ə)-ın həyatı (Ibni Səbbağ Maliki)]

Tarixdə bir daha qeyd olunubdur ki, Imam Həsən Əsgəri (ə) Mötəmədin zamanında da həbs edilibdir. Əlbəttə, «Istisqa» məsələsinə (quraqlıq vaxtlarında Allah-taaladan yağış istəmək) görə, müsəlmanlarla məsihi keşişləri arasında bir müşkül yarandığı üçün Mötəməd məcbur qalıb Imam Həsən Əsgəri (ə)-dan bu müşkülün həll etməsini istədi.

Imam (ə) bu müşkülü həll etdikdən sonra Mötəməd onu zindandan çıxarmışdır. Imam (ə) bu işə görə zindanda olan səhabələrinin də bağışlanmısını istəmiş və Mötəməd qəbul edərək onları da azad etmişdi...

Bu Əhli-beyt (ə)-ın siyasi həyatları və zalım sultanların müqabilində göstərdikləri müqavimətlərin haqqında olan qısa bir izah idi...

Burada bir nöqtəyə diqqət yetirmək lazımdır ki, həzrət Peyğəmbərin (s) vəfatından sonra islam ümmətinin başına gələn 250 ilə yaxın bir müddətlik çox çətin siyasi, fikri, əqidəvi ixtilaf və böhranlarda, həmişə onları ən doğru yola hidayət edən, Əhli-beyt (ə)-ın (on iki imamın) varlığını bir təsadüf hesab etmək doğru deyildir. Bunlar həzrət Peyğəmbərin (s) hədislərində də sübuta yetirildiyi kimi, Allah tərəfindən xalqın hidayəti üçün seçilən məsum şəxslərdir.

Bunlardan hər birinin öz zamanlarının ən bilikli və ən təqvalı şəxslər olmaları, həyatlarının heç bir anında, sonradan düzəliş verilməyə ehtiyacı olan bir söz və ya hərəkətin olmaması, həmişə ümmətin

salehlərinin rəhbərliyini öhdələrinə almaları və hər cür zülm, fəsad və azğınlıq müqabilində duraraq, xalqı bu məsələlərlə agah etmələri, onların Allah tərəfindən seçilmiş imamlar olduğunun açıq dəlil və nişanəsidir.

## FİQHİ MƏKTƏBLƏRƏ BİR BAXIŞ

Müsəlmanlar həzrət Peyğəmbərin (s) zamanında fiqhi hökmləri, yəni namaz, oruc, zəkat, miras, ticarət, həcc və bu kimi ibadi və ya qeyri-ibadi mövzuların hökmlərini Quran və həzrət Peyğəmbərdən (s) öyrənirdilər.

Bu dövrdə həzrət Peyğəmbər (s) özü Allah-taalanın sözlərini xalqa çatdırır və onları hidayətə çağırırdı...

Amma həzrət Peyğəmbər (s) dünyadan köçdükdən sonra əhkamı ələ gətirməyin qaynağı Quran və həzrət Peyğəmbərin (s) sünnəsi oldu. Əlbəttə Quranın başa düşülməsində və həzrət Peyğəmbərin (s) sünnəsində vücuda gələn ixtilaflarda, müsəlmanlardan bəziləri həzrət Peyğəmbərin (s) vəsiyyətinə sadiq qalaraq, Əhli-beyt (ə)-ı özlərinə meyar götürdülər. Amma onların bəziləri bu məsələlərdə ya öz nəzərlərini və yaxud da başqa səhabələrin nəzərlərini əsas qəbul etdilər.

Bu da fikri ixtilaflarda iki məktəbin meydana gəlməsinə səbəb oldu.

Islam cəmiyyətinin artımı, mədəni həyatın genişlənməsi və yeni məsələlərin yaranmasına səbəb oldu ki, bunların şəri hökmləri bəyan edilsin. Islam fiqhində bu genişlənmə təxminən hicri tarixinin birinci yüz illiyinin sonlarında başlamışdır. Bu da imam Məhəmməd Baqirin (ə) zamanına təsadüf edir.

Hədis, rical, fiqh alimlərinin yazdıqlarına görə, imam Məhəmməd Baqir (ə) müsəlmanların elmi və fiqhi mərkəzi olan Mədinənin böyük alim və fəqihi sayılırdı. O, yüksək elmi dərəcəsinə görə «Baqir» ləqəbini almışdır.

Imam Məhəmməd Baqirin (ə)-dan sonra, oğlu imam Cəfər Sadiq (ə)-ın zamanında müxtəlif islami elmlər, xüsusilə fiqh elmi daha da genişlənmişdi.

Imam Cəfər Sadiq (ə) həzrət Peyğəmbərin (s) hədislərini yayaraq çoxlu alim, fəqih, mütəkəllim və mühəddis tərbiyə etmişdir.

Hətta islam məzhəbçilərindən bəzilərinin başçıları da imam Cəfər Sadiq (ə)-ın yanında dərs oxumuşdular...

Əlbəttə imam Məhəmməd Baqirin (ə) və imam Cəfər Sadiq (ə) islam əhkamını bəyan edərkən ayrıları kimi «mənim nəzərimə görə bu məsələnin hökmü belədir» demirdilər. Onlar eyni ilə həzrət Peyğəmbər (s) kimi hər məsələnin hökmünü Allah-taalanın buyurduğu kimi bilir və bəyan edirdilər. Çünki, onlar həzrət Peyğəmbərin (s) elminin həqiqi varisləridirlər. Onların elmləri öyrənmək yolu ilə deyil, peyğəmbərlər kimi Allah vergisi ilə idi. Əlbəttə onlar peyğəmbər deyildilər. Amma həzrət Peyğəmbərin (s) vəsisi idilər. Buna görə də imam Məhəmməd Baqirin (ə) və imam Cəfər Sadiq (ə) müctehid, (yəni öz nəzərinə görə islami hökmləri açıqlayan) deyildir. Onlar Qurani-kərimi və həzrət Peyğəmbərin (s) sünnəsini bəyan edən vəsilədirlər.

Imam Cəfər Sadiq (ə)-ın dövranında bəzi ayrı fiqhi məktəblər də meydana gəldi. Bunlar «rəy» və «qiyas»a əsaslanan məktəblər idilər...

Bunlardan biri bir müddət imam Cəfər Sadiq (ə)-ın yanında dərs oxuyan Əbu Hənifə Noman ibni Sabitin qurduğu fiqhi məktəbdir. Bu məktəb Hənəfi məzhəbi olaraq tanınır. Hənəfi məzhəbindən başqa da bir çox fiqhi məktəblər yaranmışdı. «Nəss»ə bağlı olan Əhli-beyt (ə)-ın fiqh məktəbinin müqabilində meydana gələn «qiyas» və «rəy»ə əsaslanan bu fiqhi məktəblər sonralar «Hənəfi», «Maliki», «Hənbəli», Şafei» məzhəbləri adı ilə dörd məzhəbdə məhdudlaşdı.

Imam Cəfər Sadiq (ə)-ın zamanında yayılan Əhli-beyt (ə)-ın fiqh məktəbində işarə olduğu kimi yeganə qaynaq kitab (Quran) və sünnədir. Bu məktəb «rəy» və «qiyasın» islama əhkamlarının qaynaqlarından sayılmasını rədd edir. Amma ayrı fiqhi məktəblər Quran və sünnədən ayrı qaynaqları da etibarlı sayırlar. Bunların mötəbər bildikləri qaynaqların mühümləri bunlardır:

1. Qiyas;
2. Istehsan;
3. Məsalehi mürsələ;

4. Fəthüz-zərae və səddiha.

Əlbəttə, bu məzhəblər öz aralarında bu qaynaqların bəzilərinin qəbul və ya rədd edilməsində bir-birləri ilə ixtilafa düşmüşdülər.

Əsasən bu qaynaqlar barəsindəki ixtilafları və mövcud olan müştərək qaynaqlardan bir hökmü anlamaqda, vücuda gələn anlayış firqələri, bunlar arasında ictihad və fətva ixtilaflarına yol açmış və nəticədə müxtəlif məzhəblər vücuda gəlmişdir. Bu məzhəblərlə «nəss»ə (Quran və sünnəyə) əsaslanan Əhli-beyt (ə)-ın məktəbi arasında yaranan fərqlərin mühüm səbəblərindən biri elə bu qaynaqlardakı ixtilafdır.

Buna görə də fiqhi məzhəblərin ictihad və fətvadakı ixtilaflarının mühüm səbəbləri arasında bu iki amilin mühüm yeri vardır:

1. Kitab və sünnədən başqa bəzi şeyləri şəri hökmlərin və islam əhkamının qaynağı kimi tanınması barədə olan ixtilaf.

2. Bəzi rəvayətlərin qəbul edilib-edilməməsi barəsində olan məzhəblərin ixtilafı. Bu ixtilaf bəzi məzhəblərin bir sıra ravilərin rəvayətlərinə etimad etmələri və digər məzhəblərin o ravilərə etimad etməməsindən vücuda gəlmişdir.

Göründüyü kimi fiqhi məzhəblər arasındakı ixtilaf, bir elmi məsələdir və dünya müsəlmanlarının bu elmi məsələnin yaratdığı bəzi ixtilaflardan ayrı bir ixtilafı yoxdur.

Məlumdur ki, elmi bir ixtilaf islam ümmətinin düşmənlər müqabilində bölünüb-parçalanmasına səbəb olmamalıdır. Çünki, mümkündür bu ixtilafın böyük bir hissəsi münasib elmi mübahisələrlə aradan getsin. Əlbəttə elmi bəhslərin nəticə verməsi üçün bəzi münasib zəminələrin vücuda gəlməsi lazımdır. Onlardan biri də bəzi islami məzhəblər tərəfindən bağlı elan olunmuş ictihad qapısının açılmasıdır.

Burada bu nöqtəyə də diqqət yetirmək yerində olardı ki, fiqhi zəmində olan ixtilaflar təkcə şiə ilə sünni arasında deyildir. Bu ixtilaflar sünni məzhəblərinin öz aralarında da mövcuddur. Başqa sözlə desək, bu gün məşhur olan altı fiqhi məzhəbdən, yəni Cəfəri, Zeydi, Hənbəli, Şafei, Maliki və Hənəfi məzhəblərindən hansı birisini nəzərdə tutsaq, görərik ki, digər məzhəblərlə bəzi məsələlərdə ixtilafı vardır.

Bu ixtilaflardan bəziləri, əgər işarə olan münasib elmi bəhslər vücuda gəlsə aradan gedə bilər... Amma bu həqiqəti də qəbul etmək lazımdır ki, fəqih və müctehidlər arasında olan fərqli görüş və nəzərlər qalacaqdır. Amma bu mötədil və təəssübdən uzaq bir elmi çalışmanın təsiri olarsa, təbii ki, bu iş görülməlidir. Bəli, elm və mədəniyyətin başqa sahələrində də bu cür ixtilaflar mövcuddur. Çünki, mümkündür bəzən müctehid də bir tədqiqatçı alim kimi səhv etsin. Əlbəttə əgər onun ictihadı doğru mənbələrə əsaslanarsa, səhvində üzürlü sayılır.

Burada misal olaraq bəzi şəri məsələlərdə müxtəlif fiqhi məzhəblərin nəzər və fətvalarına işarə etmək istəyirik. Bununla da məlum olacaqdır ki, fiqhi məsələlər haqqında mövcud olan ixtilaf, yalnız şiə ilə sünnilərin bəzi fiqhi məzhəblərinin arasında deyil, sünni məzhəblərinin öz aralarında da möcuddur. Və yenə məlum olacaqdır ki, bir mövzuda ixtilafı olan iki məzhəb mümkündür ki, digər bir mövzuda eyni nəzərdə olsunlar.

Məsələn, Cəfəri məzhəbi (Şiə məzhəbi) ilə Hənbəli məzhəbi namazda birinci təşəhhüdün oxunmasını vacib, Hənəfi və Şafei məzhəbləri isə onun vacib deyil, müstəhəbb olduğuna inanırlar. Sonuncu təşəhhüd barəsində isə Şafei, Cəfəri və Hənbəli məzhəbləri onun vacib olduğuna fətva verdikləri halda, Maliki və Hənəfi məzhəbləri onu namazda vacib bilməmişlər». [«Bidayətül-Müctehid» 1-ci cild, səh.125. Bu mətləbi Məhəmməd Cavad Muqniyənin «Əl-fiqhü ələl-məzahibil-xəmsə» kitabından nəql edibdir.]

Eləcə də Şafei, Maliki və Hənbəli məzhəbləri namazda salamın vacib olduğunu söylədikləri halda, Hənəfilər onun vacib olmadığını demişlər. Cəfəri məzhəbində də bu barədə ixtilaf vardır. Bir sıra alimlər onun (salamın) vacib olduğunu, bəzi alimlər isə onun məüstəhəbb olduğunu söyləmişlər. Salamın müstəhəbb olduğunu söyləyən alimlər arasında Mərhum Şeyx Müfid, Şeyx Tusi və Əllamə Hilli də vardır. [«Əl-fiqhü ələl-məzahibil-xəmsə» (Şeyx Məhəmməd Cavad Muqniyə)]

Camaat namazı barəsində də Hənbəli məzhəbi onu hər bir imkanı olan fərdə «Vacibi eyni» bilmişdir... Əlbəttə demişlər ki, əgər bir nəfər bu vacibə itaət etməyib namazını fərdi yerinə yetirərsə, bu məzhəbə görə onun namazı səhih sayılar.

Amma Cəfəri, Hənəfi, Maliki və Şafeilərin çoxu namazı camaat ilə qılmağı nə «Vacib eyni» və nə də

«Vacib kifai» bilmir. Onlar onu təkidlə müstəhəbb bilirlər.

Zəkatın kimə verilməsi barədə Şafei və Hənbəli məzhəbləri bu əqidədədirlər ki, hər kim bir il ona kifayət edəcək qədər ehitaycların yarısını təmin edərsə, fəqir sayılmaz və ona zəkat düşməz; amma Cəfəri və Maliki məzhəbləri bu əqidədədirlər ki, şəriətdə bir il ona və ailəsinə yetəcək miqdarda ehtiyaclarını təmin etməyə qüdrəti olmayan şəxsə fəqir deyilir. Belə bir şəxs ilin yarısını təmin etməyə özünün gücü yetsə də fəqir sayılır və ona zəkat düşür.

Cəfəri, Şafei və Hənbəli məzhəbləri güzaranı üçün pul qazanmağa qüdrəti olan şəxsə zəkat verilməyəcəyinə fətva verdikləri halda, Hənəfi və Maliki məzhəbləri belə bir şəxsə də zəkat verilə biləcəyi barədə fətva vermişlər.

Hənəfi, Şafei və Hənbəli məzhəbləri Həcc əməllərini yerinə yetirən bir şəxsə «Müzdəlifə» də yatmağın vacib olduğunu və onu tərk edənin boynuna bir qurban kəsmək düşdüyünü söylədikləri halda, Cəfəri məzhəbi ilə Maliki məzhəbi bunun vacib deyil, müstəhəbb olduğunu demişlər.

Həcc əməllərindən olan «Cəmərеyi əqəbə» haqqında Cəfəri, Maliki və Hənəfi məzhəbləri bu əməlin xəstəlik, qorxu və sairə bu kimi bir üzr olmadığı halda dan yeri sökülməzdən qabaq yerinə yetirləməməsinə fətva vermişlər. Amma Şafei məzhəbi dan yeri sökülmədən qabaq bu əməlin yerinə yetirməyi vacib deyil, müstəhəbb bilirlər.

Cəfəri, Hənbəli və Şafei məzhəbləri evlənmək və nikahın yazmaq ilə həyata keçməsinə inamlı olmadığı halda, Hənəfi məzhəbi evlənən kişi ilə qadın bir yerdə olmasalar da yazmaq yolu ilə nikah əqdinin səhih olacağını demişlər.

Şafei və Maliki məzhəbləri həddi-büluğa yetişmiş bir qızı bakirə olduğu surətdə ərə verməkdə yalnız atasının, yaxud (atası olmadıqda) sahibinin icazəsiylə nikahın bağlanmasına inamlıdırlar. Amma bakirə olmadığı bir halda isə ata yaxud sahib ilə qızın ikisinin də razı olmalarını şərt bilmişlər. Bunu nəzərə alaraq, nikah əqdi oxumaq haqqı qadınlara verilməmişdir və qadın tərəfindən əqdi oxumaq yalnız sahibin səlahiyyəti bildirilmişdir.

Amma Hənəfi məzhəbinə görə həddi-büluğa çatmış ağıllı bir qız özü istədiyi ilə ailə qura bilər. Qadın olub-olmamasının fərqi yoxdur, hər iki halda özü nikah əqdi oxuya bilər və heç bir kəsin ona bu barədə sahiblik və ya etiraz haqqı da yoxdur. Əlbəttə bu şərtlə ki, o, özünə uyğun bir kişi ilə ailə qursun və məhri (kəbini) məhrül-misldən az olmasın.

Amma Cəfəri məzhəbinin çox alimlərinin etiqadı budur ki, bakirə olub-olmamasından asılı olmayaraq, həddi-büluğa çatmış qadın ərə getmək barədə tək başına qərar çıxarmaq haqqına malikdir. Buna görə o, özü üçün və ya vəkalət alaraq ayrı biri üçün nigah əqdi oxuya bilər və o bu cəhətdən (əqd oxumaq haqqı cəhətindən) bir kişi kimidir. [Zikr edilən mənbə]

Təlaq (boşanma) da Əbu Zöhrənin «Əl-əhvalüş-şəxsiyyə» adlı kitabında (səh.293) yazdığına görə:

«Hənəfi məzhəbində uşaq, dəli və ağlı zəif olan şəxslərdən başqa hər bir kəsin təlaqı mötəbər və səhih sayılır. Buna görə də zarafatla, sərxoş halda və ya zorla təlaq verməyə məcbur olan hər bir şəxsin təlaqı düzgün hesab olur. Həmin kitabın 286-cı səhifəsində də yazır:

«Hənəfi məzhəbindəki hökmə görə bir şəxsin yanılaraq və ya unudaraq verdiyi təlaq da səhih və mötəbərdir».

Maliki və Şafei məzhəbləri də zarafatla təlaq vermək barəsində, Hənəfi məzhəbi ilə razılaşmış, amma Hənbəlilər isə həmin məsələdə Hənəfilərlə müxalifət etmişlər.

Amma Cəfəri məzhəbinin alimləri Əhli-beyt (ə)-dan belə bir rəvayət ediblər:

«Təlaq verməyi iradə edən şəxsdən, ayrısının təlaqı mötəbər və səhih deyildir».

Həmçinin zina edən qadının iddəsi haqqında Hənəfi, Şafei və Cəfəri məzhəbinin alimlərinin çoxu zina edən qadına iddə saxlamağın vacib olmadığına etiqadlıdırlar. Bunların dediyinə görə, zinakar kişinin nütfəsinin heç bir ehtiramı yoxdur. Buna görə də zinakar qadın hamilə olsa da, iddə saxlamadan nikah eləmək qanunidir. Amma Hənəfi məzhəbinə görə zinadan hamilə olan qadını nikah etmək düzgündür, amma övlad dünyaya gələnə qədər ona yaxınlaşmaq olmaz.

Maliki məzhəbinə görə zina, iddə saxlamaq hökmü cəhətindən eyni ilə «vətyi-bişübhə» kimidir. Buna görə də iddə müddəti qədər gözləmək lazımdır. Əlbəttə hədd vurulmaq zamanı gələrsə, o zaman fəqət bir heyz müddəti qədər iddə gözləyir. [Cinayət müqabilində təyin olunmuş cəza tədbiri].

Amma Hənbəli məzhəbinə görə zina edən qadına da eyni ilə təlaq verilmiş qadın kimi iddə gözləmək

lazımdır...

Bu nümunələrdən anlaşdığı kimi islam məzhəbləri arasında olan fiqhi ixtilafları elmi bir baxışla izah etmək lazımdır. Göründüyü kimi bir məzhəbi mütləq surətdə qəbul etmək, digərinin müqabilində əks mövqedə tutmaq doğru olmaz. Çünki, bu nümunələrdə də göründüyü kimi bir məsələdə eyni nəzərdə olan iki məzhəb ayrı bir məsələdə bir-birlərindən ayrılırlar.

Həmçinin bir məsələdə ixtilafı olan iki məzhəb, ayrı məsələdə müştərək bir nəzərdə birləşirlər. Bu ixtilafın və ya ittifaqın bir məzhəbin Sünni və digərinin Şiə olmasına da dəxli yoxdur. Mümkündür, sünni məzhəblərindən biri müəyyən bir fiqhi məsələdə Cəfəri məzhəbi ilə eyni nəzərdə olduğu halda, ayrı birisi ilə müxalif olsun. Məsələn, yuxarıda gördük ki, Hənəfi və Şafei məzhəbi bir məsələdə Cəfəri məzhəbi ilə eyni fikir bölüşdürdüyü halda, Hənbəli və Maliki məzhəbləri ilə müxalif idilər. Və yaxud Cəfəri məzhəbi ilə bir nəzərdə müştərək olan Maliki məzhəbi, o barədə ayrı məzhəblər ilə müxalifdir. Bu bir aydın həqiqətdir ki, fiqhi məsələlərdə onun aşkar nümunələrinəi görmək mümkündür.

Bu həqiqətləri görmək istəməyən və Sünni ilə Şiə arasında bütün məsələlərdə ixtilaf olduğunu iddia edən şəxslər, əslində müsəlmanların birliyini pozaraq islam düşmənlərinə xidmət edirlər.

## *MÜSƏLMANLAR VAHİD BİR ÜMMƏTDİR*

Allah-taala Qurani-kərimdə buyurur:

***«Hamınız bir yerdə Allahın ipindən (dinindən) möhkəm yapışın, bir-birinzdən ayrılmayın! Allahın sizə verdiyi neməti xatırlayın ki, siz bir-birinizə düşmən olarkən O, sizin qəlblərinizi (islam ilə) birləşdirdi və onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan ibarət olan bir uçurumun kənarında ikən O, sizi oradan xilas etdi, Allah öz ayələrini sizin üçün, bu şəkildə aydınlaşdırır ki, bəlkə haqq yola yönəlmiş olasınız.***

***(Ey insanlar!) Içərinizdə (insanları) yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar (bu camaat), həqiqətən nicat tapmış şəxslərdir. (Allah tərəfindən) açıq-aydın dəlillər gəldikdən sonra, bir-birindən ayrılan və ixtilaf törədən şəxslər kimi olmayın! Onlar böyük bir əzaba düçar olacaqlar».*** *(Ali Imran-103,105)*

***«(Ya Məhəmməd! Ümmətinlə birlikdə) batildən haqqa tapınaraq (pak bir müvəhhid, xalis tək allahlı kimi) üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (islama) tərəf tut. Allahın dinini (Onun yaratdığı tövhid dini olan islamı) heç yolla dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu (haqq dini olan islam olduğunu) bilməzlər. (Allah bütün insanları xilqətdə müsəlman, təkallahlı yaratmışdır, lakin ata-anaları onları başqa dinlərə sövq etmiş, yaxud onlar yaşa dolduqda öz nadanlıqları üzündən batil dinlərə, bütpərəstliyə uymuşlar.)***

***«(Ya Məhəmməd! Sən və ümmətin) tövbə edərək Allaha tərəf dönün, Ondan (Allahın əzabından) qorxun, namaz qılın və müşriklərdən olmayın. O kəslərdən ki öz dinini parçalayıb firqə-firqə oldular (bəzisi bütlərə, bəzisi günəşə və aya, bəzisi ulduzlara səcdə etməyə başladılar.) Hər bir firqə öz dininə (öz dininin haqq olduğuna) sevinirdilər».*** *(Rum-30,32)*

***«Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə (Imamlara) itaət edin. Əgər bir iş barəsində ixtilaf etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarı ilə daha yaxşıdır».*** *(Nisa-59)*

***«(Islam dininin sayəsində) vahid ümmət sizin ümmətinizdir, Mən də sizin Rəbbinizəm. Məndən (əzabımdan) qorxun!»*** *(Mömunun-52)*

***«Allaha və Onun Peyğəmbərinə itaət edin. Bir-birinizlə çəkişməyin, yoxsa zəifləyər və gücdən düşərsiniz. Səbr edin, çünki, Allah səbr edənlərlədir»*** *.(Ənfal-46)*

Yəhudilər, müşriklər, münafiqlər, bütpərəstlər və xristianlar tərəfindən başlanan plan və oyunlar həzrət Rəsuli-əkrəmin (s) zamanında baş tutmadı. Peyğəmbəri-əkrəm (s) və ayıq müsəlmanlar bu planların nəticəsiz qalması üçün çox zəhmət çəkmişlər.

Həzrət Peyğəmbərin (s) yəhudilər və münafiqlər müqabilində apardığı mübarizə müxtəlif hadisələrlə zəngindir. Bu tarix açıq şəkildə göstərir ki, düşmənlərin islama zərbə vurmaq üçün istifadə etdikləri ən mühüm hiylələrdən biri təfriqə salmaq və parçalamaqdır.

Islam peyğəmbəri həzrət Məhəmmədin (s) islam dininə dəvəti yəhudilər və müşriklərin vasitəsi ilə

idarə olunan fitnəkarlığa məruz qaldı, amma Həzrət Peyğəmbərin (s) rəhbərliyi və səhabənin xalisliyi sayəsində düşmənin hiyləsi baş tutmadı.

Qurani-kərim müsəlmanların dəyişik adlar altında birliklərini itirib parça-parça olmalarını, bir-birlərindən ayrı düşüb, nəticədə bir-birlərinə düşmən kəsilmələrini şiddətlə nəhy etmiş və bunu başa düşmək üçün, Qurani-kərim və Həzrət Peyğəmbərin (s) sünnəsini mütaliə etmək kifayət edər. Qurani-kərimin ayələrinin nazil olma səbəblərini və islam tarixini araşdırmaq, Həzrət Peyğəmbərin (s) bu təhlükəyə qarşı amansız bir mübarizə apardığını göstərir.

Qurani-kərim keçmiş ümmətlərin tarixlərindən misallar zikr edərək, müsəlmanları ixtilaf və təfriqələrdən uzaq olmağa, eləcə də birləşərək vəhdət yaratmağa dəvət edir:

Qurani-kərim müsəlmanların diqqətini tövhid kəlməsinə dəvət edərək buyurur:

***«...Və bir-birinizlə çəkişməyin, yoxsa zəifləyər və gücdən düşərsiniz».***

Göründüyü kimi Qurani-kərim müsəlmanları uçuruma doğru yuvarlayan ixtilaf və təfriqədən uzaqlaşdırır və onu müsəlmanlar üçün zəiflik, süstlük və qorxaqlıq kimi qiymətləndirərək onların qüdrət və dövlətlərinin aradan getməsi təhlükəsini bildirir. Onlara xatırladır ki, cəmiyyətin arasında təfriqə və düşmənçilik toxumu səpmək müşriklərin və azğın millətlərin xasiyyətidir. Onların müqəddəs bildiyi vəhdət kəlməsini parça-parça edərək, onların müəyyən olunaraq aydınlaşdırılmış hidayət yollarını məsxərə edirlər.

Qurani-kərim müsəlmanların diqqətini tövhid kəlməsinə cəlb edərək buyurur:

***«...Elə isə üzünü ixlas ilə dinə doğru çevir...»***

Eləcə də xalqı vəhdətə dəvət edərək buyurur:

***«Birlikdə Allahın ipinə sarılın və heç vaxt dağılmayın».***

Və yenə müsəlmanları vahid bir ümmət elan edərək belə buyurur:

***«Sizin ümmətiniz vahid bir ümmətdir və mən də sizin Rəbbinizəm, elə isə Məndən qorxun».***

Və yenə buyurur:

***«Sizin ümmətiniz vahid bir ümmətdir və Mən də sizin Rəbbinizəm, elə isə Mənə ibadət edin».***

Beləliklə Qurani-kərim müsəlmanların birlik və vəhdət əsaslarını aşağıda göstərilən kimi izah edir:

1. Məbud (Allah) birdir... və həyatdan məqsəd Onu tək bilib, yalnız Ona ibadət etməkdir;

2. Dinin məqsədi insanları həqiqət yolunda sabit etmək və onları Allahın yaratdığı fitrətə doğru istiqamətləndirməkdir;

3. Islam ümmətinin vəzifəsi odur ki, bütün gücünü xalqın islama dəvət olunması yolunda sərf etsin. Xüsusilə müsəlmanların bir hissəsi xalqı yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirməlidir.

Bununla onlara, Allah-taalanın əmrlərini insanlara çatdırmaq vəzifəsini öhdələrinə götürmələri barədə belə buyurur:

***«Və sizlərdən bir dəstə insan (xalqı) xeyirə dəvət edib, (onları) mərufa (yaxşılığa) əmr etsinlər və münkərdən (pislikdən) çəkindirsinlər».***

Beləliklə, islam ümməti öz güclərini bir-birləri ilə çəkişməyə yox, insanları haqqa və islama dəvət etmək yolunda sərf etməlidirlər. Çünki, bir-birləri ilə çarpışaraq zəifləyər və asanlıqla düşmənə yem olarlar.

Qurani-kərim müsəlmanların ixtilaf səbəblərinə diqqət yetirərək onların həll etmək yollarını bəyan etmişdir:

1. Şəri və fikri ixtilaflar meydana gələn zaman müsəlmanlar Qurani-kərimə və Peyğəmbərin (s) sünnəsinə müraciət etməlidirlər.

***«...Əgər bir şeydə ixtilafınız olsa, onu Allaha və Peyğəməbərə tapşırın».***

Və buyurur ki:

***«Ixtilaf etdiyiniz hər bir şeyin hökmü Allaha aiddir».***

Quran, fikri və dini ixtilafları təfriqə və düşmənçiliyə çevirməyi bizlərə qadağan edərək buyurur:

***«Bir-birinizlə çəkişməyin, yoxsa zəifləyər və gücdən düşərsiniz».***

2. Müsəlmanlar siyasi-ictimai məsələlərdə «Vəliyyi-əmr»ə itaət etməlidir. Çünki, siyasi-ictimai

məsələlərə rəhbərlik etmək «Vəliyyi-əmr»in vəzifəsidir. Ona görə də müsəlmanlar müxtəlif nəzər və mövqelərə parçalanmadan «Vəliyyi-əmr»in ətrafında birləşib, müştərək bir cəmiyyət yaratmalıdırlar.

***«Allaha, Peyğəmbərə (həzərt Məhəmməd (s)) və sizdən olan əmr sahiblərinə (yəni, Əhli-beyt (ə)-a) itaət edin».***

Müsəlmanlar bu gün öz vəhdət və birliklərini yaratmaq üçün mühüm əsaslara malikdirlər. Əlhəmdulillah! Bu əsasların fövqündə heç bir təhrif və dəyişikliyə uğramayan, başqa sözlə Allahın Peyğəmbərə nazil etdiyi şəkildə mövcud olan Qurani-kərim dayanır.

Allah-taala buyurur ki:

***«Həqiqətən zikri (Quranı) Biz nazil etdik və həqiqətən onu Biz qoruyacağıq».***(*Hicr-9*)

Müsəlmanların hamısı bir Qurana etiqad bəsləyir və tövhid əqidəsində müştərəkdirlər.

Qurani-kərimdə onların bir Allaha inanmaqlarını, hamısının həzrət Məhəmməd ibni Əbdüllahın (s) son peyğəmbər olduğuna etiqadlı olmalarını, bir qibləyə ibadət etmələrini, namaz, oruc, həcc, cihad, zəkat, yaxşı işlərə əmr etmək və pis işlərdən çəkinmək kimi dinin vacib olan hökmlərinə inanmaqda müştərək olmalarını, zina, şərab içmək, adam öldürmək, yalan danışmaq va ata-ananın üzünə qayıtmaq kimi günahların haram olduğunu bəyan edir.

Bundan başqa da müsəlmanlar arasında bir çox digər məsələlərdə də birlik vardır. Onlar bu məsələlərin sayəsində öz vəhdətlərini hifz edib vahid bir ümmət yarada bilərlər.

Müsəlmanlar arasında mövcud olan məzhəbi və ictimai fərqlər onların vəhdətlərini pozmamalıdır. Onlar öz ixtilaflarını həll etmək üçün Qurani-kərimə və Peyğəmbərin (s) sünnəsinə müraciət etməlidirlər. Çünki, həzrət Peyğəmbər (s) müsəlmanlar üçün onların tamam məsələlərini və dərdlərini həll edəcək bir din və açıq bir yol qoymuşdur.

Bu barədə həzrət Peyğəmbər (s) buyurur:

***«Mən sizi açıq və aydın bir yol üzərində qoymuşam (və sizdən ayrılıram), elə bir yol ki, onun gecəsi də gündüzü kimidir. (Gizli olması vacib olan cəhətlər də haqqı tapmaq istəyənlərə çox aşkardır)».***

Bu gün islam ümməti özünün çox çətin və dəqiq bir tarixi mərhələsini keçirir. Səlib yürüşlərindən başlayaraq müsəlmanların yüz illər boyunca yəhudi və xristianlar tərəfindən məruz qaldığı basqın, istila və mədəni fikri hücumlardan yaxa qurtarmaq üçün, son zamanlarda şiddətli hərəkat və dönüş nöqtəsi yaranmışdır.

Islam ümmətinin düşmənləri, xüsusilə xristianlar, sionistlər və onlara tabe olanlar, müsəlmanların əqidə və mədəniyyətlərini yıxmağa və onları öz əsarətləri altına almağa çalışırlar... Onlar on doqquzuncu və iyirminci əsrlərdə öz fəaliyyətlərini daha da gücləndirmişlər. Onlar çox səy ediblər ki, müsəlmanlar arasında olan birlik tellərini qırsınlar və onların içərisində siyasi, fikri və milli ixtilaflar yaratsınlar. Digər tərəfdən də mədəniyyət və inkişaf adı altında materializm fikir və ideologiyasını müsəlman gənclər arasında yayaraq onları əsassız şeylərlə dindən uzaqlaşdırmışlar.

Uzun müddət bir çox gəncləri dialektik materializm əfsanələri və kommunizm xülyaları ilə aldatmaq, bəzilərini də qərbin fəsada boyanmış kapitalist hökuməti qurmaq arzusuyla aldatmışlar. Onlar və onların satqın nökərləri və şüurlu şəkildə, yaxud kor-koranə öz fikir, qələmlərilə düşmənlərə xidmət edən ziyalıların yardımı ilə islam torpaqlarının hər bir nöqtəsində müxtəlif adda partiya, cəmiyyət hətta hökumətlər yaradaraq müsəlmanları parçalamağa xidmət edən millətçilik fikirlərini yaymağa səy etmişlər. Eyni zamanda da xalqı islama dəvət edən şəxsləri müxtəlif vasitələrlə sıradan çıxararaq, hər tərəfdə qərbin materialist ideologiyasını yaymağa çalışmışlar.

Hər nə qədər səmimi müsəlman, fikir sahibləri müsəlmanları birləşdirməyə, onları islamın xilasedici qurluşu ilə tanış etməyə və ilahi qanun və nizamları icra etməyə səy etmişlərsə də, islamın həqiqətlərindən xəbəri olmayan qərb universitetlərində təhsil almış ziyalılar və islam düşmənlərinin digər nökərləri, hətta o nökərlərə xidmət edən satqın din xadimləri də buna qarşı çıxmışlar. Biri demokratiya və azadlıq, başqa biri millətçilik və biridə dinin siyasətdən ayrı olması adı altında müsəlmanların ayrılmasının və bu cansıxıcı şəraitin aradan qaldırılmasının qarşısını almışlar.

Bunun nəticəsində də illər uzunu sionist, kapitalist və kommunist dövlətləri müsəlmanların üzərində öz nüfuzunu artırmış və asanlıqla onların yeraltı-yerüstü sərvətlərini talan etmişlər.

Təəssüflər olsun ki, bu vəziyyət bu gün də davam etməkdədir...

Nəhayət islam ümmətinin və onun övladlarının üzərinə düşən vəzifə odur ki, müsəlmanların başına açılan bu oyunlar haqqında yaxşı fikirləşsinlər və onların arasında müxtəlif adlarla təfriqə və düşmənçilik yaradan şəxslərin həqiqətini və kimə xidmət etdiklərini dərk etsinlər.

Qeyd olunduğu kimi, müsəlmanları parçalamaq uğrunda aparılan düşmən hiylələrindən ən təhlükəlisi, onların məzhəb adı ilə bir-birinin adına yalan sözlər söyləməklə düşmənçilik yaratmalarıdır.

Düşmənlər bu məsələyə o qədər əhəmiyyət verirlər ki, hətta tarixin qaranlıq səhifələrindən çoxdan unudulan və etibarı olmayan bəzi zəif hədisləri və ya sözləri ayrı-ayrı məzhəblərin arasında yayır və bununla da müsəlmanların qəlblərində bir-birlərinə qarşı ülfət yaranmasının qarşısını almaq istəyirlər. Halbuki, müsəlmanlar yaxşı bilirlər ki, hədis adı ilə kitablarda yazılan bəzi uydurma sözlərin əsası yoxdur. Həzrət Peyğəmbərin (s) özü (bir nəqlə görə) «Həccətül-vida» da (sonuncu həcc mərasimində) xalqa açıqca müraciət edərək buyurmuşdur:

***«Mənim adımdan yalan danışanlar çoxalıb və (onlar bundan sonra) daha da çoxalacaqdır. (Bilin ki), hər kim mənim adıma bilə-bilə yalan danışarsa, cəhənnəmin atəşində özünə yer tutsun, (hazırlasın). Əgər sizə bir hədis (mənim adımdan söylənilən bir söz) gəlib çatsa, onu Allahın kitabı və mənim sünnəmlə müqayisə edin ki, Allahın kitabı və mənim sünnəmlə uyğun gələni qəbul və onlarla müxalif olanları rədd edin».***

Bütün bunlar məlum olduğu halda nəyə görə bəzi təxribatçı yazarlar, üzdəniraq kitab və məqalələr yazaraq nəşr etdirir və müsəlmanlar arasında təfriqə, ixtilaf, fitnə və düşmənçilik toxumu əkməyə çalışırlar? Nəyə görə müsəlmanların bir qismini haqsız yerə digər bir qisminə qarşı qaldırır və ürəklərində nifrət və ədavət yaradırlar.

həzrət Peyğəmbər (s) bir hədisdə belə buyurubdur:

***«Iman gətirməsəniz cənnətə girə bilməzsiniz və eləcə də bir-birlərinizi sevməsəniz iman gətirə bilməzsiniz. Mən sizə əməl edəcəyiniz təqdirdə aranızda məhəbbət yaradan bir şey öyrədim. Bir-birinizə salamı açıq və aşkar bir səslə deyin»*** .[Sünənü Əbi Davud, 4-cü cild səh. 350 (Əbu Davud)]

Şübhə yoxdur ki, müsəlmanların arasına təfriqə salmaq və onları parçalamaq sahəsində aparılan fəaliyyətlərin arxasında, beynəlxalq imperializm və onun çirkin niyyətləri durur. Çünki, onlar həzrət Məhəmmədin (s) ümmətinin birliyindən yaranacaq qüvvənin öz istismarçı varlıqları üçün böyük təhlükə hiss edərək bundan qorxuya düşür.

Hər bir elm və qələm sahibi, din xadimi, ümmətin dərdini dərk edərək onunla həmdərd olanlar və fəxrlə özünü həzrət Məhəmməd Mustəfanın ümmətindən hesab edən, hər bir səmimi və ayıq şəxsin vəzifəsi budur ki, müsəlmanların arasında düşmənçilik və ixtilaf yaradan bu fəaliyyətlərin qarşısını alsın və onları birliyə dəvət etməklə aralarında olan fikri və fiqhi ixtilafları sübut və elmi dəlillə həll etməyə çalışsınlar.

Ibni Şəhr Aşub «Mənaqibi Ali Əbi Talib» adlı kitabında nəql edibdir:

«Bir qadın öləndə vəsiyyət etmişdi ki, ondan sonra, onun malının üçdə birindən həm sədəqə verilsin, həm onun tərəfindən həcc əməli yerinə yetirilsin və həm də bir qul azad edilsin. O qadının malının üçdə biri bu işlərə çatmadığı üçün, bu məsələni Əbu Hənifədən və Süfyan Suridən soruşdular. Əbu Hənifə və Süfyan Suri bu məsələyə belə cavab verdilər: «O puldan bir hissəsini elə bir şəxsə verərlər ki, onun həcc mərasimini icra edən zaman pulu qurtara və o əməlləri tamamlamaq üçün, imkanı olmaya. Pulun ikinci bir hissəsini elə bir şəxsə verərlər ki, o şəxs qul azad etməyə vəzifəli olduğu halda, bu işə imkanı çatmaya. Nəhayət pulun qalan hissəsi sədəqə verilər. Imam Cəfər Sadiq (ə)-ın səhabələrindən olan Ibni Əmmar bu məsələnin cavabını o Həzrətdən (ə) soruşdu. Imam (ə) buyurdu:

***«Ilk növbədə Həcc əməli yerinə yetirilməlidir. Çünki, Həcc vacib olan bir əməldir. Həccdən artıq qalan məbləğ isə onun müstəhəbb işlərində sərf olunar».***

Imam Cəfər Sadiq (ə)-ın bu fətvası Əbu Hənifənin qulağına çatan zaman o, öz fətvasını geri götürdü». [«Əlmənaqib» 5-ci cild, səh.44 (Xarəzmi). Bu mətləbi «Əlhəqaiqü fil-cəvamei vəl-fəvariq» 1-ci cild, səh.123 (Şeyx Həbib Ali Ibrahimin kitabından nəql edib.)]

Əbul Qasim Biğar «Müsnədi Əbi Hənifə» adlı kitabında yazır: «Həsən ibni Ziyad deyir ki, Əbu Hənifədən—gördüyün şəxslərdən hansını daha yüksək fəqih hesab edirsən—deyə soruşduqda belə cavab verdi: «Cəfər ibni Məhəmməd» (Yəni imam Məhəmməd Baqir (ə)-ın oğlu imam Cəfər Sadiq (ə)-ı).

Əbu Hənifə deyir: «Abbasi sultanı Mənsur, Cəfər Sadiqi (ə) gətirəndən sonra məni çağırıb dedi: «Ey

Əbu Hənifə, xalq Cəfər ibni Məhəmmədə (imam Cəfər Sadiq (ə)-a) aldanıbdır; Sən onu mübahisədə məğlub etmək üçün güclü və çətin suallar hazırla!» Mən də onunla mübahisə etmək üçün qırx məsələ hazırladım. Sonra Mənsur «Hirədə» olan zaman adam göndərib məni çağırtdırdı. Mən gəlib onun hüzuruna varid oldum. Imam Cəfər Sadiq (ə) onun sağ tərəfində oturmuşdu. Onu (imam Cəfər Sadiq (ə)-ı) görən zaman özümdən aslı olmayaraq, Mənsur Abbasidən daha çox onun heybəti ürəyimə düşdü, (Ona) salam verdim və o da salamıma cavab verdikdən sonra oturdu. Mənsur ona müraciət edərək dedi: «Ey Əbu Əbdüllah! (Imam Cəfər Sadiq (ə)-ın künyəsidir.) Bu Əbu Hənifədir». O da—***«Bəli mən onu tanıyıram»***—dedi. Mənsur daha sonra mənə baxaraq—Ey Əbu Hənifə, öz suallarını Əbu Əbdüllaha təqdim et—deyə, dilləndi. Mən də suallarımı verməyə başladım.

Mən soruşduqca O, (imam Cəfər Sadiq (ə)) cavab verir və deyirdi:

«Bu məsələdə siz belə deyirsiniz, Mədinə əhli belə deyir və biz belə deyirik. Eyni bir məsələdə bəzən biz sizlərlə, bəzən də onlarla müttəfiq və bizi vaxtlarda onlara və bəzən də hamımızla müxalif oluruq».

Beləliklə, mən qırx məsələnin hamısını təqdim etdim və O (imam Cəfər Sadiq (ə)) da onların heç birini cavabsız qoymadı». Sonralar Əbu Hənifə demişdi: «O, insanların ən bilicisi və elmi məsələlərdə ixtilafları həll etməkdə ən böyük alimdir».

Buradan belə bir nəticə çıxarmaq olar ki, elmi müzakirələrdə tərəf-müqabilin nəzərinə diqqət yetirmək elmi üslubun əhəmiyyətini göstərir, demək istəyir ki, əgər məsələlər münasib şəraitlərdə müzakirə edilərsə, onda onun həqiqi həllinin tapılması çox asan olar.

Islam dininin də təsdiq elədiyi üslub, ən gözəl dillə və yetərli dəlillərlə bir-birini qane etməyə çalışmaq və təqdim olunan suallara cavab verməkdir. Qeyd etmək lazımdır ki, bu müasir qələm və fikir sahiblərinin diqqət etmələri vacib olan bir məsələdir. Düzgün olan elmi düşüncə və təfəkkür tərzinin bir nümunəsini Əl-əzhər universitetinin baş müftisi Şeyx Mahmud Şəltutun simasında görmək olar. Hənəfi, Hənbəli, Maliki və Şafei məzhəblərinə etiqadlı olan şeyx Şəltut, müsəlmanlara müraciət edərək yaydığı fətvası ilə Şiə (Cəfəri) məzhəbinə də digər islam məzhəbləri kimi əməl etməyin qanuni olduğunu bildirmişdir. Bundan əlavə, «Əl-əzhər» universitetinin şeyxi, doktor Məhəmməd Əl-fəhham da öz növbəsində onun verdiyi fətvaya tabe olduğunu bildirmişdir.

Burada biz iki alimin verdiyi fətvanın tam mətnini dərc etməyi məqsədə uyğun görürük.

Əl-əzhər şeyxinin (baş müftisinin) Şiə məzhəbinə etiqad etməyin qanuni olduğuna dair verdiyi fətva belədir:

O cənaba belə bir sual verilmişdi: «Bəzi şəxslər hər hansı bir müsəlman şəxsin ibadət və davranışlarının düzgün həyata keçirilməsi üçün, onun məşhur dörd sünni məzhəbindən birinə təqlid etməsini vacib bilir; Bu məzhəblər arasında Şiə məzhəblərindən olan Imamiyyə (Cəfəri məzhəbi) və Zeydi məzhəbləri yoxdur. Cənab şeyx, bu barədə sizin nəzəriniz necədir? Siz də bu fikirlə tam razısınız, yoxsa on iki imamçı Şiə məzhəbinə təqlid etməyə icazə verirsiniz?

Əl-əzhər müftisi cənab şeyx Mahmud Şəltut belə cavab vermişdir:

«Islam dini heç bir müsəlmana, məhz müəyyən bir məzhəbə təqlid etməyi vacib bilmir.

1. Biz deyirik ki, bu məsələdə hər bir müsəlman ixtiyar sahibidir. Düzgün bir şəkildə nəql olunan və məxsus kitablarda hökmləri yazılan məzhəblərdən hansını istəsə, ona təqlid edə bilər. Həmçinin bu məzhəblərdən hər hansı birinə təqlid edən şəxs, öz istəyi ilə və heç şeydən çəkinmədən hər hansı bir məzhəbi qəbul edə bilər».

2. «On iki imamçı şiə» adı ilə məşhur olan «Cəfəri» məzhəbinə də, başqa sünni məzhəbləri kimi təqlid etmək qanuni hesab olunur.

Hər bir müsəlman bu məsələni bilməli, inad və təəssübkeşlikdən yaxa qurtarmalıdır. Allahın dini və şəriəti bir məzhəbə tabe deyildir və bir məzhəb ilə məhdudlaşmır. Bunların hamısı müctəhiddirlər və Allah-taala yanında qəbul olunmuşdurlar. Nəzər və ictihad sahibi olmayan hər bir şəxsə icazə verilir ki, bu məzhəblərin hər hansı birinə təqlid etsin və onun fiqhində bəyan etdiyi şeylərə əməl etsin. Bu barədə ibadət və həyat tərzinə aid olan hökmlər arasında heç bir fərq yoxdur.

Mahmud Əlşəltut.

Ondan sonra öz növbəsində Əl-əzhərin müftisi, mərhum şeyx Məhəmməd Əl-fəhham da şeyx Mahmud Şəltutun fətvası barəsində belə yazır:

«Allah şeyx Şəltuta rəhmət etsin ki, bu mühüm məsələyə diqqət yetirərək, öz aşkar və cəsarətli fətvası ilə özünü əbədiləşdirdi. O, öz fətvasında (məzmun etibarı ilə) belə demişdi: «Fiqhi və islami məzhəb olan, kitaba, sünnəyə və ən möhkəm dəlillərə əsaslanan Şieyi-imamiyyə məzhəbinə əməl etməyə icazə verilir». Mən Allahdan islamın həqiqi əqidələri üzərində qardaş olan müsəlmanların arasında ünsiyyət yaradaraq, onları bir-birinə yaxınlaşdıran şəxslərə müvəffəqiyyət arzulayıram! (Quranda deyilir:)

***«De ki, əməl edin, bəs Allah, onun rəsulu və möminlər sizin əməllərinizi görəcəkdir».***

Axırıncı duamız budur ki, həmd aləmləri yaradan Allah üçündür».

Məhəmməd Əl-fəhham.

Beləliklə aydın olur ki, ümmətin birləşməsi üçün xalis və səmimi müsəlmanların üzünə yol həmişə açıqdır... Islam ümmətinin ən mühüm vəzifəsi odur ki, əhəmiyyətsiz ixtilaf və təəssübləri bir kənara qoyaraq birləşsinlər.

Əgər elmi məslələrdə ortaya ixtilaf çıxsa, onda təəssüb və hay-küy yaratmadan, onun həllini elmi tədqiqat və müzakirələrin öhdəsinə qoyun. Əks təqdirdə islam düşmənləri, sionistlər, imperialistlər və onların nökərləri bu elmi ixtilaflardan sui istifadə edərək, müsəlmanların arasında düşmənçilik yaradarlar.

Nəhayət, mütəal Allaha dua edirik ki, islam ümmətinə elmi ixtilafları elmi müzakirə sahiblərinə həvalə etməklə ən gözəl nemət olan vəhdət və birliyi qismət etsin.

Biz arzu edirik ki, onlar bir-birlərinə dost və qardaş gözü ilə baxsınlar. Cəmiyyətdə ixtilaf yaradanları ayırıb seçsinlər və onları rədd etsinlər. Belələrindən uzaqlaşsınlar. Təəssübsüz və fitnə-fəsadsız elmi nəzəriyyələr müqabilində təvazökarlığına məntiqi mübahisələrlə girişsinlər. Məbada islam düşmənləri, xüsusilə məlun sionistlər bu ixtilaflardan öz xeyirlərinə istifadə edə bilsinlər.

Sözümüzün sonunda islam ümmətinin cərgələrini mütəşəkkil etməyi böyük Allahdan diləyirik. Qoy Allah özü islam ümməti arasına təfriqə, fitnə, ixtilaf və düşmənçilik toxumu səpənləri məhv etsin. Şəriətin cəmiyyətdə tətbiq olmasına çalışan, insanları islama dəvət edənlərin qədəmlərini möhkəmləndirsin. Müsəlmanların cərgələrini zəiflədənlər, Allaha tərəf dəvət edənlərin və cihadpərvər qüvvələrin arasında təfriqə toxumu səpənlər əslində islam düşmənlərinə və imperiolizmə kömək edirlər.